# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 79

*Milli Məclisin iclas salonu.*
*13 noyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 110 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Novruz Məmmədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.

**Hacıbala Abutalıbov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Həsənov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fikrət Məmmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının vergilər naziri.

**Şahin Mustafayev**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**İnam Kərimov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Vaqif Əliyev**, Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini.

**Ceyhun Bayramov**, Azərbaycan Respublikasının təhsil naziri.

**Elsevər Ağayev**, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini.

**Ramin Quluzadə**, Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri.

**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.

**Azad Rəhimov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Yəhya Musayev**, Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

* * *

**Səfər Mehdiyev**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Hicran Hüseynova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Tahir Budaqov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.

**Kərəm Həsənov**, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri.

**Gündüz İsmayılov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Samir Nuriyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

* * *

**Aftandil Babayev**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti sədrinin müavini.

**Şahmar Mövsümov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Əlövsət Baxşıyev**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**İbrahim Alışov**, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru.

* * *

**Ağabala Hacıyev**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ərəstü Həbibbəyli**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Şahin Sadıqov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat və maliyyə-kredit siyasəti şöbəsinin müdiri.

* * *

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Vəfa Mütəllimova**, Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdiri.

**Azər Bayramov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**Şirzad Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
2. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.
3. İşsizlikdən sığorta fondunun 2019-cu il dövlət büdcə-

si haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

4. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

5. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

6. Azərbaycan Respublikası Milli Məclisin 2019-cu il üçün xərclər smetası haqqında.

7. Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında.

8. Azərbaycan Respublikası 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

10. "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

11. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Z iyad Səmədzadə, Samir Şərifov, Şahin Mustafayev, Vüqar Gülməmmədov, Aqiyə Naxçıvanlı, Əli Məsimli, Qənirə Paşayeva, Fəzail Ağamalı, Vahid Əhmədov, Azay Quliyev, Eldar Quliyev, Tahir Kərimli, Əflatun Amaşov, Ziyafət Əsgərov, Tahir Rzayev, Eldar İbrahimov, Sevinc Hüseynova, Şahin İsmayılov, Fərəc Quliyev, Musa Quliyev, Azər Badamov, Siyavuş Novruzov, Hüseynbala Mirələmov, Kamilə Əliyeva, Qüdrət Həsənquliyev, Gövhər Baxşəliyeva, Elmira Axundova, Nizami Cəfərov, Musa Qasımlı, Rafiq Məmmədhəsənov, Naqif Həmzəyev, İlham Məmmədov, Zahid Oruc

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*13 noyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Hörmətli millət vəkilləri, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
|---|---|
| İştirak edir | 110 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var.

Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 110
Nəticə: Qəbul edildi

Çox sağ olun, gündəlik də təsdiq edildi.

Bu gün biz büdcə zərfinə daxil olan sənədləri müzakirə edəcəyik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf və təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini reallaşdırmağa imkan yaratmışdır.

2018-ci ilin doqquz ayında bütün makroiqtisadi göstəricilər üzrə artım müşahidə edilmişdir. Mən yalnız bir neçə rəqəmin üzərində dayanmaq istəyirəm. Bu dövr ərzində valyuta ehtiyatlarımız 3 milyard ABŞ dolları artaraq 45 milyard dollara çatmışdır. Əhalinin gəlirlərinin artımı inflyasiyanı üstələmişdir ki, bu da sosial vəziyyətin yaxşılaşmasının əsas göstəricilərindən biridir.

Hörmətli millət vəkilləri, bu gün Milli Məclisdə müzakirəsinə başladığımız büdcə zərfi sənədləri ölkə həyatında müşahidə olunan müsbət dinamik dəyişiklikləri dolğun əks etdirir. 2019-cu ilin dövlət büdcəsinin ən mühüm cəhətlərindən biri vəsaitlərin məqsədli proqramlar əsasında xərclənməsidir. Büdcə xərclərinin 42 faizi, yəni 10 milyarddan yuxarısı bu proqramlar çərçivəsində xərclənəcəkdir. Bu isə 2018-ci illə müqayisədə 2 milyard 77 milyon artıq vəsaitdir.

2019-cu ilin dövlət büdcəsi sosial yönümlüyünü qoruyub saxlayacaqdır. Büdcə xərclərinin 32 faizini sosialyönümlü xərclər təşkil edir.

Diqqəti çəkən məqamlardan biri də əhalinin sağlamlığı-

nın qorunması üçün ayrılan vəsaitlə bağlıdır. 2019-cu ildə səhiyyə sahəsinə yönəldiləcək xərclər bu ilin müvafiq xərclərindən 309 milyon manat, yəni 32 faiz çoxdur. Bundan əlavə, icbari tibbi sığorta üçün əlavə olaraq 223 milyon manat vəsait ayrılması da nəzərdə tutulur. Bütün bunlar onu göstərir ki, əhalinin sağlamlığının qorunması dövlətin prioritetlərindən biridir.

Ölkə üçün strateji sahə olan təhsil xərcləri 2018-ci ilə nisbətən 11 faiz artacaq və 2 milyard 275 milyon manata çatacaqdır.

Hörmətli millət vəkilləri, ölkə iqtisadiyyatında müsbət dinamikanın qorunub saxlanılmasında və artırılmasında Nazirlər Kabinetinin rolunu qeyd etmək lazımdır. O da qeyd olunmalıdır ki, dövlət büdcəsi zərfinin sənədləri mükəmməl tərtib olunmuşdur. Bu işdə töhfəsi olan qurumların, xüsusən Maliyyə Nazirliyinin böyük zəhmətini qeyd etmək istərdim.

Bizə təqdim olunan büdcə sənədlərindən görünür ki, iqtisadi artım 2019-cu ildə də davam edəcəkdir. Belə ki, əsas iqtisadi göstərici olan ümumi daxili məhsulun gələnilki artımı 3,6 faiz səviyyəsində proqnozlaşdırılır. Bu rəqəm bir çoxlarına riskli görünür. Lakin İqtisadiyyat Nazirliyinin dəqiq hesablamaları və aparılan islahatlar göstərir ki, kölgə iqtisadiyyatının azaldılması da daxil olmaqla, bu məsələlər həyata keçirilsə, nəzərdə tutulan rəqəm real ola bilər. İqtisadiyyata investisiya qoyuluşunun cari ilə nisbətən 2,2 faiz artıq olması da iqtisadiyyatın inkişafından xəbər verir. Bu bir daha göstərir ki, 2019-cu il və sonrakı 3 il üzrə makroiqtisadi proqnozlar İqtisadiyyat Nazirliyi tərəfindən yüksək səviyyədə hazırlanmışdır.

Hörmətli millət vəkilləri, 2019-cu ildə vergi sistemində köklü islahatların həyata keçirilməsi nəzərdə tutulur. Bu-

nunla əlaqədar cənab Prezidentin təqdimatları Milli Məclisə daxil olmuşdur. Yəqin, biz növbəti iclaslarda bu təqdimatları Milli Məclisdə müzakirə edəcəyik. Azərbaycan Respublikasının Vergi Məcəlləsində və digər qanunlarında prinsipial dəyişikliklər gözlənilir. Məqsəd iqtisadi fəaliyyəti stimullaşdırmaq, kiçik və orta sahibkarlığın inkişafına daha geniş meydan açmaqdır. Sosial sığorta və işsizlikdən sığorta haqlarının toplanmasına nəzarətin vergi orqanları tərəfindən həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün vergi güzəştlərinin müəyyən edilməsi, eləcə də özəl qeyri-neft sektorunda çalışanların gəlir vergisindən azad olunması bütün qalan məsələlərlə yanaşı, uzunmüddətli perspektivdə dövlət büdcəsi gəlirlərinin artmasına gətirib çıxaracaqdır. Bu islahatlar paketinin hazırlanmasında Vergilər Nazirliyinin rolunu yüksək qiymətləndirirəm. Mən inanıram ki, nəzərdə tutulan islahatlar ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir.

2019-cu ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər parlament komitələrində ardıcıl olaraq 3 gün müzakirə edilmiş, bu müzakirələrdə 32 millət vəkili çıxış etmişdir. Bu gün biz Hesablama Palatasının da işini qeyd etməliyik. Çox yüksək səviyyədə rəy hazırlanmış və büdcəyə müsbət rəy verilmişdir.

Hesab edirəm ki, aparacağımız müzakirələrdə millət vəkilləri çox fəal olacaqlar. İndi əgər etiraz etmirsinizsə, biz müzakirələrin ardıcıllığına nəzər salaq. Həmişə olduğu kimi, təklif edirəm ki, iclasda çıxışlar bu cür qurulsun: İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin, maliyyə və iqtisadiyyat nazirlərinin məruzələri ilə başlayaq, sonra Hesablama Palatasının rəyinə qulaq asaq, ondan sonra da müzakirələrə keçək. Etiraz yoxdur ki? Ziyad müəllim, xahiş edirəm, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ziyad müəllim, vaxtı dünən komitələrin iclasında danışdıq, 25 dəqiqə, 3 dəqiqə az, çox olar.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Baş nazir, hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri! Artıq cənab Sədr Oqtay müəllim Azərbaycan iqtisadiyyatında son vaxtlarda baş verən müsbət dəyişikliklər və bu proseslərin həyata keçirilməsində Prezident İlham Əliyevin rolu barədə kifayət qədər məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci il oktyabrın 9-da ölkə iqtisadiyyatının inkişafına həsr edilmiş iclasında birmənalı şəkildə qeyd etmişdi ki, Azərbaycanın dayanıqlı inkişafı davam etdirilir, hətta qloballaşan dünya böhranı şəraitində bizim iqtisadiyyatın dayanıqlılığı təmin edilmişdir. Qarşıya qoyulan bütün vəzifələr uğurla həyata keçirilir.

Qloballaşan dünya iqtisadiyyatında baş verən prosesləri, onların Azərbaycana təsirini cənab Prezident obyektiv qiymətləndirir, dövlət və özəl sektor münasibətlərinin əsl partnyor, əməkdaşlıq münasibətlərinə çevrilməsi üçün sistemli tədbirlər həyata keçirir, ölkədə müəyyən edilmiş strateji kursun reallaşması üçün səmərəli icra mexanizmi yaradır, hökumət strukturları, o cümlədən iqtisadi strukturlar arasında koordinasiya işinin səviyyəsinin xeyli yüksəlməsinə nail olur.

İqtisadi, siyasi, hüquq islahatlarının qarşılıqlı əlaqəli şəkildə həyata keçirilməsi, ölkənin iqtisadi qüdrətinin artırılması, milli maraqların qorunması istiqamətində atılan uğurlu addımların nəticəsində beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın yeni keyfiyyət mərhələsinə keçilməsi

təmin edilmişdir. Dövlət başçısının apardığı siyasət ilk növbədə ona görə uğurla nəticələnir ki, bu siyasət ölkənin milli maraqlarının qorunmasına xidmət edir. Azərbaycan dövləti "hər şeyi bazar həll edir" fikrini fetişləşdirmir, reallığı, ölkənin iqtisadi təhlükəsizliyini daim diqqətdə saxlamağı vacib sayır. Məhz belə yanaşmanın, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlərin məntiqi nəticəsidir ki, dünyada baş verən maliyyə böhranı Avropa, ABŞ və çoxsaylı ölkələrdən fərqli olaraq Azərbaycan iqtisadiyyatı üçün sarsıntılar yaratmadı.

Cənab Sədr kifayət qədər yığcam şəkildə Azərbaycan iqtisadiyyatında baş verən müsbət yeniliklərdən, iqtisadi artımın dinamikasında olan müsbət meyllərdən danışdı və birmənalı şəkildə bildirdi ki, hökumətin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etdiyi sənədlərdə kifayət qədər reallıq, obyektivlik var və real iqtisadi artımın müəyyən edilmiş səviyyədə həyata keçirilməsi üçün respublikanın yetərli potensial imkanları vardır. Mən o rəqəmləri xatırlatmaq istəmirəm. İnvestisiyalar, real iqtisadi artım, qeyri-neft sektorunun üstün inkişafı və sair – bunlar hamısı sizlərə verilmiş məlumatlarda öz əksini tapmışdır.

Dövlət büdcəsinin müzakirəsi zamanı, bir qayda olaraq, hər il dövlət büdcəsinin formalaşmasına xidmət edən mənbələr barədə millət vəkillərinə ətraflı məlumat verilir. Mən əminəm ki, hörmətli maliyyə naziri Samir müəllim bu barədə kifayət qədər ətraflı danışacaq. 2019-cu ilin büdcəsi əvvəlki büdcədən bir çox məsələlərə görə fərqlənir. Həm parametrinə görə, xərclərin, gəlirlərin artmasına görə, həm də ilk növbədə cənab Prezidentin tapşırıqlarına uyğun olaraq ölkə iqtisadiyyatında şəffaflığın təmin edilməsinə, kölgə iqtisadiyyatının minimuma endirilməsinə görə. Bütövlükdə əmək, əmək haqqı münasibətlərinin tək-

milləşməsi ilə əlaqədar Azərbaycan dövlət büdcəsində 2019-cu il üçün kifayət qədər müsbət dəyişikliklər nəzərdə tutulur. Bu dəyişikliklərin ana xəttini, heç şübhəsiz ki, ilk növbədə Azərbaycanın milli maraqları, çox böyük zəhmət hesabına əldə olunmuş nəticələrin beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsi və Azərbaycanın gələcəkdə də bu dəyişiklikləri davam etdirməklə beynəlxalq aləmdə imicinin artması təşkil edir. Ona görə də, Oqtay müəllim, Sizə də məlumat vermişdim, komitələrin iclaslarında da bu məsələ birmənalı şəkildə müsbət qarşılandı, bizim elə göstəricilərimiz var ki, onların şəffaflığının artması nəticəsində Azərbaycanın beynəlxalq aləmdə istər iqtisadi, istərsə də sosial göstəricilərinin təkmilləşməsi, yəni yaxşılaşması istiqamətində xeyli dəyişikliklər baş verəcəkdir. Həqiqətən, elə faktlar var ki, onlar bizim üçün son dərəcə vacibdir və gələcək göstəricilərimizin əhəmiyyətini artıracaq, eyni zamanda, düzgün real proqnozlar müəyyən etmək üçün  kifayət qədər baza yaradacaqdır.

İlk növbədə, qeyd etmək istərdim ki, əmək bazarını sağlamlaşdırmaq, qeyri-rəsmi məşğulluğun səviyyəsini əhəmiyyətli dərəcədə azaltmaq və əmək haqlarını leqallaşdırmaq məqsədi ilə neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektorda 7 il müddətinə güzəştlər nəzərdə tutulmuşdur. Bu  islahatların qüvvəyə minməsindən sonra aşağıdakı sosial-iqtisadi nəticələr gözlənilir: qeyri-rəsmi məşğulluğun və əmək haqlarının kütləvi yayıldığı neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektorda əmək bazarının leqallaşması; sosial sığorta və işsizlikdən sığorta haqlarının ödənişlərdən və vergilərdən yayınmasının miqyasının azalması nəticəsində yığımın yaxşılaşması; əmək haqqı fondunun genişlənməsi və nəticədə sosial sığorta haqlarının yığımının artması; 8 min  manatdan yuxarı əmək haq-

ları üzrə gəlir vergisi daxilolmalarının artması və büdcənin maliyyə imkanlarının genişlənməsi; iş yerlərinin və əmək hüquqlarının leqallaşması nəticəsində sosial sığorta haqlarının artmasının işçilərin gələcək pensiya təminatının yaxşılaşmasına gətirib çıxarması; pensiya kapitalının həcminin artması nəticəsində pensiya sisteminin yığım hissəsində daha çox vəsaitin cəmlənməsi və bu vəsaitlərin uzunmüddətli investisiyanın mühüm mənbəyinə çevrilməsi; sadələşdirilmiş vergi dərəcəsinin 4 faizdən 2 faizədək endirilməsi.

Bilirsiniz ki, ölkə iqtisadiyyatında nağdlaşma səviyyəsinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatı üçün ən ağır, ən ciddi problemlərdən biridir. Baxmayaraq ki, müəyyən tədbirlər görüldü, amma bu gün nağdsız hesablaşmalar səviyyəsi 45–50 faiz arasında tərəddüd edir.

Əhalinin leqal və daha yüksək əmək haqları ilə banklardan kredit almaq imkanlarının genişlənməsi, nəticədə bank kreditlərinin həcminin böyüməsi və bunun gələcəkdə iqtisadi artıma, məşğulluğa müsbət təsir göstərməsi, qeyri-neft-qaz sektorunun özəl bölməsində işəgötürənlərin əmək xərclərinin azalması nəticəsində biznes mühitinin əhəmiyyətli yaxşılaşması və investorlar üçün ölkə iqtisadiyyatının cəlbediciliyinin artması – mən bunları çox xırdalamaq istəmirəm, Oqtay müəllim qeyd etdi, yaxın vaxtlarda Vergi Məcəlləsində çox ciddi dəyişikliklər edilməsinin nəzərdə tutulması – bu barədə sizə əlavə məlumat verəcəyik – iqtisadi inkişafa əlavə stimul yaradacaqdır.

Həqiqətən, gizli deyil ki, biz ölkələr içərisində əmək haqqının xüsusi çəkisinə görə ən aşağı yerdəyik. Baxmayaraq ki, əmək haqqı fondu artır, maaşlar artır və sair. Amma əhalinin pul gəlirlərinin xüsusi çəkisində, strukturunda onun payı ən aşağı səviyyədədir. Nəyə görə? Ona

görə ki, müəyyən şəffaflıq yaradılmamışdır, əmək haqqının uçotu düzgün aparılmır və sair. Ona görə də vergilər sistemində nəzərdə tutulan dəyişikliklər, heç şübhəsiz ki, gələcəkdə Azərbaycanda vergi bazasının artmasına, büdcə gəlirlərində onun payının daha da yüksəlməsinə öz təsirini göstərəcəkdir.

Bilirsiniz ki, büdcə gəlirlərinin formalaşmasında gömrük sistemindən daxilolmalar da mühüm yer tutur. 2018-ci ilin 10 ayı ərzində gömrük qanunvericiliyinin, onun strukturunun təkmilləşdirilməsi, səmərəli və şəffaf gömrük idarəçiliyinin həyata keçirilməsi, sistemin peşəkar kadrlarla təmin edilməsi, gömrük nəzarətinin və ticarətinin asanlaşdırılması istiqamətində konkret tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində gömrük sərhədindən keçən mal və nəqliyyat vasitələrinin qeydiyyatı, onlar üzərində gömrük nəzarətinin tətbiqi, təyinatı üzrə gömrük orqanına çatdırılması, malların və nəqliyyat vasitələrinin bəyan edilməsi, ödənişlərin həyata keçirilməsi və malın buraxılışının bütün prosesləri avtomatlaşdırılmışdır. Cari ilin müvafiq dövründə malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi məqsədi ilə informasiya texnologiyalarının tətbiqi də genişləndirilmişdir. 10 ay ərzində daxilolmalar təqribən 3 milyard manat təşkil etmişdir ki, bu da nəzərdə tutulan illik proqnozlardan təxminən 46,8 faiz çoxdur. Gömrük Komitəsi xətti ilə daxilolmalar 2019-cu il üçün 3 milyard 450 milyon manat proqnozlaşdırılır ki, bu da 2018-ci ilin proqnozuna nisbətən 8,2 faiz çoxdur. Yəni bu rəqəmlər birmənalı şəkildə göstərir ki, Azərbaycan dövlətinin büdcə gəlirlərinin ildən-ilə artması üçün kifayət qədər əlverişli şərait var və Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, qeyri-neft sektorunun üstün inkişafı,

onun daxilində əlavə dəyər göstəricilərinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, şübhəsiz ki, öz müsbət nəticəsini verəcəkdir.

Bilirsiniz ki, dövlət büdcəsinin başlıca göstəricilərindən biri də dövlət xərcləridir. Bu gün Azərbaycanda dövlət xərcləri dinamik artır və bunun nəticəsində artıq Azərbaycanın bütövlükdə iqtisadiyyatı dəyişmiş, sosial, istehsal infrastrukturu yeniləşmişdir. Büdcə xərcləri Azərbaycanın ümumi daxili məhsulunda 30 faiz təşkil edir. Bu kifayət qədər müsbət bir haldır. XXI əsrin ilk illərində, hətta 2010-cu illərə qədər Azərbaycanın büdcə xərcləri 15–16 faiz təşkil edirdi. Artıq son 10 il ərzində Azərbaycanın büdcə xərcləri ümumi daxili məhsulun təxminən 30 faizini təşkil edir. Biz bu məlumatla əlaqədar dünya ölkələrində dövlət büdcəsinin ümumi daxili məhsulda rolunu xarakterizə edən rəqəmləri təhlil etdik. Bir çox ölkələr var ki, onlarda ÜDM-də büdcə xərclərinin xüsusi çəkisi bir az yuxarıdır, 36–37 faizdir. Amma bunlar oturuşmuş iqtisadiyyatlardır. Gələcəkdə Azərbaycan iqtisadiyyatı real sosial, istehsal infrastrukturlarını inkişaf etdirdikcə, yeni məktəblər, xidmət sahələri, sosial obyektlər istifadəyə verildikcə, onların ştatlarla təminatı gücləndikcə, Azərbaycan büdcəsinin xərclərinin optimal xətti müəyyən ediləcəkdir. Bir iqtisadçı kimi, mən arzu edərdim ki, gələcəkdə bizim büdcə xərclərimiz ümumi daxili məhsulun təxminən 34–35 faizini təşkil etsin. Təbii ki, bu, adi məsələ deyil, burada bütün amillər nəzərə alınmalıdır.

Sizə təqdim edilmiş materiallarda büdcə xərclərinin dinamikası və strukturu barədə kifayət qədər məlumatlar vardır. Büdcə xərclərinin 50,7 faizini cari xərclər, 39,9 faizini əsaslı xərclər, 9,4 faizini isə dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Bizim fikrimiz belədir

ki, – bu, komitələrin iclasında da səsləndi, – biz dövlət büdcəsi xərclərinin strukturunda cari xərcləri tədricən, heç olmasa, ildə 1-2 faiz artırmalıyıq. Yığım fondu ilə istehlak fondu arasında nisbət yaxınlaşmalıdır. Çünki müəyyən mərhələlərdə yığım fondu yüksək olur, iqtisadiyyatın bazası möhkəmlənir, dayanıqlı inkişaf təmin edilir, amma bir müddətdən sonra istehlak fondunun artmasına ehtiyac yaranır. Bu ehtiyacı Azərbaycan dövləti, hökuməti kifayət qədər obyektiv nəzərə alır və bizim də fikrimiz ondan ibarətdir ki, büdcədə cari xərclərimizin ildə 2–3 faiz artırılması bir çox millət vəkillərinin Milli Məclisdə qaldırdıqları məsələlərin maliyyə təminatının həllinə imkan yaratmış olar. Ona görə mən hesab edirəm, mən deyəndə, bizim komitə belə hesab edir ki, bu çox vacib məsələdir.

Dövlət büdcəsinin komitələrdə müzakirəsi prosesində real iqtisadi artım barədə kifayət qədər fikirlər səsləndi. Mən İqtisadiyyat Nazirliyinin rəhbərliyinə də təşəkkür edirəm. İqtisadiyyat Nazirliyi müzakirələrdə fəal iştirak etdi. Ölkədə irimiqyaslı layihələrin reallaşması nəticəsində yaradılan yeni iş yerləri, daxili istehsalın qorunması, idxaldan asılılığın azaldılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində artıq bu gün Azərbaycanın iqtisadi potensialı artmağa meyil edir və bunun üçün kifayət qədər baza yaranmışdır.

Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, mən hörmətli Statistika Komitəsinin rəhbəri Tahir müəllimin də burada olması fürsətindən istifadə edərək qeyd etmək istəyirəm ki, biz gərək qeyri-neft sektorunun mahiyyətini dərindən açıqlayaq. Təsnifatda indiyədək o qədər də birmənalı şəkildə verilmir. Nə üçün bir çox ölkələr neft emalını qeyri-neft sektoruna daxil etmirlər? Çünki bu, ölkəyə lazımdır. Amma biz qeyri-neft sektorunu həddən

artıq şişirdirik. Bizim Neft emalı zavodumuz var, Polimer zavodumuz var, Azərkimya zavodumuz var. Bunların hər biri ölkənin iqtisadi təhlükəsizliyini təmin edən müəssisələrdir. Belarus kimi respublika 1 milyon ton neft çıxarır, 20 milyon ton neft emal edir. Onlar belə bölgü aparmırlar. Bu bölgü bəzən dolaşıqlığa səbəb olur. Bəzən haqsız olaraq deyirlər ki, Azərbaycan həddən artıq neftdən asılıdır. Neftdən asılılığı müəyyən etmək üçün gərək iqtisadiyyatımızı təhlil eləyək, potensialımıza baxaq.

Burada mən cənab Prezident İlham Əliyevin bir neçə il bundan qabaq dediyi bir fikri nəzərinizə çatdırmaq istəyirəm. 2006-cı ildə o deyirdi ki, Azərbaycana gələn qazı birdən-birə kəsdilər. Bizə ən yüksək qaz qiyməti qoydular. Biz çox ağır vəziyyətə düşdük. Amma biz sınmadıq və qərarımızda israrlı olduq ki, biz Neft Fondundan vəsaitləri götürüb Azərbaycanda yataqların işlənməsi, yeni yataqların aşkar edilməsi üçün sərf etməliyik. Bu gün Azərbaycan artıq dünyaya neftlə yanaşı, qaz ixrac edən ölkəyə çevrilmişdir. Amma 2006-cı ili yadınıza salırsınızmı, 230 dollara bizə qaz satmaq istəyirdilər. Müzakirələr başlananda isə birdən-birə bu qiymət də artdı.

Mən vaxtınızı almaq istəmirəm, hesab edirəm ki, bu məsələ düzgündür. Biz Neft Fondu hesabına Azərbaycan iqtisadiyyatını yeniləşdirmişik. Qəbələ–Bakı su kəmərini çəkmişik. Neft Fondu hesabına Azərbaycan dəmir yolu modernləşib, "Şahdəniz" yatağını işləmişik, təzə "Ümid", "Babək" yataqları açılacaq. Bunlar hamısı Neft Fondu hesabınadır. Ona görə Neft Fondundan müəyyən müddət vəsaitlərin ayrılması obyektiv zərurətdir. Biz gələcək nəsillər üçün gərək bu gün möhkəm iqtisadi baza yaradaq ki, gələcək nəsillər insan kapitalını real mənada qızıl kapitala çevirsinlər. Mən təşəkkür edirəm ki, Şahmar müəllim

bizim komitələrin iclaslarında kifayət qədər məlumat verdi. Neft Fondunun şəffaflığı dünya tərəfindən qəbul edilib. Müşahidə Şurasının yüksək tələbkarlığı, cənab Prezidentin bu fonda ciddi nəzarət etməsi nəticəsində fondun bir sıra strateji məqsədlər üçün bundan sonra da istifadə edilməsi çox vacib məsələlərdən biridir.

Bizim millət vəkillərinə mən çox təşəkkür edirəm ki, Azərbaycanın enerji təhlükəsizliyi məsələsini komitələrin iclasında ciddi qoyurlar. Azərbaycan, həqiqətən, özünün enerji təhlükəsizliyini təmin edən ölkədir. Biz artıq 1,3 milyard kilovat elektrik enerjisi ixrac edirik. "Azər-enerji"də qəza yarandı, nəyin hesabına? Vaxtilə müəyyən obyektiv, subyektiv səbəblər olmuşdu və Azərbaycan Prezidentinin sərəncamı ilə Dövlət komissiyası yaradıldı. Dövlət komissiyası çox ciddi təhlillərdən sonra dövlət başçısına məlumat verdi, Azərbaycanın enerji sistemində müəyyən dəyişikliklər edildi. İlk dəfə idi ki, dəyişikliklər bilavasitə Dövlət komissiyasının təklifləri ilə edilirdi. Nə üçün? Çünki Azərbaycanın enerji sistemi ölkənin müstəqilliyinin açarıdır, bünövrəsidir. Elektrik enerjisi sistemini qorumaq, möhkəmləndirmək bizim müstəqilliyimizi qoruyan amillərdən biridir və dövlət büdcəsində də bu barədə kifayət qədər materiallar vardır. Mən belə hesab edirəm ki, əgər bu gün biz "Barmek" əhvalatlarından sonra enerji haqları üzrə yığımın səviyyəsini 98 faizə qaldırmışıqsa, 92 faiz sayğaclar qurulubsa və regionlarda enerji haqları yığımı 85 faiz təşkil edirsə, bu o deməkdir ki, bu sahəyə qoyulan pullar əməlli-başlı geri qaytarılır və səmərəlilik artır, itkilər də azalmağa meyl edir.

Sosial sahələrlə əlaqədar olaraq mən fikirlərimi dedim. Hörmətli cənab maliyyə naziri bütün komissiyalarda büdcə müzakirələri zamanı sosial sahəyə ayrılan vəsaitlər

haqqında kifayət qədər məlumatlar verdi. Oqtay müəllim də qeyd etdi, Azərbaycan yeganə ölkələrdən biridir ki, ümumi daxili məhsulun hətta azaldığı şəraitdə heç bir sosial proqramı ixtisar etmir. Amma ölkələr var ki, ümumi daxili məhsulu 1 faiz aşağı düşən kimi bütün sosial layihələr dayandırılır. Azərbaycan dövləti son illərdə bir dəfə də olsun sosial layihələrə ayrılmış vəsaitlərin azalmasına getməmiş, əksinə, imkan daxilində bu vəsaitlərin artmasını təmin etmişdir.

Samir müəllimə təşəkkür edirəm, bir məsələni də millət vəkillərinə çatdırdı – ulu öndər Heydər Əliyev Azərbaycanda özəl və dövlət təhsili ilə bağlı məsələləri araşdırarkən qeyd edib ki, özəl sektor ilə dövlət sektoru arasında optimal nisbət olmalıdır. Çünki yoxsullar var, kəndlərdən oxumağa gələnlər var. Ona görə Samir müəllimin bəyan etməsi ki, biz ali təhsillə əlaqədar olaraq dövlət vəsaiti hesabına oxuyanların artım səviyyəsini qaldıracağıq, hesab edirəm, son dərəcə müsbət addımdır.

Ümumiyyətlə, biz hamımız, millət vəkilləri xaricdə oluruq, baxırıq, görüşlər keçiririk. Azərbaycan dövləti də, hökuməti də istəyir ki, pullu xidmətlərlə pulsuz xidmətlər arasında optimal nisbət olsun. Azərbaycanda sosialyönümlü bazar iqtisadiyyatı qurulur və sosial yönümlü bazar iqtisadiyyatının qurulmasının vacib şərtlərindən biri də məhz sosial problemlərin düzgün nəzərə alınmasıdır.

Büdcə xərclərinin artmasına dair cənab Prezidentin fikirlərini sizin nəzərinizə çatdırmaq istəyirəm. O bildirir ki, büdcə xərclərinin artması çox müsbət göstəricidir, müsbət əlamətdir. Amma bununla bərabər büdcə xərclərinə nəzarət də gücləndirilməlidir. İndi böyük məbləğlərdən söhbət gedir. Bizim büdcəmiz 1 milyard dollar səviyyəsində olanda Azərbaycanda o qədər də böyük büdcə xərcləri

yox idi. Büdcəmiz, sadəcə olaraq, sosial yönümlü büdcə idi. Deyirlər ki, vaxtilə sosial xərclər 85 faiz olub, indi 35 faizdir. O vaxtlar sosial büdcə xərcləri 95 faiz, 90 faiz olanda bizim büdcəmiz cəmi 1 milyard manat idi. Amma 2019-cu ildə Azərbaycanın büdcəsi 25–26 milyarda çatacaq, onun da 33–34 faizi sosial xərclərdir. Böyük məbləğdə vəsait ayrılır, tikinti, infrastruktur layihələri, yollar, körpülər, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. Haraya baxsaq, bu inkişafı görərik. Bu da ölkəmizin iqtisadi və siyasi potensialını gücləndirir. Azərbaycan dünyada ən dinamik inkişaf eləmiş ölkədir.

Sonra da davam edir ki, bundan sonra da biz dövlətin büdcə xərclərini, dövlət büdcəsinin xərclərini artıracağıq, eyni zamanda, şəffaflığın da təmin olunmasına fikir verməliyik.

Aqrar sahədə görülən işlərdən mənim hörmətli dostum, həmkarım Eldar müəllim yəqin kifayət qədər danışacaq. Aqrar sahədə görülən işlərdə, həqiqətən, çox böyük dinamika var. Aqrar sahənin inkişafına vəsaitlər ayrılır. Bu gün biz aqrar sahədə 5 faiz ümumi dəyər yarada bilirik. Orada məşğul olan əhalinin məsələsi, ixtisaslaşma, regionlarda maddi-texniki bazanın möhkəmləndirilməsi məsələləri var. Dövlət büdcəsindən bütün bu işlərə görə bütövlükdə, – təkcə aqrar sektora deyil, – 1,5 milyard manat vəsait ayrılıb. Bəzən deyirlər ki, bu subsidiyalar kəsilməlidir. Nəyə görə kəsilməlidir? Baxın, müqayisə eləyək, Avropa ölkələrində 1 hektara verilən subsidiyanın miqdarı nə qədərdir? Ona görə mən belə hesab edirəm, mən deyəndə böyük çıxmasın, bizim komitə belə hesab edir ki, aqrar sektora bundan sonra da dəstək göstərilməlidir, ancaq eyni zamanda, məhsuldarlıq da artmalıdır, əkinçilik mədəniyyəti yüksəldilməlidir, texniki peşə təhsilli kadrla-

rın yetişdirilməsi güclənməlidir – aqronomların, mexanizatorların, digər kadrların hazırlanması istiqamətində böyük işlər görülməlidir.

Oqtay müəllim bu məsələni kifayət qədər əsaslandırdı. Büdcənin formalaşmasında proqram layihələrindən, proqramlardan istifadə edilməsi çox şeydən xəbər verir. Bu həm bizim, həm Maliyyə Nazirliyinin, həm də hökumətin işini yüngülləşdirir. Həmçinin ciddi proqnozların aparılması üçün əsas yaradır. Ona görə bu müsbət, təqdirəlayiq hallardan biridir.

Mən bir-iki kəlmə də sizə paylanan materiallar barədə demək istəyirəm. Banklarla, sahibkarlıq fəaliyyəti ilə əlaqədar kifayət qədər materiallar var. Azərbaycanda sahibkarlıq artıq ölkənin strateji resursuna çevrilib. Özəl sektorun ümumi daxili məhsulda payı bu gün 80 faizdir. Mən demirəm ki, gələcəkdə bu rəqəm 85–90 faiz olsun, bu düz olmaz. Konstitusiyada yazılıb ki, dövlət mülkiyyəti, dövlət sahibkarlığı, özəl sahibkarlıq, bizim optimal dövlət sahibkarlığımız olmalıdır. Bunu bütün dünya da qəbul edir, dünyada da bu var. Ancaq sahibkarlığın inkişafına mane olan cəhətlər var ki, onların aradan qaldırılmasında hamımız bir yerdə çalışmalıyıq.

Pul-kredit siyasətini ulu öndər Heydər Əliyev, cənab Prezident də həmişə Azərbaycan dövlətinin inkişafında ən aparıcı amillərdən biri kimi qiymətləndirib. Amma eyni zamanda, biz bankların fəaliyyətindən bu gün razı qala bilmərik. Bankların real sektora köməyi həddən artıq azdır. Mən bayaq hörmətli cənab Sədrə məlumat verdim, onun tapşırığı ilə dünya ölkələrində faiz dərəcələrini araşdırmışdım. Ən yüksək faiz dərəcələri bir neçə ölkədə, biri də bizdədir. Səbəbləri var, inflyasiyadan qorxuruq, inflyasiyanı cilovlamaq lazımdır. Amma yığışıb bir

konsensusa gəlməliyik, nə vaxt, neçə ildən sonra, iki, üç, beş ildən sonra faiz dərəcələrini azaltmağa getməliyik. Ölkə üzrə rentabelliyin səviyyəsi bank kreditlərindən bir neçə dəfə yuxarıdır.

Mən dövlət borcu haqqında artıq dedim. Azərbaycanda dövlət borcu barədə kifayət qədər nikbinlik var. Elə ölkələr var ki, onlarda adambaşına düşən borcun məbləği adambaşına düşən ümumi məhsulun məbləğindən çoxdur. Azərbaycanda bu, cəmi 9 faiz təşkil edir. Hörmətli Samir müəllim müzakirələrdə məlumat verdi ki, artıq cənab Prezident tərəfindən təsdiq edilmiş strategiya var. Bu strategiya bundan sonra borcların götürülməsinə nəzarəti ciddi artıracaq. Eyni zamanda, biz özümüz artıq bir çox ölkələrə investisiya qoyuruq, bu da bizim iqtisadi potensialımızın qüdrətini göstərir. Vaxtilə 1 manat borc vermək imkanı olmayan Azərbaycan bu gün artıq xarici ölkələrə 20 milyarddan çox vəsait qoymuşdur.

Mən, Oqtay müəllim, nəhayət, çıxışımı qurtarıram. Büdcə kəsiri barədə. Millət vəkillərindən xahiş edirəm, əvvəlki illərlə müqayisə eləsinlər. Büdcə kəsiri barədə Maliyyə Nazirliyinin, hökumətin müəyyən etdiyi ümumiləşdirici fikir budur ki, büdcə kəsiri iqtisadiyyatın stimullaşdırılması çərçivəsində olmalıdır. Bir çox ölkələr sanksiyalardan ehtiyat edərək profisit yaradırlar. Amma bizim bu gün kifayət qədər imkanımız var ki, daxili tələbatı, daxili bazarı stimullaşdıraq. O yollardan biri də büdcə kəsiridir. Büdcə kəsirinin həddi ÜDM-ə nisbətdə 2,3 faiz miqdarında müəyyən edilmişdir və bu barədə də Maliyyə Nazirliyinin açıqlamaları kifayət qədər əsaslıdır. Mən arzu edərdim ki, hər il biz 2–3 faizi aşmadan büdcə kəsiri etsək və onu inflyasiya yaratmayan amillər hesabına maliyyələşdirsək, kifayət qədər əsaslı olar.

Mən, hörmətli cənab Sədr, çalışıram, qurtarım. Bütövlükdə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi əvvəlki illərdən fərqli olaraq bir daha ölkənin müdafiə qabiliyyətinin yüksəlməsini, sosial problemlərin həllini, Azərbaycanın dayanıqlı və sürətli iqtisadi inkişafını təmin edəcəkdir. Mən ona görə millət vəkillərindən birinci oxunuşda bu qanun layihəsinə müsbət münasibət bildirmələrini xahiş edərdim. Eyni zamanda, hökumətə, hökumətin iqtisadi strukturlarına büdcə tərtibatını yüksək səviyyədə həyata keçirdikləri üçün təşəkkür bildirərdim. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun, hörmətli Ziyad müəllim. İndi buyursun maliyyə nazirimiz hörmətli Samir Şərifov.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Azərbaycan Respublikasının 2019-cu il icmal və dövlət büdcələrinin layihələri "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblər, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri, qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla tərtib olunmuşdur. O amillərlə yanaşı, büdcə layihələrinin tərtibi zamanı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 2019–2022-ci illər üzrə ölkəmiz üçün proqnozlaşdırdığı əsas makroiqtisadi göstəricilər və iqtisadi meyillər büdcə parametrlərinin formalaşmasında istinad nöqtələri kimi qəbul edilmişdir.

Hörmətli millət vəkilləri, bu ilin aprelində ölkəmizdə keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqı Prezident İlham Əliyevin ötən 15 il ərzində uğurla həyata keçir-

diyi siyasi kursun davam etməsinə, sabitliyə, əmin-amanlığa, iqtisadi tərəqqiyə və dayanıqlı inkişafa səs verdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında genişmiqyaslı iqtisadi islahatlar proqramı həyata keçirilməkdədir ki, onun da əsas hədəfi ölkə iqtisadiyyatının saxələnməsini, qeyri-neft sektorunun öncül inkişafına şəraitin yaradılmasını, dayanıqlı və inklüziv iqtisadi inkişafı, Azərbaycan xalqının maddi rifahının daha da artırılmasını və firavan həyatını təmin etməkdir. 2019-cu il üçün hazırlanmış icmal və dövlət büdcələri qeyd olunan hədəfin mərhələli qaydada reallaşdırılması üçün maliyyə təminatını yaradır.

Milli Məclisin komitələrində büdcə layihəsinin ətraflı müzakirəsi keçirilmişdir. Mən çıxışımda daha çox büdcənin əsas xüsusiyyətləri üzərində dayanmaq istərdim. 2019-cu il üçün qəbul edilməsi təklif olunan büdcə sənədinin əsas xüsusiyyətləri nədir? İlk növbədə qeyd olunmalıdır ki, icmal və dövlət büdcələri yeni büdcə qaydasına müvafiq olaraq hazırlanmışdır. Büdcə qaydasının tətbiqi dövlət xərclərinin profisitliyinin əhəmiyyətli dərəcədə aradan qaldırılmasını, dövlət gəlirlərinin formalaşmasında mühüm xüsusi çəkiyə malik olan neft gəlirlərindən əvvəlcədən müəyyən olunmuş fiskal çərçivə daxilində istifadəsini hədəfləyir, orta və uzunmüddətli dövrdə büdcə intizamına və dayanıqlığına təminat yaradacaqdır. Təqdim olunmuş qanun layihəsində icmal büdcənin xərcləri 27 milyard 372 milyon manat, dövlət büdcəsinin xərcləri 24 milyard 780 milyon manat məbləğlərində və ya cari illə müqayisədə müvafiq olaraq 797 milyon manat, 3 faiz və 1 milyard 680 milyon manat, 7,3 faiz çox nəzərdə tutulur. Göstərilən xərclərin məbləğləri büdcə qaydasında əks olunan üç meyara tam uyğundur. Həm xalis maliyyə

aktivlərinin müəyyən edilmiş nisbət göstəricisindən azdır və cari ilin icmal və dövlət büdcələrinin xərclərinin 103 faizindən üstün deyil, həm də digər vacib göstərici icmal büdcənin qeyri-neft baza kəsirinin ümumi daxili məhsula nisbətinin tədricən azaldılması üzrə hədəfi təmin edir. Belə ki, bu göstərici cari ilin göstəricisi ilə müqayisədə 1,7 faiz bənd aşağı olacaqdır. Büdcə xarici mənşəli risklərin ölkə iqtisadiyyatına mümkün mənfi fəsadları nəzərə alınmaqla tərtib olunub, makroiqtisadi sabitliyə xələl gətirmədən iqtisadi artımı dəstəkləyir.

2017-ci il və 2018-ci illərdə hökumətin həyata keçirdiyi islahat gündəliyi təlatümlü keçən əvvəlki iki ildən sonra ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını və iqtisadiyyatın artım trayektoriyasına qayıtmasını təmin etmişdir. Bu əsasda növbəti illərdə də makroiqtisadi sabitliyi təmin edərək iqtisadi artımın davam etdirilməsi aparılacaq iqtisadi siyasətin əsas məqsədlərindən olacaq. Bununla əlaqədar, bir tərəfdən, artmaqda davam edən neft gəlirlərindən optimal istifadə və büdcə dayanıqlığının təmin edilməsi, digər tərəfdən isə, iqtisadi artım üçün münbit şəraitin formalaşdırılması, xüsusilə özəl sektor tərəfindən iqtisadiyyata investisiyaların artırılması əsas prioritetlərdəndir. Bu baxımdan, xarici və daxili investorlar üçün əlverişli biznes mühitinin yaradılması, biznesin vergi yükünün optimallaşdırılması, maliyyə-bank sektoru tərəfindən sahibkarlara kredit dəstəyinin verilməsi xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunmalıdır ki, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər Dünya Bankının sonuncu “Doing Business”, biznes üçün şərait hesabatında yüksək qiymətə layiq görülmüş, ölkəmiz dünyada ən islahatçı

ölkə kimi tanınaraq, 190 ölkə arasında 25-ci yerə yüksəlmişdir. İqtisadi artıma digər dəstək istiqaməti olaraq sahibkarlar üçün 2019-cu ildən vergi yükünün azaldılması ilə bağlı tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur. Bunların arasında ən nəzərəçarpanı neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərinə muzdlu işdən aylıq gəlir vergisi üzrə 7 il müddətində güzəştin, bununla yanaşı, güzəştin alıcıları üçün məcburi dövlət sosial sığorta haqları üzrə ümumi yükün bir hissəsinin işçinin üzərinə ötürülməsidir. Bu islahatın əsas qayəsi iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədi ilə məcburi dövlət sosial sığorta haqları üzrə ümumi yükün işəgötürən və işçi arasında bölgüsünün daha da optimallaşdırılması, uçotda olmayan iş yerlərinin və orada çalışan işçilərin əmək haqlarının leqallaşdırılması hesabına işləyənlərin sosial müdafiəsinin daha da gücləndirilməsinə zəmin yaradılmasıdır.

Növbəti ildə qeyri-neft sektorunun inkişafı və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq olunan vergi güzəştinin daha 5 il müddətinə uzadılması nəzərdə tutulur. 2019-cu il üçün dövlət büdcəsi xərclərinin 9 milyard 891 milyon manatı və yaxud 39,9 faizi əsaslı xərclərə, bu məbləğin də 69 faizi və ya 6 milyard 825 milyon manatı dövlət əsaslı vəsait qoyuluşu xərclərinin maliyyələşdirilməsinə, bir sözlə, iqtisadi artıma dəstək verən dövlət investisiyalarına yönəldiləcək. Növbəti ildə dövlət büdcəsi xərclərinin 7,3 faiz artmasına və vergi sahəsinə təklif olunan güzəştlərin azaldıcı təsirlərinə baxmayaraq, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin cari il səviyyəsində saxlanılmasına nail olunmuşdur. İcmal büdcədə isə 2 milyard 352 milyon manat məbləğin-

də profisit gözlənilir ki, bu da növbəti ildə Dövlət Neft Fondunun ehtiyatlarının artmasını şərtləndirir.

Kənd təsərrüfatının dəstəklənməsi, növbəti ildə də davam etdirilməklə, bu sahəyə ayrılan xərclərin cari illə müqayisədə 10,5 faiz artaraq, 835 milyon manat səviyyəsinə çatması proqnozlaşdırılır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin müvafiq sərəncamının icrası ilə əlaqədar, ərzaq təhlükəsizliyi proqramı çərçivəsində bir hektar əkin sahəsinə, mineral gübrələrə görə verilən subsidiyanın yuxarı həddinin 50 faiz artırılması, pestisidlərə görə verilən subsidiyanın isə 5 dəfəyədək artırılması nəticəsində tələb olunan 123 milyon manat əlavə xərc 2019-cu ilin dövlət büdcəsində nəzərə alınmışdır. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma sahələrinin genişləndirilməsi və digər meliorasiya tədbirlərinin maliyyə təminatı üçün 2019-cu ilin dövlət büdcəsində əlavə olaraq 45 milyon manat, elit toxumlarının istehsalı və satışı ilə bağlı yaranmış qiymət fərqinə görə toxumçuluq və tinglik təsərrüfatlarına 8,5 milyon manat məbləğində subsidiyanın yönəldilməsi təmin ediləcəkdir. Ümumiyyətlə, qeyd etmək yerinə düşər ki, dövlət tərəfindən kənd təsərrüfatına birbaşa və dolayı subsidiyaların həcmi 540 milyon manatdan artıq olacaq.

Növbəti ilin dövlət büdcəsində kiçik və orta biznesin inkişafına 30 milyon manat, özəlləşdirmədən qabaq müəssisələrin sağlamlaşdırılması tədbirləri üçün 20 milyon manat, bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki-iqtisadi əsaslandırmaların həyata keçirilməsi üçün 5 milyon manat vəsait nəzərdə tutulmuşdur. Ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər

üçün gələn ilin dövlət büdcəsindən 27 milyon manat vəsait yönəldiləcəkdir ki, bu da cari illə müqayisədə 80 faiz çox deməkdir. Ölkədə turizmin inkişaf etdirilməsi məqsədi ilə növbəti ilin dövlət büdcəsində 63 milyon manat vəsait nəzərdə tutulmuşdur. Bütün bu tədbirlər sahibkarlığın fəallaşması, iqtisadiyyatın artımına daha yüksək töhfələrin verilməsinə xidmət edəcəkdir.

2019-cu ilin dövlət büdcəsi sosialyönlü büdcə ənənəsini davam edir. 2019-cu il dövlət büdcəsinin xərclərində sosial yönlü xərclər üçün 7 milyard 920 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2018-ci illə müqayisədə 798 milyon manat və ya 11,2 faiz çoxdur. Sosialyönlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 2018-ci il ilə müqayisədə 1,1 faiz bənd çoxdur. Gələn ildən ölkədə ehtiyac meyarının həddinin 13 manat artırılaraq 143 manata, əhalinin sosial-demoqrafik qrupları üzrə yaşayış minimumu məbləğinin 173 manatdan 180 manata çatdırılması nəzərdə tutulub. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 262 milyon manat vəsait ayrılacaqdır ki, bu da cari illə müqayisədə 7 faiz çox deməkdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinə cari ildən başlanmış birdəfəlik ödənişlərin verilməsi proqramının növbəti ildə də davam etdirilməsi üçün 50 milyon manat vəsait ayrılması nəzərdə tutulur. 2019-cu ildə vətəndaşların güzəştli şərtlərlə mənzillərlə təmin edilməsi, hərbi qulluqçuların mənzillərlə təmin edilməsi, habelə kirayə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ödənilən pul kompensasiyası ilə bağlı xərclərə cəmi 212 milyon manat

vəsaitin ayrılması nəzərdə tutulur. Ümumiyyətlə, funksional təsnifatına görə dövlət büdcəsinin xərclərində 2018-ci illə müqayisədə 2019-cu ildə səhiyyə xərcləri 41,8 faiz, təhsil xərcləri 11,3 faiz, sosial müdafiə və sosial təminat xərcləri 9 faiz, mədəniyyət və incəsənət xərcləri 9,7 faiz, elm xərcləri isə 4,2 faiz artımla proqnozlaşdırılmış, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması üçün dövlət büdcəsindən yönəldilən transfertin məbləği 203 milyon manat və ya 15,6 faiz artırılaraq 1 milyard 503 milyon manata çatdırılmışdır.

Dövlət büdcəsi ilə dövlətimizin bütün əsas vəzifə və funksiyalarının maliyyələşdirilməsi təmin edilir. Dövlətimizin müdafiə və təhlükəsizliyinin təmin edilməsi, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması üçün xərclər 2019-cu ilin dövlət büdcəsində 18,5 faiz həcmində və yaxud 4 milyard 590 milyon manat səviyyəsində nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 300 milyon manat və ya 7 faiz çoxdur. Dövlət əhəmiyyətinə malik olmaqla, ölkə əhalisinin böyük hissəsinin iştirakı nəzərdə tutulan bir sıra tədbirlərin maliyyələşdirilməsi, o cümlədən əhalinin siyahıyaalınmasının aparılması üçün 23 milyon manat, bələdiyyə seçkilərinin keçirilməsi üçün 54 milyon manat vəsait ayrılacaqdır.

Gələn ilin dövlət büdcəsində beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərclərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulan 207 milyon manat vəsaitin 115 milyon manatı Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının, 7,9 milyon manatı xaricdəki ticarət nümayəndəliklərinin və mədəniyyət mərkəzlərinin saxlanılması xərclərinə, 47 milyon manatı beynəlxalq maliyyə-kredit və ictimai-siyasi təşkilatlara üzvlük haqqı xərclərinin maliyyə təmina-

tına, 3,5 milyon manatı xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılmasına və möhkəmləndirilməsinə, 30 milyon manatı isə xüsusi əhəmiyyət kəsb edən beynəlxalq fəaliyyət üzrə digər tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

2019-cu ildə Naxçıvan Muxtar Respublikasının büdcəsinin, ölkəmizin digər rayon və şəhərlərinin yerli xərclərinin tənzimlənməsi üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən 404 milyon manat maliyyə yardımı, dotasiya ayrılacaqdır. Dövlət büdcəsində dövlət borcuna xidmətlə bağlı zəruri səviyyədə, 2 milyard 335 milyon manat vəsait ayrılmışdır. Dövlət büdcəsinin xərcləri üzrə tutarlı maliyyə təminatı yaradılmışdır. Dövlət büdcəsinin 22 milyard 918 milyon manat məbləğində proqnozlaşdırılan gəlirlərinin 7 milyard 316 milyon manatını Vergilər Nazirliyinin xətti ilə toplanacaq daxilolmalar, 3 milyard 452 milyon manatını Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmalar, 786 milyon manatını dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri və sair daxilolmalar, 11 milyard 364 milyon manatını isə Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti təşkil edəcəkdir. 2019-cu ilin dövlət büdcəsinin kəsirinin yuxarı həddi 1 milyard 863 milyon manat məbləğində və ya proqnozlaşdırılan ümumi daxili məhsulun 2,3 faizi həcmində nəzərdə tutulur ki, onun da maliyyələşdirilməsi özəlləşmədən daxilolmalar, xaricdən cəlb edilmiş kreditlər və vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcək.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, 2019-cu il üçün dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi inkişaf kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin

sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması və iqtisadiyyatın stimullaşdırılması yolunda yenə də öz müsbət rolunu oynayacaqdır. Bunları nəzərə alaraq, sizi, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş 2019-cu il dövlət və icmal büdcə layihələrinin və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin bəyənilərək qəbul edilməsinə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Samir müəllim. İndi buyursun iqtisadiyyat naziri hörmətli Şahin Mustafayev.

**Ş.Mustafayev,** *Azərbaycan Respublikasının iqtisadiyyat naziri.*

Hörmətli cənab Sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Azərbaycan Respublikasının 2019-cu il və sonrakı 3 il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri Büdcə sistemi haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq, dünya iqtisadiyyatının inkişaf meylləri və qlobal çağırışlar, dövlət başçısı tərəfindən təsdiq edilmiş strateji yol xəritələri, inkişaf konsepsiyaları və dövlət proqramları ilə müəyyən edilmiş tədbirlər nəzərə alınmaqla hazırlanmışdır. Konsepsiyanın əsas strateji məqsədlərini fiskal dayanıqlığın gücləndirilməsi, antiinflyasiya yönümlü monetar siyasətin dəstəklənməsi və makroiqtisadi sabitliyin qorunub saxlanması, iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi, qeyri-neft sektorunun, habelə regionların davamlı, tarazlı inkişafının təmin edilməsi, insan kapitalının inkişafı, sosialyönümlü siyasətin davamlılığı üzrə tədbirlərin həyata keçirilməsi və digər istiqamətlər əhatə edir. Eyni zamanda, dünya iqtisadiyyatında baş verən proseslər və əsas tərəfdaş ölkələrdə iqtisadi vəziyyət

nəzərə alınaraq, müxtəlif ssenarilər ətraflı təhlil edilməklə İqtisadiyyat Nazirliyi tərəfindən növbəti il və sonrakı 3 il üzrə ortamüddətli dövr üçün ölkənin sosial-iqtisadi proqnoz göstəriciləri hazırlanmışdır.

Qeyd edim ki, Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, dünya iqtisadi artımının 2018-ci və 2019-cu illərdə 3,7 faiz, Dünya Bankının hesablamalarına görə isə, müvafiq olaraq 3,1 və 3 faiz olacağı proqnozlaşdırılır. Əmtəə ixracatçısı olan bir çox ölkələrdə və MDB məkanında dayanıqlı iqtisadi artımın proqnozlaşdırılması, əmtəə ixracatçılarında iqtisadi artımla bağlı müsbət meyllərin formalaşması, neft ixracatçıları olan ölkələrdə iqtisadi artımın 2018-ci ildə də müşahidə olunması dünya iqtisadiyyatının artımını şərtləndirən əsas amillər kimi nəzərə alınmışdır. Hazırda dünyada müşahidə olunan müsbət tendensiyalarla yanaşı, hələ də bəzi risklər qalmaqdadır. İnkişaf etmiş ölkələrdə daha sərt maliyyə şərtlərinin tətbiqi nəticəsində inkişaf etməkdə olan iqtisadiyyatlara kapital axınının azalması, həmçinin yeni ticarət tariflərinin tətbiqi, dünya ticarətində məhdudiyyətlərin artması və tətbiq olunan sanksiyalar, bəzi ölkələrdə geosiyasi gərginliklər, əsas ticarət partnyorlarının milli valyutalarının dəyərini itirməsi risk yaradan amillər hesab edilir.

Hörmətli millət vəkilləri, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş davamlı inkişaf və ictimai-siyasi sabitlik bu siyasi kursun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənmiş, iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi, qeyri-neft sektoru üzrə istehsalın və ixracın artırılması, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, biznesə yeni

dəstək mexanizmlərinin yaradılması istiqamətlərində kompleks tədbirlər görülmüşdür.

Aparılan sistemli islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Artıq qeyd olunduğu kimi, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilmiş və ən çox islahat aparan ölkə elan olunmuşdur. Yeni hesabatda Azərbaycanın mövqeyi 32 pillə artaraq, 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında liderlik mövqeyinə yüksəlmişdir. Ümumilikdə, "Doing Business 2019" hesabatının əhatə etdiyi 10 indikatordan 8-i üzrə mühüm irəliləyiş qeydə alınmışdır. Bütün bunlar Prezident İlham Əliyevin məqsədyönlü və davamlı tərəqqiyə hesablanmış iqtisadi siyasətinin, rəhbərliyi ilə görülən genişmiqyaslı işlərin məntiqi nəticəsidir. Ortamüddətli dövr üçün ölkənin iqtisadi proqnozları hazırlanarkən kompleks iqtisadi islahatların davam etdirilməsi, bank sektorunun inkişafı, makroiqtisadi sabitliyə təsir edən xarici iqtisadi şokların yaşanmaması şərtləri əsas götürülmüş, növbəti ildə inflyasiyanın 3,8 faiz olacağı proqnozlaşdırılmışdır.

Qeyd edilənlər, habelə neft və qeyri-neft sektorunun inkişaf amilləri nəzərə alınmaqla, 2019-cu ildə ÜDM-in 3,6 faiz, növbəti illərdə orta hesabla 3,4 faiz artacağı, tədiyə balansının cari hesabının müsbət olacağı, 3,9 milyard dollar olacağı proqnozlaşdırılır. Dünya iqtisadiyyatında baş verən proseslər və beynəlxalq təşkilatların proqnozları təhlil edilərək neftin 1 barelinin qiyməti ortamüddətli dövr üçün 60 dollar götürülmüşdür. Gələn il "Şahdəniz" yatağında neft-qaz hasilatının artması hesabına neft sektorunda 3,1 faiz, növbəti illərdə orta hesabla 3,2 faiz artım gözlənilir. Növbəti ildə əsas kapitala investisiya qoyuluşları

17,9 milyard manat, o cümlədən xarici investisiyaların 7,5, daxili sərmayələrin 10,4 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Əsas kapitala investisiya qoyuluşlarının artacağı əsas götürülməklə, 2019-cu ildə tikinti sektorunda 2,5 faiz artım gözlənilir. Dövlət investisiya xərcləri, əsasən, ölkə üçün əhəmiyyətli olan infrastruktur layihələrinin, o cümlədən magistral avtomobil və dəmir yollarının, rayonlararası və kənd yollarının təmir-tikintisi və yenidən qurulması işlərinin aparılmasına, enerji istehsalı və elektrik şəbəkəsinin müasirləşdirilməsinə, içməli su və kanalizasiya, qazlaşdırma, meliorasiya və su təsərrüfatı, təhsil, səhiyyə, əhalinin sosial müdafiəsi layihələrinin icrasına yönəldiləcəkdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların tərkib hissəsi olan investisiya təşviqi mexanizminin tətbiqi özəl investisiyaların artımına ciddi töhfə verir. İndiyə kimi 281 sahibkara 320 investisiya təşviqi sənədi verilmişdir. 8 iqtisadi rayonu əhatə edən bu layihələrə 2,7 milyard manat investisiya yatırılmaqla, 21 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. İnvestisiya təşviqi sənədi almış müəssisələrin 63 faizi artıq fəaliyyət göstərir, digərləri isə gələn ilin sonunadək fəaliyyətə başlayacaqdır. Bununla yanaşı, kompleks dövlət dəstəyi göstərilən, layihələrinin ümumi dəyəri 2,5 milyard manat təşkil edən və tikintisi davam etdirilən 181 istehsal, emal müəssisəsinin, Polimer və Karbamid zavodları istisna olmaqla, istifadəyə verilməsi qeyri-neft sektorunun inkişafına mühüm töhfə verməklə yanaşı, 19 min yeni iş yeri açılması imkanı yaradacaqdır. Həyata keçiriləcək kompleks tədbirlər nəticəsində iqtisadiyyatın prioritet sahəsi olan qeyri-neft sektorunun artımının 2019-cu ildə 3,9 faiz, növbəti illərdə isə orta hesabla 3,5 faiz olacağı proqnoz-

laşdırılır. Qeyri-neft sektorunun inkişafında xüsusi əhəmiyyətə malik qeyri-neft sənayesi üzrə cari ilin 9 ayında əlavə dəyər 11 faiz artmış, sənayeləşmə templəri yüksəlmiş, sənayenin aparıcı və ənənəvi sahələri ilə yanaşı, yeni sahələr yaradılmış, bir sıra məhsullar üzrə idxaldan asılılıq azalmışdır.

Hörmətli millət vəkilləri, Azərbaycan Prezidentinin sərəncamları ilə yaradılmış, qeyri-neft sənayesinin inkişafında mühüm rola malik sənaye parkları və məhəllələrində indiyədək 62 sahibkarlıq subyektinə rezident statusu verilmişdir. Sumqayıt Kimya Sənaye Parkında layihələrinin ümumi dəyəri 2,8 milyard dollardan artıq olan 18 müəssisəyə rezident statusu verilmiş, bunlardan 9-u artıq fəaliyyətə başlamış, 5 müəssisənin ilin sonunadək, daha 3-nün isə gələn il istifadəyə verilməsi planlaşdırılır.

Cari ildə dövlət başçısının iştirakı ilə açılışı olmuş Polimer zavodu kimya sənayesinin xammal təminatını gücləndirəcək, yüksək əlavə dəyər yaradan klasterlərin inkişafını təmin edəcək, ixrac imkanlarının genişlənməsinə töhfə verəcəkdir. Fəaliyyətə başlanması planlaşdırılan Karbamid zavodu ölkənin azot gübrəsinə olan tələbatını tam ödəyəcək, əhəmiyyətli ixrac imkanları yaradacaqdır. Bununla yanaşı, bu il ferro ərintilər, tütün məmulatları, müxtəlif inşaat kimyəviləri, növbəti ildə isə şüşə, yun iplik, sənaye istifadəsi üçün polimer kisələrin istehsal müəssisələrinin fəaliyyətə başlayacağı gözlənilir.

Balaxanı Sənaye Parkının birinci sahəsində tullantıların təkrar emalı üzrə 5 rezident fəaliyyətə başlamış, cari ildə müəssisələr tərəfindən istehsal edilmiş məhsulun 50 faizi ixrac olunmuşdur. Sənaye parkının ikinci sahəsində 9 müəssisə rezident statusu almış və onlardan 7-si istehsal sahəsinin tikintisinə başlamışdır. Yeni əczaçılıq sənayesi-

nin təşkili məqsədi ilə yaradılmış Pirallahı Sənaye Parkında dərman vasitələrinin və müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı nəzərdə tutulur ki, bu da idxalı yerli istehsalla əvəzləyəcəkdir. Bu layihələr ilin sonunadək başa çatacaqdır.

Mingəçevir Sənaye Parkında istehsal gücü 20 min ton və dəyəri 85 milyon dollar olan 2 iplik fabriki 2018-ci ilin birinci rübündə istifadəyə verilmiş, 750 yeni iş yeri açılmışdır. Bu fabriklərdə 3,5 min ton məhsul istehsal olunmuş, onun 2 min tonu artıq ixrac olunmuşdur.

Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və bir kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Bu müəssisələrə sahibkarlar tərəfindən 45 milyon manatdan çox investisiya qoyulmuşdur. Cari ildə istifadəyə verilmiş illik istehsal gücü 10 min avtomobil olan "Xəzər" avtomobil zavodundan ildə 2 min avtomobilin MDB-yə, Yaxın Şərq və Baltik ölkələrinə ixracı nəzərdə tutulur. İndiyədək 700 avtomobil istehsal olunmuşdur.

Bu ilin sentyabrında dövlət başçısının iştirakı ilə Masallı Sənaye Məhəlləsinin açılışı həyata keçirilmişdir. Hazırda sənaye məhəlləsində 9 sahibkarlıq subyekti və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin tədris-hazırlıq mərkəzi fəaliyyətə başlamışdır. Bundan başqa, Hacıqabul Sənaye Məhəlləsində tikinti işləri yekunlaşmaq üzrədir, Sabirabad Sənaye Məhəlləsində isə tikinti işləri davam edir.

Qeyri-neft sənayesinin inkişafı üzrə həyata keçirilən islahatların gözlənilən nəticələri nəzərə alınmaqla, sahə üzrə 2019-cu ildə 9,7 faiz, növbəti illərdə orta hesabla 5,8 faiz artım proqnozlaşdırılır. Qeyri-neft sektorunun aparıcı sahələrindən olan aqrar sektorun inkişafı istiqamətində Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş sahəvi dövlət proqramları və bu sahələrin inki-

şafına yönəldilən dövlət dəstəyi tədbirləri növbəti illərdə aqrar sektorda əsaslı artım templərinin əldə edilməsinə əhəmiyyətli töhfə verəcəkdir. Ümumilikdə, kənd təsərrüfatının inkişafı istiqamətində aparılan kompleks tədbirlərin nəticəsi olaraq cari ilin 9 ayında bu sahədə real artım 4,3 faiz təşkil etmişdir.

Aqrar sektora dövlət dəstəyi mexanizmlərinin dərinləşməsi, intensiv texnologiyaların tətbiqi, kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi, aqroparklar, iri fermer və bağçılıq təsərrüfatları, müasir heyvandarlıq və istixana kompleksləri, quşçuluq fabriklərinin fəaliyyətə başlaması, meliorativ tədbirlər nəticəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi bu sahədə iqtisadi artıma təsir edən əsas amillərdir.

Hazırda 30 rayon üzrə 192 min hektar ərazidə investisiya dəyəri 1,4 milyard manat olan 45 aqroparkın, o cümlədən 44 min hektar ərazidə 17 müasir cins heyvandarlıq kompleksinin və 148 min hektar ərazidə 28 iri bitkiçilik təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu çərçivədə 332 milyon manat dövlət dəstəyi göstərilmişdir ki, bunun da 219 milyon manatı infrastrukturun yaradılmasına yönəldilən dövlət investisiya qoyuluşu, 113 milyon manatı isə 17 aqroparka verilmiş güzəştli kreditlərdir. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 566 milyon manat olan 27 layihəyə investisiya təşviqi sənədi verilmişdir. Artıq 6 aqropark fəaliyyətə başlamış, cari ilin sonuna kimi daha 12 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu aqroparkların tam fəaliyyətə başlamasından sonra il ərzində təqribən 600 milyon manat dəyərində kənd təsərrüfatı məhsulunun istehsalı və emal olunması, ümumilikdə, 10 mindən çox yeni iş yerinin yaradılması planlaşdırılır.

Dövlət başçısının tapşırığına uyğun olaraq aqrar sektorun inkişafında xüsusi rolu olan meliorativ tədbirlərin davam etdirilməsi, strateji əhəmiyyətli və iri kapital tutumlu su anbarlarının tikintisi nəticəsində hər il minlərlə hektar torpaq sahələri əkin dövriyyəsinə cəlb olunmuşdur. Bu yaxınlarda başa çatdırılmış növbəti uğurlu layihə olan Araz çayından yeni qol, kanal vasitəsi ilə Saatlı, İmişli, Biləsuvar rayonlarında 53 milyon hektara yaxın torpaq sahəsinə suvarma suyunun çatdırılması təmin ediləcəkdir. Sahibkarlar tərəfindən bu rayonlarda yeni aqroparkların və iri fermer təsərrüfatlarının yaradılmasına 450 milyon manat investisiya qoyuluşu proqnozlaşdırılır. Bu investisiyalar nəticəsində hər il 180 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal və emal olunacaq, 5 minədək yeni iş yeri yaradılacaqdır.

Növbəti 5 ildə kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisi istisna edilməklə, digər vergilərdən azad olunmaqla bu sahədə dövlət investisiyaları hesabına özəl istehsal və emal sahələrində infrastrukturun yaradılması, kənd təsərrüfatı texnikalarının alınması və digər dövlət dəstəyi davam etdiriləcəkdir. Qeyd edilənləri nəzərə alaraq, aqrar sektor üzrə 2019-cu ildə 4,6 faiz, növbəti 3 ildə orta hesabla 4,5 faizdən çox artım gözlənilir.

Hörmətli millət vəkilləri, qeyri-neft sektorunda xüsusi paya malik olan xidmətlər sektorunda 2019-cu il və sonrakı illərdə orta hesabla 3,4 faiz artım proqnozlaşdırılır. Turizm sektoru üzrə yaradılmış infrastruktur bu sahənin inkişafı üçün münbit şərait yaratmışdır. Turist zonalarının yaradılması, vizaların sadələşdirilməsi, ölkə və regional səviyyədə müxtəlif turizm növləri üzrə maraq və tələbata uyğun məhsulların formalaşdırılması, beynəlxalq səviyyəli idman və mədəniyyət tədbirlərinin təşkili, aşağı büdcəli

aviaşirkətlərin fəaliyyətinin genişləndirilməsi, investisiya təşviqi sənədi və güzəştli kreditlərin verilməsi turizmin inkişafına təkan verəcəkdir. Əvvəlki illərdə yaradılmış turizm infrastrukturu və bu sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2018-ci ilin 9 ayında bu sektorda real artım 7,6 faiz təşkil etmişdir. 2019-cu ildə turizm sektorunun 6,7 faiz, növbəti 3 ildə orta hesabla 6 faiz artacağı proqnozlaşdırılır.

Qarşıdakı illərdə informasiya, kommunikasiya texnologiyalarının tətbiqi ilə genişzolaqlı internet xidmətləri infrastrukturunun əhatə dairəsinin genişləndirilməsi, mobil telefon xidmətinin inkişafı, orbitə çıxarılmış telekommunikasiya və yüksək ayırdetmə, optik müşahidə peyklərinin tammiqyaslı kommersiya istifadəsi nəticəsində bu xidmətlərdən əldə olunan gəlirlərin artırılması hesabına informasiya və rabitə sektorunda 2019-cu ildə 6,2 faiz, növbəti illərdə isə orta hesabla 7,1 faiz artım gözlənilir. Məlumat üçün qeyd etmək istərdim ki, 2018-ci ilin 9 ayında İKT sektorunda iqtisadiyyatın artımı 7,7 faiz təşkil etmişdir.

Ümummilli liderimizin müəllifi olduğu Bakı–Tbilisi–Ceyhan neft kəməri, Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşdırılan və ölkəmizin fəal iştirakçısı olduğu qlobal transmilli layihələr – Bakı–Tbilisi–Ərzurum qaz kəməri, əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı–Tbilisi–Qars dəmir yolu, Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizləri kimi irimiqyaslı layihələr regionda və dünyada ölkəmizin mövqeyini daha da gücləndirir. Bu baxımdan, cari ilin may ayında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin istifadəyə verilməsi Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi və tranzit imkanlarının genişləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Bu ilin may ayında rəsmi

açılışı olmuş, böyük tarixi əhəmiyyətə malik Cənub Qaz Dəhlizi, iyun ayında bir sıra dövlətlərin rəhbərlərinin iştirakı ilə açılan TANAP layihəsi, eləcə də tikintisi uğurla davam etdirilən TAP layihəsi Azərbaycan qazının dünya bazarına çıxarılmasına yeni imkanlar açır. Qaradağ Sənaye Parkında fəaliyyət göstərən Bakı Gəmiqayırma Zavodunda 2 tankerin və "Ro–Pax" tipli bərə gəmilərinin tikintisi başa çatdırılmış, əlavə 4 yeni tankerin istifadəsi isə gözlənilir.

Görülən işlərin nəticəsi olaraq 2018-ci ilin 9 ayında nəqliyyat sektorunda 7,7 faiz real artım qeydə alınmışdır. Göstərilənlər nəzərə alınaraq, 2019-cu ildə nəqliyyat sektorunda 5,2 faiz, sonrakı 3 ildə isə orta hesabla 4,7 faiz artımın olacağı proqnozlaşdırılır.

Hörmətli millət vəkilləri, dövlət başçısı tərəfindən sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı verilən qərarlar və görülən sistemli tədbirlər iqtisadiyyatın dayanıqlı inkişafı baxımından strateji xarakter daşıyır. Belə ki, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılmış, yoxlamaların dayandırıldığı 2015-ci il 1 noyabr tarixindən sonrakı 35 ay ərzində vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində cəmi 488 yoxlama keçirilmiş, yoxlamaların dayandırılmasından əvvəlki 35 ay ərzində isə keçirilmiş yoxlamaların sayı 170 mindən çox olmuşdur. Lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilmiş, lisenziyanın verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilməklə dövlət rüsumları təxminən 2 dəfə, regionlar üzrə isə 4 dəfə azaldılmış, lisenziyalar müddətsiz verilməyə başlanmışdır. 2015-ci il 2 noyabr tarixindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna

olmaqla, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsi ilə verilməsinə başlanmış və indiyədək 6300 lisenziya verilmişdir. Bununla yanaşı, Lisenziyalar və icazələr portalı yaradılmış və 2018-ci il 1 mart tarixindən 24 fəaliyyət növü üzrə lisenziyaların verilməsinə başlanmış, portal vasitəsi ilə indiyədək 4 elektron lisenziya verilmişdir.

Kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sahibkarlığın inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Azərbaycan məhsullarının xarici bazara çıxarılması, istehsalın və ixracın stimullaşdırılması, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində bir sıra xarici ölkələrə indiyədək yeni ixrac missiyası təşkil olunmuş, sahibkarlıq subyektlərinə 7,2 milyon manat ixrac təşviqi ödənilmiş, Azərbaycan məhsullarının 14 mühüm beynəlxalq sərgidə vahid ölkə stendi ilə təqdimatları həyata keçirilmişdir. Xarici ölkələrdə ölkəmizin və ixracatçıların maraqlarının qorunması və təmsil edilməsi məqsədi ilə Azərbaycanın Rusiya, Cin, Birləşmiş Ərəb Əmirlikləri və mərkəzi Avropa ölkələri üzrə Polşa səfirliklərində ticarət nümayəndələri təyin edilmiş, Rusiya, Belarus, Ukrayna, Çin və Latviyada Azərbaycan ticarət evləri fəaliyyətə başlamış, Çin Xalq Respublikasının Urumçi və Şanxay şəhərlərində Azərbaycan şərab evləri açılmış, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Qazaxıstan və digər ölkələrdə ticarət evlərinin yaradılması gözlənilir.

Həyata keçirilən kompleks tədbirlər nəticəsində cari ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının, o cümlədən sənaye, kənd təsərrüfatı,

emal məhsullarının ixracı 13 faiz artmışdır. Prezident İlham Əliyevin müəyyən etdiyi siyasətə uyğun olaraq qarşıdakı illərdə də vətəndaşlarımızın həyat səviyyəsinin davamlı şəkildə yüksəldilməsi başlıca məqsəd olacaqdır. Məşğulluğun artırılması məqsədi ilə yeni məşğulluq strategiyası qəbul edilmiş və növbəti illərdə işsizlikdən icbari sığorta sisteminin tətbiq edilməsi sahəsində özünüməşğulluq proqramının miqyası daha da genişləndiriləcəkdir.

2019-cu ildən əhalinin gəlirləri 59,2 milyard manat, yeni vahid verginin tətbiqi, qeyri-neft və qeyri-dövlət sektorunda vergi dərəcələrinin optimallaşdırılması nəticəsində orta aylıq əmək haqları real ifadədə 11 faizədək artaraq 642 manat, yaşayış minimumu isə 180 manat səviyyəsində planlaşdırılır.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Bütün bunlar bir daha göstərir ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə əvvəlki illərdə yaradılmış möhkəm sosial-iqtisadi təməl, həyata keçirilən kompleks islahatlar növbəti illərdə də iqtisadi artıma, uzunmüddətli dövrdə iqtisadiyyatın davamlı inkişafına, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir. İqtisadi islahatların reallaşdırılması üçün isə möhkəm hüquqi bazanın olması vacib amildir. Bu baxımdan, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində göstərdiyiniz səylərə, bu mühüm maliyyə sənədinin məhsuldar müzakirəsinə görə hörmətli cənab Sədr, Sizə və millət vəkillərinə dərin təşəkkürümü bildirir, büdcə zərfində təqdim edilmiş layihələrə səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Şahin müəllim. İndi söz verilir Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli cənab Sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və iclas iştirakçıları! 2019-cu ilin dövlət büdcəsinin layihəsi, bu layihənin reallaşacağı makroiqtisadi mühit, həmçinin fiskal siyasətin əsas istiqamətləri barədə çıxışçılar tərəfindən əhatəli məruzə edildi. İstərdim ki, dövlətin əsas maliyyə sənədinə Hesablama Palatası tərəfindən hazırlanmış rəyin vacib məqamlarını sizin diqqətinizə çatdırım.

Dövlət maliyyəsinin əsas funksiyalarından biri iqtisadi artımın və məşğulluğun yüksək səviyyəsinin, büdcə kəsirinin və dövlət borcalmasının aşağı həddinin, həmçinin cari əməliyyatlar balansında dayanıqlı şəraitin əldə edilməsini nəzərdə tutan makroiqtisadi sabitliyin təmin olunmasıdır. Bu hədəflərə çatmaq üçün dövlət büdcəsi parametrlərinin ehtimal edilən nisbətlərinin müəyyən olunmasına xidmət edən makroiqtisadi proqnozlaşma işi xüsusilə vacibdir. Büdcə zərfinə daxil olan növbəti il üçün nəzərdə tutulan makrogöstəricilərdə dövlət büdcəsinin əsas parametrlərinin adekvatlığı gözlənilmişdir.

İlk növbədə qeyd etməliyəm ki, ötən il iqtisadiyyata qoyulan investisiyanın həcmi 17,4 milyard manat təşkil etmişdir. Bu göstərici cari ildə, demək olar ki, eyni səviyyədə qalır və növbəti il üçün gözlənilən investisiyanın real artım tempi 2,2 faiz, nominal artım tempi isə 3,3 faiz olmaqla, 17,9 milyard manat həcmində proqnozlaşdırılır. Büdcə sektoru investisiyaların cəmi məbləğində xüsusilə əhəmiyyətlidir. Belə ki, büdcə üzrə əsaslı xərclər investisiyanın tərkibində növbəti il üçün 9,9 milyard manat və ya proqnozlaşdırılan investisiya xərclərinin 55,2 faizi

səviyyəsində nəzərdə tutulmuşdur. Növbəti il üçün əsaslı xərclərin, ümumiyyətlə, investisiya məbləğinin cari illə müqayisədə nəzərəçarpacaq artımla proqnozlaşdırılmadığını, bununla yanaşı, ümumi daxili məhsulun cari il üzrə real artım tempinin 2 faizi səviyyəsində gözlənildiyini, həmçinin qarşıdakı ildə bu parametrin 3,6 faiz səviyyəsində nəzərdə tutulduğunu nəzərə alsaq, həm ilin sonuna qalan dövr, həm də növbəti il ərzində ümumi daxili məhsulun daha sürətli artımının ehtimal olunduğu proqnozlaşdırılmışdır.

Hesablama Palatası müxtəlif ölkələrin təcrübəsinin araşdırılması yolu ilə dövlət büdcəsinin icrasına təsir göstərə biləcək bir neçə risk amilini müəyyən etmişdir. İlk olaraq büdcə zərfinə dövlət büdcəsinin layihəsinin bir ssenari üzrə daxil edilməsini qeyd etmək istərdim. Qəbul edilmiş büdcə qaydasının, eyni zamanda, dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılmasına xidmət etdiyini nəzərə alaraq, bu qayda ilə müəyyən edilmiş hədlər çərçivəsində dövlət büdcəsinin optimist, adi və pessimist ssenarilər üzrə tərtibi büdcə parametrlərinin necə dəyişəcəyini müşahidə etməyə, o cümlədən itkilərin minimuma endirilməsinə, gəlirlərin mobilizasiyasına, həmçinin xərclərin səmərəliliyinin və nəticəliliyin artmasına şərait yaradır. Rəydə həmçinin idxal inflyasiyasının artımına təsir edəcək amillərin mövcudluğu, dövlət borcunun dinamik deyil, statistik xarakterli göstəricilərlə dəyərləndirilməsi, cari xərclərin artım tempinin qeyri-neft sektorunun nominal artım tempindən 4,6 faizdən çox olmaqla nəzərdə tutulması da dövlət büdcəsinin icrasına təsir göstərməyə qadir olan risklər kimi qeyd edilmişdir.

Hesablama Palatası Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən büdcə

inzibatçılığının gücləndirilməsi, vəsaitlərin təsirliyinin artırılması ilə bağlı tapşırıqların icrasına xidmət edəcək nəticə əsaslı büdcənin tərtibi üzrə normativ sənədlərin hazırlanması və qəbulunu dövlət resurslarının institusional imkanlarının genişləndirilməsinə və icra səviyyəsinə müsbət təsir göstərən amil kimi rəydə vurğulamışdır.

Hörmətli millət vəkilləri, növbəti ilin dövlət büdcəsinə dair qanun layihəsinə və müvafiq sənədlərə olan tələblər "Büdcə sistemi haqqında" Qanunla tənzimlənir. İlk olaraq qeyd edim ki, 2019-cu ilin dövlət büdcəsinin layihəsinə qanunvericiliklə müəyyən edilmiş müddətlərdə başlanılmış, tələblər gözlənilməklə, vaxtında Hesablama Palatasına təqdim edilmişdir. Eyni zamanda, məlumatlara əsasən qeyd edə bilərik ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsi ilə büdcə sisteminin vahidliyi, bu sistemə aid olan büdcələrin müstəqilliyi ilə bağlı təsbit edilmiş tələblər təmin olunmuş, 4-cü maddəsinin tələblərinə uyğun olaraq vahid büdcə təsnifatı tətbiq edilmişdir. Qanun layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin tələblərinə uyğun tərtib edilmiş, layihədə həmin maddə ilə müəyyən olunan bütün göstəricilər əks olunmuşdur. Qanun layihəsi ilə birgə təqdim edilmiş sənəd və məlumatlar isə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin tələblərinə uyğun şəkildə tərtib edilmişdir. Məlum olduğu kimi, cari ildə "Büdcə sistemi haqqında" Qanuna büdcə qaydalarını müəyyən edən maddə əlavə olunmuşdur. Bu qaydaların məqsədi makroiqtisadi dayanıqlığı, maliyyə və borc intizamını təmin etməkdən ibarətdir. Qeyd edim ki, 2019-cu ilin dövlət büdcəsi büdcə qaydalarının nəzərə alınması ilə tərtib edilən ilk büdcədir. Büdcə qaydasına uyğun olaraq,

ilk növbədə icmal büdcənin xərclərinin yuxarı həddi müəyyən olunmuşdur. Həmin hədd cari ilin təsdiq olunmuş icmal büdcə xərclərindən 103 faizdən çox olmamaqla müəyyən edilmişdir. Büdcə zərfində 2019-cu ilin icmal büdcəsinin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin 29,5 faiz olmaqla, cari ilin göstəricisindən aşağı olmaqla proqnozlaşdırıldığı göstərilmişdir və buna əsaslanaraq büdcə qaydalarının tələblərinə əməl olunduğu vurğulanmalıdır. Müvafiq metodikanın büdcə zərfinə daxil edilməməsi səbəbindən Hesablama Palatası beynəlxalq təcrübəyə əsaslanaraq, 4 müxtəlif metodika üzrə həmin göstəricinin hesablanmasını həyata keçirərək, bu barədə rəyə məlumat daxil etmişdir.

2019-cu ildə dövlət büdcəsinin gəlirləri 2018-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 3,5 faiz çox olmaqla, 22,9 milyard manat proqnozlaşdırılmışdır. Bu vəsaitin 31,9 faizi Vergilər Nazirliyi, 15,1 faizi Dövlət Gömrük Komitəsi xətti ilə, 49,6 faizi Dövlət Neft Fondu və 3,4 faizi digər mənbələr üzrə proqnozlaşdırılır. Hesablama Palatası 2019-cu ilin büdcə gəlirlərinin mümkün artım potensialı ilə bağlı bir neçə istiqaməti müəyyən edərək, bu barədə rəyə geniş məlumatlar daxil etmişdir. Ümumiyyətlə, Hesablama Palatası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan dövlətlərdə daha geniş yayılmış vergi boşluğunun qiymətləndirilməsini təklif edir. “Vergi boşluğu” anlayışına fərqli yanaşmalar mövcud olsa da, ümumilikdə, qeyd edilməlidir ki, “vergi boşluğu” il ərzində ödənilməli olan vergi məbləği ilə könüllü şəkildə, vaxtında ödənilən vergi məbləği arasındakı fərqdir. Bu göstəricinin hesablanması və büdcə zərfinə daxil edilməsi yeni vergitutma obyektlərinin cəlb edilməsinə, eyni zamanda, kölgə iqtisadiyyatının miqyasının ildən-ilə azaldıl-

masına, vergi inzibatçılığının effektliyinin yüksəldilməsinə xidmət edər. Bu yanaşma, eyni zamanda, potensial və faktiki vergi daxilolmalarının həcmi arasında fərqə təsir edən amillərin müəyyənləşməsi vasitəsilə bunun azaldılmasına və könüllü bəyanetmə səviyyəsinin yüksəlməsinə şərait yaratmış olar.

Hörmətli millət vəkilləri, qanun layihəsində dövlət büdcəsinin xərcləri 24,8 milyard manat məbləğində olmaqla 2018-ci ilin proqnoz göstəricisindən təqribən 7,3 faiz çox proqnozlaşdırılmışdır. Növbəti ilin dövlət büdcəsi xərclərini fərqləndirən əsas məqam əvvəlki illə müqayisədə icmal büdcənin digər komponentlərinin, xarici kreditlər hesabına maliyyələşən layihələrin və Dövlət Neft Fondunun investisiya xarakterli xərclərinin dövlət büdcəsi vasitəsilə aparılmasıdır. Ötən illərin təcrübələrinə əsaslanaraq qeyd edə bilərik ki, planlaşdırılan xarici kreditlər hesabına maliyyələşən layihələrin il ərzində icra səviyyəsi, eyni zamanda, bu layihələrin icrasının dövlət xəzinədarlıq orqanı vasitəsilə aparılmaması 2019-cu ilin dövlət büdcəsinin icrasına əhəmiyyətli təsir göstərə biləcəyini deməyə əsas verir. Növbəti ilin dövlət büdcəsinin xərclərinin funksional strukturu dəyişməmiş və xərclər dövlətin müəyyən edilmiş funksiyalarının icrasına müvafiq qaydada proqnozlaşdırılmışdır. 2019-cu ilin dövlət büdcəsinin xərclərinin strukturunda nəzərdə tutulan dəyişikliklərlə əlaqədar dövlət büdcəsinin kəsiri xaricdən cəlb edilmiş kreditlər, özəlləşmədən daxilolmalar və vahid xəzinə hesabının qalığı hesabına maliyyələşdiriləcəkdir. Ümumiyyətlə, kəsirin maliyyələşmə məbləğinin növbəti ildə dövlət büdcəsinin gəlir və xərclərinin gözlənilən icra göstəriciləri ilə müqayisəsi 2019-cu ilin dövlət büdcəsinin kəsirlə başa çatma ehtimalını minimallaşdırır.

Dövlət borcu ilə bağlı ilk olaraq qeyd edim ki, 2019-cu ilin dövlət borcunun limit göstəriciləri Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzunmüddət üçün strategiyaya uyğun şəkildə proqnozlaşdırılmışdır. Hesablama Palatası müasir dövrdə fiskal riskləri nəzərə alaraq, ən yaxşı təcrübə olaraq müəyyən edilən, statistik göstəricilərə əsaslanan beş metodoloji sənəd əsasında təhlil həyata keçirmiş və ümumilikdə, hər bir yanaşmada borc göstəricilərinin kritik hədd normalarından uzaq olduğu, ölkəmizdə borc dayanıqlılığının təmin edildiyi qənaətindədir.

Hörmətli millət vəkilləri, 2019-cu ilin dövlət büdcəsinin layihəsi müstəqillik dövrünün manat ifadəsində ən böyük büdcəsi olaraq tərtib olunmuş və qeyd edildiyi kimi, ilk dəfə olaraq büdcə qaydaları nəzərə alınmışdır. Təqdim edilmiş rəy isə Hesablama Palatası haqqında yeni qanunun qüvvəyə mindiyi dövrdən sonra hazırlanmış ilk rəydir. Bu baxımdan, daha praktik yanaşmaların tətbiq edilməsinə, mümkün büdcə riskləri, vəsaitlərin icraçılara görə bölgüsü üzrə daha ətraflı məlumatların təqdim olunmasına çalışmışıq. Bu zaman beynəlxalq standart və təcrübələrdən də geniş istifadə etmişik. Fikrimizcə, belə yanaşma hörmətli millət vəkillərinə və hörmətli hökumət üzvlərinə dövlət büdcəsi ilə bağlı daha dolğun məlumat təqdim etməklə yanaşı, vəsaitlərin hesabatlı şəkildə icrası üçün zəmin yaradacaqdır.

Hörmətli millət vəkilləri, növbəti il üçün dövlət büdcəsinin layihəsi, ümumilikdə, müəyyən edilmiş prioritet istiqamətlər üzrə tərtib olunmaqla, ölkə başçısı möhtərəm cənab İlham Əliyev tərəfindən qoyulmuş hədəflərin reallaşdırılmasına xidmət etmək məqsədi daşıyır və mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə təqdim edilmiş-

dir. Bütün bunları nəzərə alaraq, Hesablama Palatasının kollegiyası qanun layihəsinin Milli Məclisin plenar iclasında müzakirə edilməsini tövsiyə etmişdir. Müzakirələr zamanı Hesablama Palatasının rəyinin nəzərə alınmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli millət vəkilləri, məruzələri dinlədik, indi büdcənin müzakirəsinə keçirik. Buyurun, xahiş edirəm, yazılın.

Mən elə bilirdim ki, Zahid Oruc birinci olacaq. Əlin dəyib, məndə günah yoxdur. Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı**. Hörmətli həmkarlar, hörmətli hökumət nümayəndələri! 2019-cu ilin dövlət büdcəsi konseptual olaraq sosial-iqtisadi inkişaf göstəricilərinə və mədaxil məhsulun artım dinamikasının davamlılığına əsaslandırılmışdır. Büdcə göstəricilərinin təhlili onu göstərir ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu ilin büdcəsi də investisiya tutumlu və sosialyönümlü olmaqla, ölkə iqtisadiyyatının inkişaf tempinin qorunub saxlanmasını, sosial-iqtisadi islahatların əvvəlki illərdə olduğu kimi davam etdirilməsini, əhalinin maddi rifahının təmin olunmasını və iqtisadiyyatın şaxələnməsini hədəfləmişdir. Bütövlükdə, büdcədə xərclərin əvvəlcədən bəlli olan istiqamətdə yönəldilməsi onun müsbət cəhətidir. Gələn ilin dövlət büdcəsində ölkənin bəzi şəhər və rayonlarında yeni tikilib istifadəyə verilmiş məktəb və məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti ilə bağlı və dövlət ümumtəhsil məktəblərində uşaqların məktəbə hazırlığının təşkili məqsədi ilə tələb olunan vəsait proqnozlaşdırılmışdır. Ümumtəhsil məktəblərində oxuyan şagirdlərin pulsuz dərsliklərlə təmin olunması, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və dövlət uşaq bağçaları üçün şəraitin yaxşılaşdırılması ilə yanaşı, digər təhsil tədbirlərinin həyata keçirilməsi xərc-

ləri də proqnozlaşdırılmışdır. Düşünürəm ki, insan kapitalının formalaşdırılması məhz elm və təhsil sahəsində aparılan islahatlar və qoyulan investisiyalardan çox asılıdır. Büdcə konsepsiyası layihəsinin 3.5.11-ci bəndi ailə, qadın və uşaq siyasətinin əsas istiqamətləri kimi göstərilmişdir. Yeni layihəyə görə, 2019–2022-ci illər üçün Azərbaycanın ailə strategiyasının hazırlanması, ailə psixoloqu institutunun, eyni zamanda, uşaq və ailələrə dəstək mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Uşaqların əlverişli sosial mühitdə yaşamaları üçün hökumətin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına, strateji yol xəritələrinə əsaslanan bütün strateji planları təqdirəlayiqdir.

Hörmətli hökumət nümayəndələri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olaraq apardığımız müşahidələr, keçirdiyimiz görüşlər, təşkil etdiyimiz tədbirlərdə, dinləmələrdə səslənən məsələlər və bizə daxil olan çoxsaylı müraciətlərin əsasında hazırlanmış təkliflərimin bəzilərini 2019-cu il büdcəsinin komitələrin birgə iclasında müzakirəsi zamanı səsləndirmişdim. Hazırda bu müzakirələri nəzərə alaraq və hökumət nümayəndələrinin burada iştirakından istifadə edərək həmin təklifləri bir daha diqqətə çatdırmaq istərdim. Birinci təklifim çoxuşaqlı ailələrə verilən müavinət sisteminə yenidən baxılması və mümkündürsə, onun artırılmasıdır. Üç yaşa qədər uşağı olan ailələrə verilən müavinətin artırılması və həmin məbləğin stabil olaraq üç il müddətində verilməsidir. Güzəştli ipoteka kreditlərinin çoxuşaqlı ailələrə də şamil olunmasını xahiş edərdim. Zorakılıq qurbanı olanlar üçün qaynar xəttin yaradılmasına çox böyük ehtiyac var və bu məqsədlə maliyyə vəsaitinin ayrılmasını xahiş edərdim.

Digər təkliflərim isə seçildiyim 117 saylı Oğuz–Qəbələ seçki dairəsi üzrədir. Belə ki, rayonun Kərimli, Bayan, Tərkeş, Tayıflı, Şirvanlı, Sincan, Böyük Söyüdlü, Bucaq, Muxas, Yaqublu, Qumlaq, Şirvanlı kənd, Xaçmaz kənd 1, 2, 3 nömrəli, şəhər 1 nömrəli tam orta məktəblərində, Xaçmaz kənd ümumi, Daşüz ibtidai məktəblərində, Çalov və Xalxal kənd uşaq bağçalarında uzun illərdir ki, təmir işləri aparılmadığından binalar yararsız vəziyyətə düşmüşdür. Top, Zərrab kəndlərində yeni bağça binalarının, Zərrab və Xalxal kənd orta məktəblərində şagird kontingentinin artırılması ilə əlaqədar əlavə sinif otaqlarının tikintisinə ciddi ehtiyac vardır. 34 ümumtəhsil məktəbindən 17-i, 18 uşaq bağçasından 15-i hələ də odun yanacağı ilə qızdırılır. Qeyd olunan məktəblərdə əsaslı təmir işlərinin aparılmasına, əlavə sinif otaqlarının tikintisinə və təhsil müəssisələrində istilik sisteminin yaradılmasına ciddi ehtiyac vardır. O cümlədən 10 min nəfərə xidmət göstərən Oğuz rayonunun Xaçmaz kəndindəki kənd xəstəxanasının yarımçıq binasının əsaslı təmirinə, Daşüz və Malığ yaşayış məntəqələrində yeni tibb məntəqələrinin tikintisinə və 32 tarixi abidənin bərpasına, tarix-diyarşünaslıq muzeyi üçün yeni binanın inşasına böyük ehtiyac vardır. Eyni zamanda, Qəbələ rayonunun Tikanlı, Abrıx, Yemişanlı, Kötüklü, Mıxlıqovaq və daha bir neçə kəndinin on min nəfər əhalisinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Bum çayı üzərində körpünün salınmasına ehtiyac vardır. Bum qəsəbəsində, Xırxatala, Uludaş, Mirzəbəyli kəndlərində daş bəndin çəkilməsinə böyük ehtiyac vardır.

Hörmətli hökumət nümayəndələri, xahiş edirəm, yuxarıda adlarını qeyd etdiyim yaşayış məntəqələrində olan problemlərin həlli üçün büdcə xərclərini yenidən nəzərə alasınız. Bütövlükdə, mən bu büdcəni əhatəli hazırlanmış

sənəd hesab edirəm və ona səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən**. Sağ olun. Çox yığcam. Mən hesab edirəm, hamı belə çıxış eləsə, çıxış edən çox olar.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 6 dəqiqə. Hələ bir 10 dəqiqə ilə işləyək, sonra baxarıq. 6 dəqiqə normal olar. Əli Məsimli buyursun.

**Ə.Məsimli**. Çox sağ olun, cənab Sədr. 2019-cu ilin büdcəsi əvvəlki illərlə müqayisədə daha əlverişli makroiqtisadi şəraitdə reallaşacaq. Yəni inflyasiya aşağı səviyyədə olacaq, iqtisadi artım 3,6 faiz proqnozlaşdırılıb. Manatın məzənnəsinin 1 manat 70 qəpik səviyyəsində qalması proqnozlaşdırılıb. Bunlar hamısı, hesab edirəm ki, gələn ilin büdcəsinin sabit şəkildə reallaşdırılması üçün iqtisadi cəhətdən əsas verəcək. İkinci vacib məqam ondan ibarətdir ki, gələn ilin büdcəsi bir sıra sahələrdə ciddi islahatların həyata keçirilməsi ilə paralel gedəcək. Üçüncü vacib məqam isə ondan ibarətdir ki, bu büdcə özündən əvvəlki büdcələrlə müqayisədə daha iri büdcə olduğuna görə iqtisadiyyata, sosial sahəyə, təhsilə, elmə, səhiyyəyə və sair sahələrə əvvəlkindən xeyli çox vəsait ayrılacaq.

Amma büdcə ilə tanışlıq göstərir ki, 2019-cu ilin büdcəsi də özündən əvvəlki büdcələrdə olduğu kimi, bir sıra problemləri daşıyacaq. Həmin problemlərin içərisində diqqəti çəkən məqam ondan ibarətdir ki, büdcənin son iki ildə, yəni 2018–2019-cu illərdə özündən əvvəlki üç ildən fərqli olaraq neftdən asılılığı yenə gücləndirilir. Bu isə Azərbaycan büdcəsinin xarici konyunkturadan asılılığının gücləndirilməsi deməkdir. Reallıq budur ki, Azərbaycanda Neft Fondunun ehtiyatlarından büdcənin gəlirlərinin artırılması üçün istifadə edilir, ona görə ki, vergilər xətti ilə, rüsumlar xətti ilə cari xərcləri belə ödəmək mümkün deyil. Büdcəyə müəyyən miqdarda əlavə vəsaitin cəlb

edilməsi Neft Fondu vasitəsilə mümkündür. Amma bunun hansısa meyarları, ölçüləri, hədləri olmalıdır.

Digər tərəfdən, hesab edirəm ki, başqa mənbələrdən də istifadə eləmək lazımdır. Misal üçün, kölgə iqtisadiyyatının payını cəmi 10 faiz aşağı salmaqla, dövriyyəyə 8 milyard manatdan çox əlavə vəsait yönəltmək olar ki, bunu da vergiyə cəlb eləməklə büdcəyə 100 milyonlarla əlavə vəsaitin daxil olması mümkündür. Bu islahatlar kontekstində atılan addımların genişləndirilməsi vacibdir. O cümlədən korrupsiyaya qarşı mübarizəni gücləndirmək vasitəsi ilə də büdcəyə 100 milyonlarla, milyardlarla əlavə vəsait cəlb eləmək olar ki, bunun hesabına da xeyli sayda sosial layihələri həyata keçirmək mümkündür.

Büdcənin xərcləri, qeyd elədiyim kimi, əvvəlki illərlə müqayisədə xeyli çoxdur, bu məsələnin bir tərəfidir. Əsas məsələ büdcənin xərclərinin əvvəlki illərdən çox olması yox, həmin xərclərdən nə qədər səmərəli istifadə edilməsi, iqtisadiyyatın inkişafı, stimullaşdırılması, sosial proseslərin tənzimlənməsi üçün nə qədər səmərəli istifadə edilməsidir. Bu istiqamətdə həm müsbət, həm də mənfi məqamlar var. Müsbət məqamlar ondan ibarətdir ki, harada sistemli iş gedirsə, orada nəticələr həddən artıq yüksəkdir. Məsələn, qeyri-neft sənayesində 10 faizə qədər artım var. Bu gələn il üçün proqnozlaşdırılan ümumi daxili məhsulun tempindən 3 dəfəyə qədər yüksəkdir. Hesab edirəm ki, digər sahələrdə də bu təcrübədən istifadə etmək olar. Məsələn, Polimer zavodu və sair. Amma haradasa sistemsiz şəkildə istifadə olunursa, haradasa təmir-tikinti adı ilə külli miqdarda vəsait öz təyinatına görə istifadə edilmirsə, onda həmin sahələrə bir dəfə, iki dəfə, bəzən üç dəfə də vəsait ayrılır və həmin vəsaitlər göyə sovrulur. Beləliklə, həmin vəsaitlərin verimlilik dərəcəsi yoxdur,

həmin vəsaitlərin Azərbaycan iqtisadiyyatının inkişafına heç bir töhfəsi olmur.

Digər vacib məsələ isə, Azərbaycan büdcəsi istehsalın artımını stimullaşdırmaqla yanaşı, sosial yönümlü büdcə hesab olunsa da, onun sosial yükünün aşağı olmasıdır. Bu, bir sıra parametrlər üzrə özünü göstərə bilər və həmin parametrlərin bəzilərini büdcə xərclərinin strukturu timsalında mən qeyd edim. Azərbaycanın 24,8 milyard manatlıq büdcəsinin 6,8 milyard manatından çoxu və ya 28 faizə yaxını investisiya xərclərinə yönələcək ki, bu da təhsilə yönələn vəsaitdən 3 dəfə, səhiyyəyə yönələn vəsaitdən 6,5 dəfə, sosial müdafiəyə yönələn vəsaitdən 2,8 dəfə, elmə yönələn vəsaitdən isə 51 dəfə çoxdur. Hesab edirəm ki, belə struktur Azərbaycanın qarşısında olan yaxın və orta perspektivdəki çağırışlara müsbət cavab vermir. Vəsaitdən təmir-tikinti üçün istifadə eləmək lazımdır, amma bu dərəcədə ifrata varmaq, bu dərəcədə həmin vəsaitdən verimsizlik dərəcəsi aşağı olmaqla istifadə etmək, hesab edirəm ki, çox ciddi nəticələrə gətirib çıxarar. Yaxud da, son 5 ildə Azərbaycan iqtisadiyyatına təkcə büdcədən yox, bütövlükdə qoyulan 82 milyard manat vəsaitin 75 faizi yenə də təmir-tikinti işlərinə, yalnız 12 faizi maşın, avadanlıq, qurğuların alınmasına yönəlib. Bəs, biz elmi-texniki tərəqqiyə vəsaiti ayırıb, elmi-texniki tərəqqi istiqamətində hərəkət etməsək, necə rəqabət qabiliyyətli olacağıq? Bax, bu məsələ çox diqqət çəkir.

Növbəti qeyd etmək istədiyim məsələ ondan ibarətdir ki, əgər konsepsiyalar, strategiyalar, proqramlar və qanunlar Azərbaycan Prezidenti səviyyəsində təsdiq olunursa, artıq ayrı-ayrı məmurlar səviyyəsində o yenidən müzakirə olunmamalıdır. Orada əlavə mülahizələrə yer olmamalıdır, onlar birmənalı şəkildə yerinə yetirilməlidir. Bu, məsələn,

təhsil konsepsiyasına daha çox aiddir. Təhsil konsepsiyasında təhsilə ayrılan vəsaitin Azərbaycanın ümumi daxili məhsulunun 5-6 faizinə çatdırılması nəzərdə tutulur. İndi harada isə 2,8 faizdir. Əgər doğrudan da, təhsilə ayrılan vəsaitlər, tədricən, mən birdən-birə demirəm, qaldırılsa, onda ikinci addımda adambaşına düşən ümumi daxili məhsulun 1,8–2 misli səviyyəsində vəsaitin diferensiallaşdırılması ilə yaxşı müəllimlərə daha çox vəsait ayırmaq, indikindən 2 dəfə, 3 dəfə artıq maaş vermək mümkün olacaqdır. Bunu təkcə təhsilə yox, elmə də aid etmək olar. Elmlə bağlı Azərbaycan Prezidenti səviyyəsində qəbul edilən xeyli sənədlər var ki, həmin sənədlərdə elm sahəsində çalışanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib addımların atılması nəzərdə tutulub. Azərbaycanda elmə ayrılan vəsait ümumi daxili məhsulun 0,16 faizini təşkil edir. Bu, iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən həmin sahəyə ayrılmalı olan vəsaitdən 12 dəfə aşağıdır. Bu, xeyli dərəcədə aşağı vəsaitdir. Büdcədən isə elmə cəmi 0,5 faiz vəsait ayrılır. Hesab edirəm ki, əgər biz elmi inkişaf etdirmək istəyiriksə, elmin maliyyələşdirilməsini sıfır trayektoriyasından çıxarmaq istiqamətində ciddi addımlar atmaq lazımdır. Eyni zamanda, əgər nəzərə alsaq ki, təhsildə çalışanların maaşları orta əmək haqqından 40 faiz, səhiyyədə çalışanların maaşları 60 faiz, elmdə çalışanların maaşları da yenə eyni dərəcədə aşağıdırsa, ilk növbədə həmin sahələrdə çalışanların maaşlarının orta əmək haqqına çatdırılması istiqamətində ciddi addımların atılmasına ehtiyac var.

Ümumiyyətlə, 2019-cu ilin büdcəsi əvvəlki illərin büdcəsi ilə müqayisədə daha mükəmməl büdcədir, səs verəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli Sədr, hörmətli Baş nazir, millət vəkilləri, hökumət üzvlərimiz, media təmsilçilərimiz! Mən də 2019-cu ilin büdcə layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Yüksək səviyyədə hazırlanmış bu sənədə görə əziyyəti keçən, bu sənədi hazırlayan bütün qurumlara təşəkkürümüzü bildiririk. Təbii ki, ətraf bölgələrdə baş verən bəzi hadisələr fonunda ölkəmizdə, özəlliklə, büdcəmizin sosial yönümdə daha da inkişafı, gedən iqtisadi inkişaf templəri cənab Prezidentimizin rəhbərliyi altında aparılan doğru siyasətin nəticəsidir ki, biz də görülən bütün işləri dəstəkləyirik. Bu işləri dəstəkləməkə yanaşı, biz seçicilərimizlə görüşürük, bölgələrdə oluruq, insanlarımız gəlir və müəyyən fikir və təkliflərinin də bu zalda səslənməsini və hökumət üzvlərimiz tərəfindən diqqətə alınmasını xahiş edirlər ki, mən də o məsələlərin bir neçəsini diqqətə çatdırmaq istəyirəm.

Təhsildən başlamaq istəyirəm, çünki bir millətin inkişafında, gələcəyində təhsil ən önəmli amildir və təhsil sahəsində görülən bütün müsbət işləri biz hamımız dəstəkləyirik. Amma bəzi məsələləri də diqqətə çatdırmaq istəyirik. Bu gün təhsilin inkişafında orta məktəblərin özəl yeri var. Yəni orta məktəb müəllimlərimizin də xüsusi yeri var. Orta məktəb müəllimlərimizin xahiş etdiyi bir məsələ var. Bu məsələni dəfələrlə qaldırırlar və biz də bu zalda səsləndirmişik, hətta bu məsələyə baxılacağı ilə bağlı fikirlər də eşitmişdik. Bu məsələni bir daha diqqətə çatdıraraq, müəllimlərimizin üzləşdiyi problemin həllini xahiş edirik. Cənab Prezidentimizin rəhbərliyi ilə sosial ipotekalar mövzusu xüsusi diqqətdədir və burada güzəştli kateqoriyalar var. Biz hamımız da bunu dəstəkləyirik. Hərbiçilərimiz var, elm dalınca gedən gənclərimiz var, amma bu kateqoriyaya orta məktəb müəllimlərimizin əlavə edilməsi

çox vacibdir. Çünki onların əmək haqları ipotekalardan yararlanmağa imkan vermir. Onların əmək haqları, sadəcə, bu güzəştli kateqoriyaya daxil olarlarsa, dövlətin onlara verəcəyi bu dəstəkdən yararlanma imkanları ola bilər. Ona görə çox xahiş edirik ki, təhsilimizdə orta məktəbin yerini xüsusi nəzərə alaraq, orta məktəb müəllimlərimizin də bu güzəştli kateqoriyaya daxil edilməsi məsələsinə baxılsın.

İkinci bir məsələ təhsil kreditləri ilə bağlıdır ki, hörmətli Samir müəllim öz fikirlərini bununla bağlı komitə iclaslarında bildirdi. Biz bölgələri təmsil edən millət vəkilləriyik. Onlarla gəncimiz gəlir, təhsil haqlarını ödəməkdə çətinlik çəkdikləri üçün oxuduqları ali təhsil məktəblərini buraxmaq, imtina etmək məcburiyyətində qaldıqlarını bildirirlər. Ona görə mənə elə gəlir, bu gənclərimizə özəlliklə, birinci kursa daxil olan gənclərimizə geniş imkanlar tanımaq, bu məsələyə xüsusi baxmaq lazımdır. Axı, nəyə görə ödənişli əsaslarla dövlət ali məktəblərinə daxil olan gənclərimizdən pulun hamısının elə təhsil ilinin başlanğıcında verilməsi tələb olunur. Bəzi ailələrin imkanı çatmır. İl boyu da bu pulu ödəyə bilərlər. Düşünürəm, bu şans o ailələrə, o gənclərə verilməlidir. Amma təhsil kreditlərinin genişlənməsi, özəlliklə, Təhsil Nazirliyinin çərçivəsində təhsil kreditləri verilməsinin genişlənməsi vacibdir. Yəni bunun əhatə dairəsinin genişlənməsinə ehtiyac var ki, daha çox universitetlərimizdə gənclər təhsil kreditlərindən yararlana bilsinlər. Ümumiyyətlə, təhsil kreditləri məsələsinə baxmamız lazımdır ki, bu kreditlərin həm həcmi, həm əhatə dairəsi genişlənsin, bölgələrimizdə, kəndlərimizdə gənclər təhsildən imtina etməsinlər, daha yaxşı ali təhsil almaq uğrunda çalışsınlar. Çünki nəzərə alsaq ki, yataqxanalarımızın da sayı çox deyil, gənclərimiz kirayə pulu verməlidirlər, bu, bölgələr-

də, kəndlərdə yaşayan ailələr üçün asan məsələ deyil. Ona görə bu məsələyə də baxılmasını xahiş edirik.

Başqa bir məsələ səhiyyə ilə bağlıdır. Hamımız icbari tibbi sığorta ilə bağlı əldə olunan uğurlara sevinirik. Pilot rayonlarımızda çox gözəl uğurlar əldə olundu. İndi ölkəmizdə icbari tibbi sığortanın genişlənməsi üçün cənab Sədrin də vurğuladığı kimi, 223 milyon manat vəsait ayrılıb. Bu çox böyük rəqəmdir, inanırıq ki, ölkəmizdə icbari tibbi sığorta genişlənəcək. Amma mən icbari tibbi sığortanın əhatə etmədiyi bir qrupdan danışmaq istəyirəm. Bu məsələ gündəmdə olmuşdu, hətta cənab Prezidentimizin diqqətinə qədər gedib çatmışdı. Bu məsələnin həlli ilə bağlı, bildiyim qədər, tapşırıqlar da verilmişdi. Amma biz yenə maraqlandıq, məlum oldu ki, büdcə layihəsində bununla bağlı vəsait yenə yoxdur. 7 yaşına qədər uşaqlarımız var ki, onlar əgər koxlear implantasiya əməliyyatı olarsa, gələcəkdə eşitməmək problemindən qurtula bilərlər. Yəni əgər o əməliyyat keçməsə, onlar 7 yaşından sonra eşitmə qabiliyyətini itirəcəklər və dövlət onlara ömrünün sonuna qədər müavinət verəcək. Amma bu müavinətə ayrılan vəsaitin elə bir hissəsini öncədən verməklə bu uşaqların əməliyyatını həyata keçirmək olar. Həm onlar xilas olar, həm də dövlət gələcəkdə bu qədər yükü daşımaz. Samir müəllim də demişdi ki, bu məsələyə təkrar bir də baxarıq. Xahiş edirik, bu ailələr gözləyirlər, çünki əməliyyatın qiyməti az deyil. Bu uşaqların sayı isə çox deyil. Ona görə xahiş edirik ki, büdcədə bu məsələyə bir daha təkrar baxılsın.

Ölkəmizdə hamımızı narahat edən ciddi bir problem var və bunu səhiyyə qurumlarımız daha yaxşı bilir. Bu, autizmli xəstələrimizin sayıdır. Autizmli uşaqların sayı ildən-ilə sürətlə artır. Autizmlə bağlı bir proqramın

qəbuluna ehtiyac var, yəni bu asan deyil, həm müalicəsi, həm təlimləri, həm də treninqləri. Autizmli uşaqlarla bağlı bir proqrama çox böyük ehtiyac var. Çünki autizmdən əziyyət çəkən uşaqların ailələri çıxılmaz vəziyyətdə qalıblar. Ona görə, bu məsələni xüsusilə xahiş etmək istəyirdik.

Əlillərlə bağlı bir-iki məsələni diqqətə çatdıracağam. Əmək və əhalinin sosial müdafiəsi sahəsində çox işlər görülür. Özəlliklə, son aylar həyata keçirilən islahatlar, "DOST" mərkəzi sisteminin fəaliyyətə başlaması ilə də inanırıq ki, çox böyük dəyişikliklər gündəmə gələcək. Amma birinci qrup əlillərimiz, onlar iş qabiliyyəti olmayan qrupdur, yəni tamamilə iş imkanları məhduddur. Üstəlik, bunların çoxu yataq xəstəsi olduğu üçün bəzən ailədə kimsə, ailənin başçısı, ya xanım, ya da həyat yoldaşı ona baxmaq məcburiyyətində qalır. Həmin ailələrdə çətinliklər var. Birinci qrup əlillərimizə və əlil uşaqlara verilən müavinətlərin artırılması ilə bağı imkanlara baxılarsa, biz bunu alqışlayardıq.

Aqiyə xanımın qaldırdığı məsələlər var ki, biz onu dəstəkləyirik. Əgər mümkündürsə, çoxuşaqlı ailələrə verilən müavinətlər artırılardı. Ölkəmizdə məişət zorakılığı ilə mübarizə sahəsində çox hörmətli Mehriban xanımın rəhbərliyi ilə çox gözəl işlər görülüb və görülür. Bu istiqamətdə zorakılıq qurbanları üçün qaynar xəttin yaradılmasına maliyyə vəsaitinin ayrılması çox vacibdir. Çünki bu sistem həmin istiqamətdə mübarizədə ən vacib məsələlərdən biridir.

Sonda Tovuzla bağlı iki məsələni də deyib, bitirəcəyəm. Mən cənab nazirdən xahiş edirəm. Tovuz ön cəbhə rayonlarımızdan biridir. Amma Tovuzun məktəblərinin yarısı, əksəriyyəti deməyək, təxminən yarısı, özəlliklə də 7–8 min əhalisi olan kəndlər var ki, bir məktəbi var, o da

çox pis vəziyyətdədir. Bununla bağlı, ya yeni məktəb tikintisi, ya da heç olmasa, ilkin olaraq həmin məktəblərin təmirinə ehtiyac var. Hökumət üzvlərimizdən xahiş edirəm ki, bu məsələlərə diqqət ayrılsın.

Mədəniyyət nazirimizdən də xahiş etmişdik. Bir neçə önəmli tarixi abidələrimiz var ki, onlar məhv olma dərəcəsindədirlər. Onların bərpası təcili olmazsa, gələcəkdə daha pis vəziyyətlə üzləşə və restavrasiyası da çətin vəziyyətə düşə bilər. Bu məsələlərə xüsusi diqqət ayırmalarını xahiş edirəm. Layihəni dəstəkləyəcəyik, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Fəzail Ağamalı. Amma bir xahişim var, 32 nəfər komitələrdə çıxış edib, 50 nəfər çıxışa yazılıb. Əgər mümkündürsə, təkrarçılıq etməyək, hamı çıxış edə bilsin. Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli cənab Sədr. Hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, millət vəkilləri, media təmsilçiləri! Təqdim edilmiş qanun layihəsi kifayət qədər yüksək səviyyədə hazırlanmışdır. Ölkə Prezidentinin peşəkar komandasının hazırlamış olduğu 2019-cu ilin büdcə layihəsi Azərbaycanın yeni perspektivlərə doğru getdiyinin bir daha ifadəsi kimi, alqışa layiqdir və burada əməyi olan hörmətli hökumət üzvlərinə təşəkkürümü bildirirəm. Ümidvaram ki, 2019-cu ilin büdcə layihəsi reallaşdırılmaqla Azərbaycan xalqının həyat səviyyəsi əvvəlki illərə nisbətən daha da yüksək olacaq, Azərbaycan dövləti dünya miqyasında öz gücünü və qüdrətini artıracaqdır. Çox xoşdur ki, iqtisadi sahədə, kənd təsərrüfatında, vergi və gömrükdə aparılan və ciddi xarakter daşıyan islahatlar büdcə gəlirlərinin artırılmasında əhəmiyyətli rol oynamaqdadır və bu tendensiya, əminəm ki, 2019-cu ildə də davam edəcəkdir. Nəzərə alaq

ki, 2019-cu ildə kimya sənayesinin əldə etmiş olduğu nailiyyətlər bizə yeni imkanlar açacaq, digər tərəfdən, Bakı–Qars dəmir yolu ilə daşınan yüklər, eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin istismara verilməsi büdcəmizə yeni vəsaitlərin gəlməsinə şərait yaradacaq. Eyni zamanda, Cənub qaz layihəsində əldə etmiş olduğumuz maliyyə imkanları da büdcəmizin inkişafına özünün töhfələrini verəcəkdir. Bütün bunların hamısı çox gözəl. Mən istəyərdim ki, komitələrin yığıncaqlarında söylədiyimiz və bu gün cənab Baş nazirin burada olmasından istifadə edərək, onların üzərində bir daha, çox lakonik şəkildə dayanım.

Bəlli olduğu kimi, bu il Azərbaycan Dünya Bankının biznes reytinqinə görə 30 pillə irəliləyərək 25-ci yerə, yəni inkişaf etmiş ölkələr qrupuna daxil olmuşdur. Nəzərə alsaq ki, 24-cü yerdə Almaniyadır, 26-cı yerdə Avstriyadır, bunun, doğrudan da, ciddi bir uğur olduğunu bir daha önə çəkmək mümkündür. Bu, məncə, kifayət etməli deyil. Biz imkanlarımızdan maksimum istifadə edərək, bu reytinqi daha da yüksəldərək birinci beşliyə daxil ola bilərik. Bunun üçün aşağıdakıları təklif etmək istərdim. Tikintiyə icazə alınmasının 30-35 günə endirilməsi və bu sahədə neqativ yanaşmaların tamamilə aradan qaldırılması. İkinci, xarici ticarətin rəsmiləşdirilməsi üçün sənədləşmənin müddətinin azaldılması və sənədlərin minimuma endirilməsi. Üçüncü, şirkətlərə, yəni özəl şirkətlərə, kommunikasiyalara texniki şərtlərin verilməsi müddəti azaldılmalı və burada tətbiq edilən rüsumlar tamamilə ləğv edilməlidir. Məncə, bunu etməklə biz növbəti ildə Azərbaycanı Dünya Bankının müvafiq reytinq cədvəlində çox önəmli yerə çıxara bilərik və bu da Azərbaycana böyük üstünlüklər gətirə bilər.

Digər tərəfdən, mənim dayana biləcəyim və vacib hesab etdiyim ikinci məsələ elm və texnologiyanın inkişafı ilə bağlıdır. Bəli, elmə qoyulan vəsaitlərin miqdarı ildən-ilə, müəyyən miqdarda çoxalır. Bu il 133 milyon idi. Gələn il biz bunu lap 150, 200, 300 milyon da etsək, problem həllini tapmayacaq. Mənə elə gəlir ki, elm və texnologiyanın Azərbaycanda inkişafını yüksək səviyyədə təmin etmək üçün, ən azı dünya ölkələri səviyyəsinə, İsrailin, Sinqapurun və digər ölkələrin səviyyəsinə qaldırmaq üçün biz elm sahəsində islahatlara təkan verəcək xüsusi proqram hazırlamalıyıq. Yəni elm sahəsində biz islahatlar aparmadan, indiki struktur ilə nə etsək, o, susuz quyuya su tökmək qədər əhəmiyyətsiz olacaqdır. Bu baxımdan, hökumətdən mən xahiş edərdim ki, növbəti il bununla bağlı xüsusi proqram hazırlansın və orada bütün detallar nəzərə alınsın. Çünki dünyanın inkişaf etmiş ölkələrinin hamısının söykənmiş olduğu ən mühüm prinsip və onun inkişafını təmin edən ən vacib amil elm və texnologiyanın yüksək səviyyədə inkişafıdır və buna da, təbii ki, vəsaitin ayrılması heç zaman itkiyə getmir.

Digər bir məsələ biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı fikirlərimdir. Bununla bağlı ölkə Prezidentinin xüsusi tapşırığına uyğun olaraq islahatlar gedir və bu islahatlar ardıcıl xarakter daşıyır. Nəzərə alsaq ki, Azərbaycanda biznes mühiti ildən-ilə yaxşılaşır, xüsusi olaraq kiçik və orta biznesi inkişaf etdirmək üçün müvafiq qurum yaradılmışdır və heç şübhə etmirəm, həmin qurum özünün bu istiqamətdə fəaliyyətini yüksək səviyyədə quracaq və ciddi töhfələrini verəcəkdir. Lakin bununla bərabər mənə belə gəlir ki, onların fəaliyyətini daha da yaxşılaşdırmaq üçün maliyyələşmə mənbələri sürətlə artırılmalı və əlçatma imkanları yaradılmalıdır. Hər şeydən əvvəl maliy-

yələşmə mənbələri artırılmalıdır. Büdcənin, bütün dövlət şirkətlərinin, dövlət fondlarının sərbəst vəsaitləri xəzinə tərəfindən səfərbər olunaraq iri və etibarlı banklarda yerləşdirilməlidir və bu banklar vasitəsi ilə kiçik və orta sahibkarlara kredit şəklində verilməlidir. Ancaq bu kreditlərin faiz dərəcəsi 5 faizdən yuxarı olmalı deyil. Vacib məsələ hər zaman burada deyildiyi kimi, bank, pul-kredit sistemində mövcud çətinliklərdir. Bunu da aradan qaldırmaq üçün mənə elə gəlir ki, ciddi islahatlara ehtiyac var. Xüsusi olaraq top 100 səviyyəli dünya banklarının Azərbaycana gəlişinə imkan yaratmaq lazımdır. Biz onların imkanlarından istifadə etməklə Azərbaycanda bank, pul-kredit sisteminin yüksək səviyyədə qurulmasını təmin edə bilərik.

Komitənin yığıncağında mən uşaqlara verilən birdəfəlik və həmişəlik müavinətin artırılması üzərində dayanmışam və bu gün də bunu hökumətdən xahiş edirəm ki, doğum vaxtı uşaqlara verilən birdəfəlik müavinətin miqdarı 150 manatdan 200 manata qədər artırılsa, yaxşı olar. Digər tərəfdən, davamlı müavinətlərin verilməsi, məncə, stimullaşdırıcı rol oynayar. Gənc ailələrin həmin probleminin həllində, həm də demoqrafik siyasətin reallaşmasında bu ciddi rol oynaya bilərdi.

Nəhayət, çıxışımın sonunda Salyan–Şirvan yolu ilə bağlı təklifimi də bir daha diqqətə çatdırmaq istəyirəm. Hörmətli Baş nazirdən çox xahiş edirəm ki, tilsimə dönmüş bu yolun, nəhayət, təmir olunub başa çatdırılması üçün özünün bütün imkanlarını ortaya qoysun. 2006-cı ildən üzü bəri ölkə Prezidentinin zaman-zaman ayırmış olduğu vəsaitlərə baxmayaraq, artıq 12 ildir ki, ölkənin cənubu ilə qərbini birləşdirən, 12-dən yuxarı kəndi mədəni dünya ilə birləşdirən bu yol hələ də bərpa olunmur və il-

ildən geriyə salınır. Diqqətinizə görə təşəkkür edirəm. Mən bu büdcəni yüksək qiymətləndirirəm və ona səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, saat 4-ə kimi tənəffüs elan edilir.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Müzakirələri davam etdiririk. Növbədə Tahir Mirkişilidən sonra yerlərini dəyişiblər, Vahid Əhmədov buyursun.

**V.Əhmədov.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli nazirlər, hökumət üzvləri! 2019-cu il dövlət büdcəsi barədə burada kifayət qədər məlumat verildi. Amma mən vaxtın azlığını nəzərə alaraq, konkret bir neçə məsələyə toxunmaq istəyirəm. 2019-cu ildə gəlirlərin 60 faizi neft sektorunun, 40 faizi isə qeyri-neft sektorunun payına düşür. 2017-ci ildə qeyri-neft sektorunun payı dövlət büdcəsində 50,2 faiz idi. 2019-cu ilin göstəricilərində ümumi daxili məhsulda artım 3,6 faiz, qeyri-neft sektorunda 3,9 faiz göstərilir. Yəni belə azalma gedən bir dövrdə, 2017-ci ildə artımın cəmi 1 faizə yaxın, 2018-ci ildə 9 ayda 0,8 faiz olduğu halda, 2019-cu ildə birdən-birə 3,6 faiz artımın göstərilməsi sual altındadır. Yəni bunun əsası nədən ibarətdir? Mən belə hesab edirəm ki, qeyri-neft sektorunun strukturuna yenidən baxılmalıdır və bu məsələlər öz həllini tapmalıdır. 2019-cu ilin dövlət büdcəsində milli valyutamızın 1 ABŞ dollarına nisbətdə qiyməti eyni səviyyədə, 1,70 manat səviyyəsində göstərilir. İnflyasiya 2017-də 13 faiz olub, 2018-də 2,7 faiz, 2019-da 3,8 faiz olacağı göstərilir. Yəni bazara təsir edən əsas amillər, inflyasiyanın aşağı olması, o cümlədən milli valyutanın stabil qalması qiymət siyasətinə ciddi təsir

etməməlidir. Amma baxın, Azərbaycanın bazarında nələr baş verir? Qiymətlər nə böyük sürətlə artır, mən belə hesab edirəm ki, istər ərzaq mallarının qiyməti, istərsə də dərmanın qiyməti bu göstəricilərlə əks mütənasibdir.

2019-cu il dövlət büdcəsində Vergilər Nazirliyinin xətti ilə bir sıra islahatlara start verilib. Cənab Prezidentin Nazirlər Kabinetinin 9 aylıq iclasında göstərdiyi kölgə iqtisadiyyatına, korrupsiyaya, rüşvətə qarşı mübarizə, şəffaflıq prinsipinə əməl etmək məqsədi ilə Vergilər Nazirliyi belə bir siyasət aparır ki, Azərbaycanın 2019-cu ildə dövlət büdcəsində vergilər sistemində şəffaflıq təmin olunsun. İlk olaraq 8000 manata qədər olan əmək haqqından qeyri-neft sektorunda vergilərin tutulmaması, o cümlədən vergi tutulan məbləğin 170 manatdan 200 manata qaldırılması, sadələşmiş verginin 2 faiz səviyyəsində saxlanılması, əlavə dəyər vergisinin geri qaytarılma prinsiplərinin, mexanizmlərinin işlənib hazırlanması, bunlar hamısı müsbət haldır. Niyə bu vaxta qədər sahibkarlar məhz vergidən yayınırdılar? Əsas məsələ ondan ibarət idi ki, vergi çox yüksək idi. Təsəvvür edin, 22 faiz üstəgəl 3 faiz, üstəgəl 14 faiz, üstəgəl 1 faiz. Sahibkar və fəhlə 40 faizə qədər vergi ödəyirdi. Ona görə də məcbur idilər ikili mühasibat uçotu aparmağa, vergini gizlətməyə, əmək haqqını gizlətməyə. Mən belə hesab edirəm ki, Vergilər Nazirliyinin atdığı bu addım çox müsbətdir və bu müəyyən qədər stabilliyə, o cümlədən vergilərin vaxtında ödənilməsinə gətirib çıxaracaqdır.

Xarici dövlət borcu ilə əlaqədar olaraq komitənin iclasında mən qeyd etdim. Adambaşına xarici dövlət borcu artıq 1000 dollara yaxınlaşıb. Bu, ümumi daxili məhsulun təxminən 22 faizini, 9,6 milyard manat təşkil edir. Düzdür, bunu böyük məbləğ hesab etmək olmaz. Elə dövlətlər var ki, dövlət borcu bir büdcəyə bərabərdir. Həm də bu götürülən

vəsaitlər 10 ildən artıq müddət ərzində ödənilməlidir. Amma burada digər əsas məqam həmin borcların dövlət büdcəsi hesabına ödənilməsidir. Bu yolverilməzdir. Maliyyə Nazirliyi burada daha sərt mövqe tutmalıdır. Mən belə hesab edirəm ki, vəsaiti götürən təşkilatlar, istər agentlik olsun, istər komitə, istərsə də səhmdar cəmiyyətlər, dövlət zəmanəti olsa da, vaxtında özləri vəsaiti qaytarmalıdırlar.

Konstitusiya Məhkəməsi dollarla olan kreditlərlə əlaqədar qərar qəbul edib. Mən bu qərarı, ümumiyyətlə, qəbul etmirəm. Bu qərar nədən irəli gəldi? Mən və mənim həmkarım Əli Məsimli cənab Prezidentə müraciət edərək, bank sistemində olan vəziyyəti müəyyən qədər düzəltmək barədə təkliflər vermişdik. O müraciətə cənab Prezident tərəfindən baxıldı, təkliflərə qol çəkildi, göndərildi. Amma sonradan Konstitusiya Məhkəməsi belə bir qərar qəbul etdi. İndi bank sistemində vaxtı keçmiş kreditlərlə bağlı yaranmış vəziyyət daha da kritik səviyyəyə gəlib çatıb. Mən belə hesab edirəm ki, bank sistemindəki vəziyyəti Maliyyə Bazarlarına Nəzarət Palatası müəyyən qədər nəzarətə götürsə də, son vaxtlar müəyyən işlər görsə də ciddi dəyişikliklər edilməlidir. Vaxt qurtardı, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mən Vahid müəllimə ona görə demişdim. 50 nəfər yazılan var. Biz iclasımızı heç 3 günə də qurtara bilmərik. Xahiş edirəm, konseptual yanaşma olsun, birinci oxunuşdur. 5 dəqiqəyə keçək ki, hamıya vaxt çata bilsin. Konseptual yanaşaq, çünki bilirsiniz ki, 3 oxunuş olacaq. Buyursun Azay Quliyev.

**A.Quliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Mən hər şeydən öncə istərdim ki, müzakirəmizə təqdim olunan büdcə layihəsini hazırlayan peşəkar komandaya, xüsusilə maliyyə nazirinə təşəkkür edəm. Bu gün biz büdcə layihəsinin

üstünlükləri və yenilikləri haqqında həm hökumət üzvlərinin, həm də hörmətli millət vəkillərinin ətraflı məruzələrini və təkliflərini dinlədik. Hesab edirəm ki, bu haqda geniş danışmağa ehtiyac yoxdur. Çünki əsas  məqamlar, yəni büdcənin əsas özəlliklərini özündə ehtiva edən məqamlar burada qeyd edildi.

Lakin büdcə ilə bağlı fikrimizi bir cümlə  ilə ifadə etsək, deyə bilərik ki, 2019-cu ilin büdcə təklifi ölkəmizin hərtərəfli inkişafı və növbəti ildə qarşımızda duran vəzifələrin uğurla icrası üçün kifayət qədər əsaslar yaradır və hesab edirəm, hörmətli Prezidentimiz İlham Əliyevin təşəbbüsü ilə qeyri-neft sektorunda, xüsusilə iqtisadiyyat, kənd təsərrüfatı, turizm və digər sahələrdə nəzərəçarpacaq inkişaf tempinin qeydə alınması  idarəetmə və xüsusilə dövlət xidməti sahəsində innovasiyanın tətbiqi baxımından gələcəkdə həyata keçirəcəyimiz islahatlara əlavə bir dəstək olacaqdır və onun maliyyə təminatını kifayət qədər təmin edəcəkdir.

Hörmətli millət vəkilləri, əlbəttə ki, mən istərdim, bir çox digər məsələlərə də toxunum. Ancaq vaxtın azlığını nəzərə alaraq, bir neçə istiqamətdə təkliflərimi səsləndirmək istəyirəm. Əlbəttə, ilk növbədə təmsil olunduğum vətəndaş cəmiyyəti institutları ilə bağlı məni narahat edən və düşündürən məqamları qeyd etmək istəyirəm.

Bilirsiniz ki, 10 ildir ki, cənab Prezidentin təşəbbüsü ilə ölkədə vətəndaş cəmiyyəti institutlarına, xüsusilə qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi həyata keçirilir. Hesab edirəm, bu çox mühüm bir məqamdır və ölkə ictimaiyyəti, xüsusilə də ictimai sektor dövlət qayğısını yüksək qiymətləndirir. Lakin bu gün QHT-lərin ehtiyaclarını milli maraqlarımıza uyğun şəkildə qarşılamaq baxımından bir sıra çətinliklərlə üzləşirik.

Mən hörmətli maliyyə naziri Samir Şərifovdan xahiş

edərdim ki, bu məqama diqqət yetirsin. Xüsusilə, nəzərə alsaq ki, Şuraya ayrılan vəsait son 3 ildir artmır, əksinə azalır. Nəzərə alsaq ki, 2015-ci ildə əgər Şuraya 6,6 milyon manat vəsait ayrılmışdısa, indi bu vəsait 5,6 milyona endirilibdir. Ümumiyyətlə, ölkədə fəaliyyət göstərən QHT sektorunu, onun sayını nəzərə alsaq, bu təxminən 1000–1500 QHT-dir. Biz həmin vəsaiti QHT-lər arasında bölüşdürsək, yəqin bilirsiniz ki, çox az bir vəsait edir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bu gün dövlətin maraqlarını qoruyan QHT-lərin dəstəklənməsinə xüsusi ehtiyacı var. O da əlavə olunmalıdır ki, bu gün bir çox sahələrdə qeyri-hökumət təşkilatları yalnız dövlətdən dəstək ala bilirlər, yəni başqa bir mənbə yoxdur.

Bu gün qeyri-hökumət təşkilatlarının ölkənin milli maraqlarını həm ölkə daxilində, həm də xaricində müdafiə etmələri baxımdan, doğrudan da, dövlətin dəstəyinə ehtiyacı var. Samir müəllimdən xahiş edərdik ki, QHT-lərə ayrılan vəsaitə bu baxımından da, qiymət verilsin və ölkənin təhlükəsizlik komponentinin təşkilində, ümumiyyətlə, təhlükəsizliyin təmin olunmasında qeyri-hökumət təşkilatlarının rolu və missiyası düzgün dəyərləndirilsin.

Əlbəttə, mən bura digər sahələrdə bu gün həyata keçirilən işləri, xüsusilə ikitərəfli və çoxtərəfli müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsində qeyri-hökumət təşkilatlarının üzləşdiyi çətinlikləri əlavə edə bilərəm. Dövlət proqramlarının və milli fəaliyyət planlarının həyata keçirilməsində bilirsiniz ki, qeyri-hökumət təşkilatlarının üzərinə mühüm yük düşür. Bunların icrasında da bu gün təəssüflər olsun ki, mövcud imkanlar daxilində fəaliyyət göstərmək və lazımi nəticələrə nail olmaq çox çətindir.

Ona görə də mən çox istərdim ki, hökumətimiz bu məsləyə xüsusi diqqət ayırsın və qeyd etdiyim sahələri

dəstəkləmək üçün dövlət lazımi istiqamətdə öz töhfəsini versin. Bu məqsədlə yaxşı olardı ki, hazırkı dövlət büdcəsinə əlavə 4,6 milyon manat vəsait əlavə edilsin və beləliklə, nəzərdə tutulan ümumi büdcənin 10 milyon 200 min manat vəsait həcmində müəyyənləşdirilməsi məsələsinə baxılsın. Mən çox ümid edirəm ki, hökumətimiz bu məsələyə daha böyük qayğı ilə yanaşacaq və qaldırılan məsələlərə müəyyən mənada dəstək verəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Eldar Quliyev.

**E.Quliyev.** Çox sağ olun, cənab Sədr. Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Müzakirəyə təqdim olunmuş büdcə zərfinin təhlili onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin formalaşdırdığı iqtisadi siyasət möhkəm təməl üzərində qurulmuşdur, qlobal çağırışlara uyğun olaraq daim təkmilləşir. Bu siyasətin mərkəzində ilk növbədə Azərbaycan vətəndaşının maddi rifah halının yaxşılaşdırılması, milli təhlükəsizliyin təmin edilməsi dayanır. Bu tendensiya 2019-cu il dövlət büdcəsinin layihəsində də öz əksini tapmışdır. Belə ki, sosial həyatımızın prioritet istiqamətləri üzrə büdcə vəsaitinin hesabına dövlət dəstəyi hər il gücləndirilir. Hörmətli Prezidentimiz İlham Əliyev cənabları aqrar sektorun, ölkə əhalisinin ərzaq təhlükəsizliyinin, yüngül və yeyinti sənayesinin inkişafının təmin edilməsinin böyük əhəmiyyəti olduğunu, habelə sahənin ölkə siyasətinə və sosial sabitliyə güclü təsir göstərməsini bir amil kimi nəzərə alaraq, onun inkişafına həmişə diqqət və qayğı ilə yanaşır. Bunun nəticəsidir ki, ildən-ilə ölkəmizdə kənd təsərrüfatı məhsulunun istehsalı və adambaşına düşən ərzaq istehsalı artır. Bu artımın əldə edilməsində ölkəmizdə yaranan iri müəssisələr, iri təsərrüfatlar və aqroparklar da mühüm rol oynayır. Həmin təsərrüfatların kommunikasiya xətlərinin, istehsal binalarının, digər obyektləri-

nin tikilməsinin dövlət büdcəsi hesabına həyata keçirilməsi onların səmərəli fəaliyyətinə imkan yaradır. Bu təsərrüfatlarda yüksək səviyyədə məhsuldarlıq əldə olunur. Onların istehsal etdikləri rəqabətə davamlı məhsulların həm ölkə daxilində, həm də ölkədən kənarda Azərbaycan brendi altında dünya bazarlarına çıxarılmasına imkanlar yaranır.

Mən bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm. İstər komitə iclaslarında, istərsə də plenar iclasda büdcə zərfi müzakirə edilən vaxt fermerlərə və rentabellə işləyən iri təsərrüfatlara güzəştlərin və subsidiyanın azaldılması, yaxud ləğv olunması təklif olunur, fikirlər irəli sürülür. Hesab edirəm ki, belə yanaşma düzgün yanaşma deyil. Dünyanın bütün ölkələrində, hətta kənd təsərrüfatı inkişaf etmiş ölkələrdə kənd təsərrüfatına birbaşa və dolayı yollarla subsidiyaların verilməsi uzun müddətdir davam edir. Bir şeyi də unutmayaq ki, kənd təsərrüfatına verilən subsidiya yalnız kənd təsərrüfatı məhsulu istehsalçılarına yox, həm də məhsulun istehlakçılarına, bütün ölkə vətəndaşlarına verilən subsidiyadır. Ona görə də kənd təsərrüfatı subsidiyalarının artırılmasına qısqanclıqla yanaşmağa ehtiyac yoxdur. Bu sahəyə həmişə subsidiyaların verilməsini, yönəldilməsini doğru hesab edirik.

Hörmətli həmkarlar, qeyd etmək istərdim ki, ölkəmizdə formalaşan siyasətin mərkəzində insan amili dayanır. Yəni bu, sosial məsələlərin həllini möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın həmişə diqqətdə saxlamaları və göstərdikləri qayğının nəticəsidir. Məhz hörmətli dövlət rəhbərlərinin öz təşəbbüsü və xalqın tələbinə uyğun olaraq verdikləri tapşırıqlar sayəsində respublikamızda yüzlərlə yeni məktəb, səhiyyə və digər sosial obyektlər müasir səviyyədə inşa edilir və ya əsaslı təmir edilərək ölkə əhalisinin istifadəsinə verilir.

Belə sosial obyektlərdən bir çoxu mənim deputat olduğum seçki dairəsini də əhatə edir. Cari 2018-ci ildə Maştağa, Zabrat, Nardaran, Bilgəh qəsəbələrində 3 orta məktəb və bir mədəniyyət evi təmir edilmiş, Savalan qəsəbəsində yeni tam orta məktəb tikilib istifadəyə verilmişdir. Maştağa qəsəbəsində 7 saylı xəstəxananın əsaslı təmirinə başlanmışdır. Bu obyektlərin bəzilərinin açılmasında hörmətli Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etmişlər. Qəsəbə sakinlərinə göstərdikləri diqqət və qayğıya görə sakinlər onlara öz təşəkkürlərini və xoş arzularını bildirmişlər. Bu da ölkə rəhbərliyinin xalqın istəyinə uyğun olaraq yeritdikləri siyasətin və xalqla birgə olduqlarının bariz nümunəsidir.

Mən hörmətli nazirlərimiz Samir Şərifova, Əbülfəs Qarayevə, Oqtay Şirəliyevə, Ceyhun Bayramova təşəbbüskarı olduğumuz məsələlərin həllində göstərdikləri diqqətə görə minnətdarlığımı bildirmək istərdim.

**Sədrlik edən.** Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli deputatlar, hörmətli hökumət üzvləri! Mən də büdcə zərfini müdafiə edəcəyəm, büdcənin lehinə, qəbul olunmasına səs verəcəyəm. Ona görə də bəzi mülahizələrimi bildirmək istəyirəm. O da demək olar ki, hər il təkrar etdiyim məsələlərdir. İndi mənim bildiyimə görə, bu il Ağsu dolaylarına yol çəkilməsi məsələsi gündəliyə salınıb, hökumətin planındadır. Xahiş edirəm, bu məsələ sürətləndirilsin, bu, əsaslı olsun. Başa düşmək lazımdır ki, 10 ildən artıqdır, Ağsu dolayları ilə nə bir yük maşını gedir, nə avtobus gedir. Bizim arteriya damarımızdır, kəsilib. Bunu mütləq bərpa etmək lazımdır. Həm Ağsu–İsmayıllı seçiciləri üçün, həm də ətraf rayonlar üçün. İkincisi isə, bütün region üçün, təkcə Ağsu–İsmayıllı deyil, Şamaxı deyil, ətraf rayonlar üçün çox mühümdür ki,

bayaq deyildiyi kimi, tilsimə salınmış Quba–Şamaxı yolunu, nəhayət, başa çatdırmaq lazımdır. Bunu biz anlamalıyıq ki, 100 minlərlə insanlar 100, 200 kilometr əvəzinə, 400–500 kilometr yol qət edirlər, enerji, pul, vaxt sərf edirlər və daşınmalar olur. Bu yolu, nəhayət, başa çatdırmaq lazımdır. Mən bunu çox xahiş edirəm.

Mən təkrar etməmək üçün bir sıra məsələləri demək istəyirəm. Tibbi sığortada geri qalırdıq. Mən 2020-ci ildə bunun başa çatdırılacağını və bu gün pul vəsaiti ayrılmasını alqışlayıram. Amma ümumilikdə, xalq dili ilə desək, mən uşaq pulunun bərpası məsələsini də aktual hesab edirəm. Təhsil, mədəniyyət və sair xidmət sahələri üzrə hər yerdə regional idarələr yaradılıb. Nəzər-diqqəti onların rentabelli olub-olmaması məsələsinə yönəltmək istərdim.

Başqa bir məsələ isə şəhidlər ilə bağlıdır. İki il mən tənqid etmişəm, şəhidlər üçün mənzillərin və fərdi ev tikmək üçün torpaq sahələrinin ayrılması ilə bağlı. Nəhayət, bu il 45,5 milyon manat pul ayrılıb, bu yaxşıdır, 3,6 dəfə artım deməkdir. Bunu davam etdirmək lazımdır. Amma, eyni zamanda, bir şeyi də diqqətə çatdırmaq istəyirəm. Şəhid olmuş insanlara verilən birdəfəlik kompensasiya məsələlərinə gəldikdə, arzu edirəm ki, bu, təkcə hərbçilərə deyil, yəni vətən üçün şəhid olmuş polis işçilərinə, digər vətəndaşlara da şamil olunsun.

Nəhayət, büdcə ilə, büdcə zərfi ilə bağlı bir sıra məsələləri də nəzərə çatdırmaq istəyirəm. Bilirsiniz, əvvəllər də deyilirdi ki, büdcə kəsirini artırmağa ehtiyac yoxdur, bu böyük riskdir, amma mən çox şadam ki, büdcə xərci keçən ilə nisbətən ən azı iki dəfə artırılıb və bundan qorxmaq lazım deyil. Bizim buna ehtiyatlarımız var və bu barədə deyildi. Hesab edirəm, büdcə kəsirini bağlamaq imkanlarımız böyükdür.

Nəhayət, biz 2018-ci il üçün 1,5 faiz ümumi iqtisadi artım nəzərdə tutmuşuq, 9 ayda onun cəmi 0,8 faizi reallaşıb. 3 ay qalıb. Yəni 3 ayda 0,7 faizi, bunun yarısı qədərini çatdıra biləcəyikmi, məndə bir qədər sual yaranır. Amma biz bilirik ki, ÜDM-nin 3,6 faiz artımı nəzərdə tutulur və o biri illərdə də təxminən 3,4 faizdir, bu da yaxşı haldır. Ancaq mən bir şeyə diqqəti yönəltmək istəyirəm. Dəfələrlə deyirik, necə ola bilir ki, deyək, Amerika Birləşmiş Ştatları kimi qüdrətli bir dövlətdə 2,5 faiz, Çində 6,2 faiz, Hindistanda 7,4 faiz, inkişaf etməkdə olan ölkələrdə ortalama 4,7 faiz ÜDM-in artımı nəzərdə tutulur və yerinə yetirilir. Onların təcrübəsini həyata keçirmək lazımdır. Doğrudur, bu sadalananlar vergi siyasəti, başqa məsələlərlə əlaqədardır. Amma hesab edirəm ki, bu məsələlər nəzərə alınıb. Gərək nəzərə alınsın, çünki bu 3,6 faiz artım böyük məsələ olur.

Bundan başqa, adambaşına düşən ümumi daxili məhsula baxdıqda görürük ki, bizdə ən çox olanda 40 min dollar edir. İndi də böləndə baxıb görürəm ki, adambaşına düşən ÜDM, yəni 4 min dollar civarında olur. Qarşıdakı 4–5 ildə də adambaşına 5 min dollar düşmür. Buna görə də mən hesab edirəm ki, Asiya Bankının bizimlə bağlı qiymətləndirməsindən istifadə etmək lazımdır. Bu, real ümumi daxili məhsulun paritet üsulla qiymətləndirilməsi, alıcılıq qabiliyyətinin qiymətləndirilməsi məsələsidir. Bu da Azərbaycanda 171 milyarddır və onun adambaşına düşən miqdarı 17 min dollara çatır. Yəni bunu həm daxili, həm də xarici opponentlərimizə çatdırmaq istəyirik.

Nəhayət, mən keçən il balıqçılıq və şərabçılıqla bağlı tendensiyaları tənqid etmişdim. Ancaq indi baxdım, çox təəssüf edirəm ki, balıqçılıqla bağlı məsələlər heç bir hesabatda öz əksini tapmayıb. Yəni heyvandarlıq var, bitki-

çilik var. Təəssüf ki, balıqçılıqla bağlı rəqəmlərə rast gələ bilmədim. O tendensiyanı bilə bilmədim. Bu həm də balıq məhsullarına aiddir.

Hesab edirəm, bütün bu məsələlərə baxmayaraq, büdcə optimal, mümkün olan qədər yaxşı tərtib olunub və risk məsələsi barədə də Hesablama Palatası öz sözünü deyib. Bunun qəbuluna səs verəcəyəm. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputatlar, hörmətli hökumət üzvləri, əziz media nümayəndələri! 2019-cu il dövlət büdcəsində keçən ilə nisbətən artım var. Bu təhsilə, səhiyyəyə və digər sahələrə ayrılmış vəsaitin miqdarında özünü göstərir. Müsbət haldır. Əminəm, ölkəmizin inkişafı imkan verəcək ki, əhəmiyyətli artım bütün sahələri əhatə etsin. Eyni zamanda, onu da nəzərə alaq ki, büdcə layihəsinin özü də kifayət qədər təkmil hazırlanıb. Bunda əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm.

Mənim qaldıracağım məsələ kifayət qədər ciddidir. Son zamanlar kənd təsərrüfatının inkişafı ilə bağlı ciddi işlər görülür. Deputat seçildiyim Saatlı rayonunda da bunun şahidi oluruq. Keçən il 17 min hektar sahədə yalnız pambıq əkilmişdi. Bu da minlərlə insanın iş yeri ilə təmin olunması və rifahının yaxşılaşması deməkdir. Çox təəssüf ki, əkilən sahələrin bir hissəsinin suvarılması mümkün olmadığından bu, məhsuldarlığa mənfi təsir göstərdi. Habelə bəzi yerlərdə payız əkininin suvarılması mümkün olmadı. Araz çayının suvarma potensialı çox zəifdir. Seçicilərlə görüşərkən onlar dəfələrlə bu problemi qaldırıblar. Hörmətli Baş nazirimiz cənab Novruz Məmmədov buradadır. Onun da diqqətinə bu məsələni çatdırmaq istəyirəm. Əgər biz ümumən Muğan bölgəsində kənd

təsərrüfatının inkişafını, yüksək məhsuldarlıq istəyiriksə, əraziyə mütləq Kür çayından su kanalı çəkilməlidir. Mütəxəssislərin hesablamalarına görə həmin kanalın uzunluğu 16–17 kilometr ola bilər. Məncə, bu işin başa gəlməsi elə də böyük vəsait tələb etməz. Ancaq bu kanalın sayəsində çox böyük ərazi kənd təsərrüfatı üçün münbit zonaya çevrilər.

Önəmli məsələlərdən biri də mediadır, özü də onlayn media. Maliyyə naziri cənab Samir Şərifova təşəkkür edirəm ki, komitə iclaslarında qaldırdığım bu məsələyə reaksiyası oldu. Əminəm ki, məsələnin əhəmiyyətlilik dərəcəsinə adekvat yanaşma var. Bunu müsbət dəyərləniririrəm.

Digər bir məsələ hazır çap məhsullarına və qəzet kağızına tətbiq edilən əlavə dəyər vergisi ilə bağlıdır. Baxın, büdcəmiz artır, əvvəlki illərdəki durğunluq, demək olar ki, aradan qalxıb. Bu durumda məsələnin mahiyyətinə daha dərindən diqqət yetirək. Bəli, müqayisəli yanaşsaq, mediamızın iqtisadi durumu problemsiz deyil. Konkret rəqəmlər var. Bu barədə çox danışmaq istəmirəm. Biz nəyə görə mediamızı əlavə yükdən qurtarmayaq? Bir halda ki, ƏDV-nin tətbiqindən dövlət büdcəsinə elə də böyük vəsait daxil olmur – təqribən yarım milyon manata yaxın. Hazır çap məhsullarını da götürək. Bunların əsas qismi ölkəmizə kənardan gəlir. Nəyə görə onların qiyməti baha olmalıdır? Biz cəmiyyətin maariflənməsini, qabaqcıl elmi biliklərə yiyələnməsini istəməliyik. Axı, müasir dünyada bu yolun alternativi yoxdur.

Mən çıxışımın əvvəlində büdcədə keçən ilə nisbətən artım olduğunu bildirdim. Bunun da bir hissəsi təhsilə ayırılır. Mən istərdim ki, bu ayırma daha çox olsun. İstərdim ki, təhsilə ayrılan maliyyə, eyni zamanda, Azərbaycandilli məktəblərdəki tədris vəsaitlərinin, dərsliklərin daha müasir, daha

təkmil olması məqsədi ilə xərclənsin. Son zamanlar müzakirələrə səbəb olan məlum məsələ məhz bunu tələb edir. Azərbaycandilli məktəblərin gücü olmalıdır ki, övladlarını digər məktəblərə yönəldən valideynlərinin əllərində bəhanə qalmasın. Unutmayaq ki, milli şüurumuz, müstəqil vətənimizə yetkin vətəndaş sevgimiz problemlərimizin, həm də Dağlıq Qarabağ probleminin həlli məhz bizim ana dilimizə münasibətimizlə həmahəngdir.

Çıxışımı bununla yekunlaşdırıram. Layihə peşəkarcasına hazırlanıb. Ona görə də layihəyə səs verəcəyəm. Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev.

**T.Rzayev.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli hökumət üzvləri, deputat həmkarlarım! Büdcə dövlətin varlığının göstəricisi, hökumətin fəaliyyətinin güzgüsüdür. Burada hər şey aydın görünür. 2019-cu ilin dövlət büdcəsi bu baxımdan xarakterikdir və müsbət meylləri səciyyələndirir. Çıxış edən hökumət üzvləri, həmkarlarım büdcə layihəsini yüksək qiymətləndirirlər. Sözsüz ki, mən də bu fikirləri dəstəkləyirəm. Həqiqətən də, büdcə mükəmməl hazırlanıb və ölkənin sosial-iqtisadi həyatını, hörmətli Prezidentimizin düşünülmüş siyasətini özündə hərtərəfli əks etdirir.

Büdcə xərclərinin artırılması müsbət haldır. Bu, ölkənin iqtisadi inkişafından xəbər verir. Bu inkişafın dünyanın bir çox reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilməsi və bu qiymətləndirmənin əhatəsinin ildən-ilə genişlənməsi təbiidir. Əldə olunan nəticələr birgə əməyin

sayəsində başa gəlir. Bu baxımdan, büdcənin bu səviyyəyə çatdırılmasında əməyi olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Rəqəmləri sadalamaq fikrində deyiləm, ancaq bildirmək istəyirəm ki, büdcə sosialyönümlüdür və 6 milyarddan çox vəsaitin bilavasitə sosial məsələlərin həllinə istiqamətləndirilməsi dövlətin və hökumətin bu sahəyə qayğısının ifadəsi kimi qiymətləndirilməlidir.

Büdcədə elmə, mədəniyyətə, səhiyyəyə, təhsilə, Gənclər Fonduna, aqrar sahənin inkişafına ayrılan maliyyə vəsaitlərinin artması məqsədəmüvafiqdir və dövrün tələbləri ilə səsləşir. Su qurğularının istismarı, məqsədli layihələrin həyata keçirilməsi ilə əlaqədar bələdiyyələrə ayrılan milyonlarla vəsaitin yerli özünüidarə orqanlarının fəaliyyətinin yüksəldilməsinə yönəldilməsini müsbət hal kimi qiymətləndirirəm. Hərbə, ordu quruculuğuna ayrılan vəsaitləri də məqbul hesab edirəm.

Azərbaycan təhsilinin inkişafına göstərilən qayğı və diqqət balalarımızın elmin sirlərinə mükəmməl yiyələnməsi, hərtərəfli vətəndaşlar kimi yetişdirilməsi sahəsində həyata keçirilən tədbirlər, islahatlar, müəllim–valideyn münasibətlərinin, məktəblərlə vətəndaş cəmiyyətlərinin, ictimai təşkilatların əlaqələrinin möhkəmlənməsi təhsilin gələcəyindən xəbər verir. Elə bir ölkə tanımıram ki, orada az bir müddətdə respublikamızda olduğu kimi, 3 mindən artıq məktəb tikilib istifadəyə verilsin. Mən Təhsil Nazirliyinin müvafiq orqanlarının Gürcüstan Respublikasında azərbaycanlıların məskunlaşdığı rayonlarda məktəblərə göstərdiyi qayğını, onların hər il müəyyən qədər dərs ləvazimatları ilə təmin olunmasını müsbət dəyərləndirirəm. Ancaq bir nazirliyin sayəsində qonşu ölkədə yerləşən məktəblərin fəaliyyətini tam nizamlamaq mümkün deyil. Son zamanlar Gürcüstanda müəllim çatışmazlığı,

məktəblərin maddi-texniki bazasının zəif olması əsasında xeyli məktəb bağlanıb. Bu ağrılı bir məsələdir. Elə bilirəm ki, bu məsələyə hökumət səviyyəsində münasibət bildirmək lazımdır. Müəyyən güzəştlər, şərtlər tətbiq edilməklə qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin ölkəmizdə pedaqoji təhsil almasına, yaxud gənc müəllimlərin Gürcüstan məktəblərində fəaliyyətə istiqamətləndirilməsinə imkan yaradılmalıdır. Bu, müəyyən maliyyə vəsaitləri tələb etsə də, bu barədə ciddi düşünməyə dəyər.

Yeni doğulan uşaqlara görə birdəfəlik müavinətlərin artırılması, uşaq pulunun verilməsi, şəhid ailələrinə verilən birdəfəlik müavinətlərin ödənilməsi ilə bağlı deputat həmkarlarımın fikirlərini dəstəkləyirəm və hesab edirəm ki, bu ümumi işlərimizin xeyrinə olar. Mən büdcəni mükəmməl və vacib bir sənəd kimi qiymətləndirirəm və onun lehinə səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Eldar İbrahimov.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli deputat həmkarlarım, hörmətli hökumət üzvləri! Bu il oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında möhtərəm Prezidentimiz cənab İlham Əliyev çıxış edərək qeyd etdi ki, "Gələn ilin büdcəsi həm investisiyayönümlü, həm də sosialyönümlü olacaqdır".

Milli Məclisin müzakirəsinə təqdim edilmiş büdcə zərfinin təhlili göstərir ki, əvvəlki illərdə olduğu kimi, gələn ildə də ölkəmizdə formalaşmış siyasətin mərkəzində insan amili, Azərbaycan Respublikası vətəndaşlarının maddi-rifah halının yaxşılaşması dayanır.

Həmin iclasda hörmətli Prezidentimiz ölkəmizdə kölgə iqtisadiyyatının kəskin azaldılması istiqamətində ciddi

tədbirlərin görüldüyünü və bu istiqamətdə vergi və gömrük sistemində son aylar həyata keçirilən islahatları yüksək qiymətləndirmiş və onların yaxşı nəticələr verəcəyinə əminliyini qeyd etmişdir.

Bildiyiniz kimi, dövlət büdcəsi gəlirlərinin formalaşması, əsasən, vergi və gömrük orqanlarının səmərəli fəaliyyətindən asılıdır. Məhz ona görə də bu orqanlarda müasir dünyagörüşünə malik kadrların rəhbər vəzifələrə irəli çəkilməsi, onların əzmkarlıqla həyata keçirdikləri struktur dəyişiklikləri, korrupsiyaya, rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparmaları, şəffaflığın təmin edilməsi üçün gördükləri işlər artıq öz müsbət nəticəsini verməkdədir. Bunu nəzərə alaraq, İlham Əliyev cənabları bütün dövlət orqanlarına və sahibkarlara islahatların daha da dərinləşməsində bu orqanlara kömək göstərmələrini töfsiyə etmişdir.

Bununla əlaqədar vergi və gömrük orqanlarının rəhbərlərinə büdcə gəlirlərinin artımını təmin edən tədbirləri uğurla həyata keçirdiklərinə görə təşəkkür edirəm və hesab edirəm ki, onların bu istqamətdə mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təşəbbüsləri Milli Məclis tərəfindən tam dəstəklənəcəkdir.

Hörmətli həmkarlar, bildirmək istəyirəm ki, 2019-cu ilin dövlət büdcəsində əvvəlki illərdən fərqli olaraq kənd təsərrüfatının stimullaşdırılması daha dolğun nəzərə alınmışdır. Hazırda ölkəmizdə çoxlu sayda idxal məhsullarını əvəz edəcək məhsul istehsalı üzrə iri təsərrüfatlar və aqroparklar yaradılır. Bu təsərrüfatların və xırda fermer təsərrüfatlarının səmərəli fəaliyyətini təmin etmək üçün hər il büdcədən kənd təsərrüfatına ayrılan vəsait artırılır. Gələn ilin büdcəsində kənd təsərrüfatına 796,8 milyon manat və ya bu ilin gözlənilən icrasına nisbətən 14 faiz çox vəsait ayrılması nəzərdə tutulur ki, bu da ümumi

büdcə xərclərinin 3,2 faizi deməkdir. Onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatına ayrılan dövlət vəsaitinin artımı havayı getmir, yüksək səmərə verərək məhsul istehsalının artımına təkan verir.

Keçən il ölkəmizdə 6 milyard 580 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmiş və respublika üzrə ümumi daxili məhsulun 5,4 faizi həcmində əlavə dəyər yaradılmışdır. Bu 2017-ci ilin göstəricilərindən xeyli çoxdur. Fərəhli haldır ki, gələn ilin büdcəsində kənd təsərrüfatına ayrılan vəsaitin 420 milyon manatı və ya 53 faizi ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin stimullaşdırılmasına yönələcək və fermerlərin daha çox məhsul istehsalına əlverişli şərait yaradacaqdir.

Son illər kənd təsərrüfatında yararlı torpaqlardan səmərəli istifadə etmək, yeni su kanalları və dəryaçaların inşa edilməsi, torpaqların münbitliyinin artırılması və eroziyasının qarşısının alınması üçün genişmiqyaslı işlər görülür. Bunun nəticəsidir ki, son iki ildə 200 min hektara yaxın əvvəllər istifadə olunmayan torpaqlar suvarılan əkin torpaqları dövriyyəsinə daxil edilmişdir. Bu işləri davam etdirmək üçün Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə gələn il 294 milyon manat və ya cari ilə nisbətən 50 milyon manat artıq vəsait ayrılması nəzərdə tutulur. Bu da ölkəmizdə büdcə vəsaitlərindən səmərəli istifadə olunduğunu sübut edir.

Bütün bunlarla yanaşı, hesab edirəm ki, pambıqçılığı, baramaçılığı, çayçılığı, sitrus və zeytun bitkiçiliyini, fındıqçılığı daha da sürətlə inkişaf etdirmək üçün onların hər birinin stimullaşdırılmasına dair büdcədən vəsait ayrılması öz müsbət təsirini göstərəcəkdir.

Digər bir məsələ kənd təsərrüfatı kooperasiyası ilə bağlıdır. Bu barədə müvafiq qanun və təsdiq edilmiş

dövlət proqramı vardır. Proqramın 9.0.1-ci bəndində dövlət proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulsa da, bu məsələ 2019-cu ilin dövlət büdcəsində əks olunmayıb. Yaxşı olar ki, büdcədən bu məsələnin həlli üçün vəsait ayrılması nəzərdə tutulsun.

Naxçıvan şəhərindən seçilən deputat kimi Muxtar Respublikanın blokadada olmasını nəzərə alaraq, onun büdcəsinin formalaşmasına diqqətlə yanaşdıqlarına, habelə aqrar sektorun ölkənin iqtisadi təhlükəsizliyinin, siyasi və sosial sabitliyinin təmin olunmasında əhəmiyyətinə düzgün qiymət verdiklərinə görə hörmətli nazirimiz Samir Şərifova və büdcənin tərtibində iştirakı olan hər bir kəsə minnətdarlığımı bildirirəm.

Qanun birinci oxunuşda konseptual baxımdan tamamilə hazırdır. Mən bu qanun layihəsini dəstəkləyirəm və deputat həmkarlarımı da layihənin lehinə səs verməyə dəvət edirəm. Sağ olun

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Sevinc Hüseynova.

**S.Hüseynova.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, həmkarlar, hökumət üzvləri və media nümayəndələri! Səslənən fikirlərlə razıyam. Müzakirəmizə təqdim olunmuş növbəti ilin büdcəsində dövlətin siyasi xəttinin həyata keçirilməsi əsas götürülməklə, ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasında müəyyən olunmuş məqsəd və hədəflər təmin olunmuşdur. Peşəkarcasına hazırlanmış sosialyönümlü bu sənədə səs verəcəyəm. Bununla yanaşı,

hökumət üzvlərinin iştirakından istifadə edərək müəyyən məsələləri diqqətinizə çatdırmaq istərdim.

İlk növbədə cəmiyyəti hər zaman düşündürən və hər bir xalqın gələcəyi, dəyərli sərvəti sayılan gənc nəslə, uşaq, yeniyetmə və gənclərlə aparılan işin təşkili ilə bağlı olan məsələni bildirmək istərdim. Bildiyiniz kimi, bu sahə həssas sahə olduğu üçün hər zaman investisiya tələb edir. Fərəhləndirici haldır ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikası Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən çox uğurla aparılan dövlət gənclər siyasəti sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir. Bu gün ölkəmizdə intellektual səviyyəli, geniş dünyagörüşü, bacarığı ilə seçilən yeni bir nəsil yetişmişdir. Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edir, beynəlxalq səviyyədə ölkəmizi layiqincə təmsil edirlər. Uzun müddət bu sahədə çalışmış bir dövlət qulluqçusu kimi, bu sahəyə göstərilən diqqət və qayğıya görə fürsətdən istifadə edərək ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm.

Düşünürəm ki, qloballaşan dünyada gedən mürəkkəb proseslər, bu proseslərin yaratdığı mənfi təsirlərdən, dini ekstrimizm, separatizm, beynəlxalq terrorizmdən gənclərin qorunması bu sahədə aparılan işlərin zərurətini daha da artırır. Çünki tək inzibati tədbirlər, həbs, cəzaçəkmə yox, təbliğat, maarifləndirici tədbirlər, asudə vaxtın təşkili daha geniş şəkildə gənclərin cəlb edilməsinə yönəldilməlidir. Hədəf böyüməkdə olan gənc nəslin nümayəndələrinin hər birinin bu işə cəlb edilməsindən ibarət olmalıdır. Bu isə gənclər siyasəti sahəsində mövcud olan icra mexanizminin daha da effektiv qurulmasını, təkmilləşməsini zəruri edir. Təklifimi izah etmək üçün qısa şəkildə hazırda

bu sahədə vertikal xətt üzrə işin təşkilini nəzərinizə çatdırmaq istərdim.

Bildiyiniz kimi, 1994-cü ildən başlayaraq bu sahədə işlərin aparılması üçün 2 dövlət qurumu – Gənclər və İdman Nazirliyi, daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Nazirlik fəaliyyətini yerlərdə şəhər və rayonlarda, tərkibi 5–7 nəfərdən ibarət idarələr vasitəsi ilə həyata keçirir. İdarələrin işi yaşayış məntəqələrində, kəndlərdə kənd səviyyəsində, şəhərlərdə isə məhəllə səviyyəsində ictimai əsaslarla qurulur. Dövlət uşaq siyasətini həyata keçirən komitənin isə rayonlarda yerli idarələri mövcud deyil. Yalnız bir neçə rayonda ailələrə dəstək təlim mərkəzləri fəaliyyət göstərir. Beynəlxalq təcrübədə ABŞ və Avropa ölkələrində gənclər siyasəti yalnız QHT-lər vasitəsi ilə həyata keçirilir. Bizim ölkəmizdə də çox geniş QHT-lər şəbəkəsi mövcuddur. Bu şəbəkəni maliyyələşdirən donor təşkilatları da təsis olunubdur. Könüllü fəaliyyət göstərən bu şəbəkə çox sayda, əhəmiyyətli tədbirlər həyata keçirir.

Ancaq bir məsələni vurğulamaq istərdim. Qeyd etdiyimiz kimi, bu könüllü fəaliyyətdir. Təbii ki, könüllü fəaliyyət göstərən təşkilat layihələrin keçirilmə yerini müstəqil olaraq müəyyən edir. Onlar öz seçimlərində iri şəhər və infrastrukturu rahat olan yaşayış məntəqələrinə üstünlük verirlər. Bu halda isə dağlıq bölgələrdə layihələr daha az sayda həyata keçirilir. Həmin bölgələrin müəyyən ucqar kəndlərində isə ümumiyyətlə, layihələr keçirilmir. Ona görə də bu sahədə işlərin daha səmərəli qurulması, rayonlarımızda fəaliyyət göstərən gənclər və idman idarələrinə yaşayış məntəqələri səviyyəsində fəaliyyət göstərmələri üçün hökumət tərəfindən ştatların ayrılması məsələsinə baxılmasını təklif edirəm. Həmin nümayəndələr hər iki

qurumun – Gənclər və İdman Nazirliyinin, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətini həyata keçirə bilərdi. Həmçinin yerli səviyyədə idarəetmənin həyata keçirilməsində lazımi kadrların yetişdirilməsində yardımçı olardı.

Bir təklifim də var. Bu, təmsil etdiyim rayonla bağlıdır. Seçicilərimizi ən çox narahat edən məsələ qaz təchizatı ilə bağlıdır. Mənə elə gəlir ki, çatdıra bilməyəcəyəm, bunu növbəti dəfə bildirirəm. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Şahin İsmayılov.

**Ş.İsmayılov**. Çox sağ olun, cənab Sədr. Hörmətli Sədr, hörmətli həmkarlarımız, hökumət nümayəndələri! Təbii ki, məndən öncə büdcə haqqında müsbət fikirlər söyləyən deputat həmkarlarımın fikirlərinə mən də qatılıram və çalışacağam təkrarçılığa yol vermədən qısa şəkildə fikirlərimi ifadə eləyim. Təbii ki, ölkədə həyata keçirilən gənclər siyasəti haqqında Sevinc xanım geniş məlumat verdi. Mən də bu mövzuda fikirlərimi bir neçə kəlmə ilə çatdırmaq istərdim. Bu gün biz Azərbaycanda Gənclər Təşkilatının V sərgisində iştirak etdik. Təqribən 200-ə yaxın gənclər təşkilatı orada iştirak edirdi. Həqiqətən də, Azərbaycanda həyata keçirilən gənclər siyasəti bir model olaraq digər ölkələr tərəfindən qəbul olunub. Bu büdcədə də gənclər siyasətinə və gənclərlə işə vəsait nəzərdə tutulmuşdur, müəyyən artım vardır. Amma nəzərə alsaq ki, qarşımızda “Azərbaycan gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramının icrası durur və bu proqramın daha yaxşı həyata keçirilməsi üçün mən Gənclər və İdman Nazirliyinin büdcəsinə müəyyən əlavələrin olunmasını istərdim. Bundan başqa, Gənclər Fonduna ayrılan vəsaitlə bağlı biz komitə müzakirələri zamanı da bildirmişdik, ümid edirəm ki, bu sahədə bizi müsbət mənada yenilik

gözləyəcək. Çünki Gənclər Fondunun Nizamnaməsi dəyişib. Gənclər Fondu aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqlarının ödənilməsindən tutmuş, gənclərimizin xaricdə təhsil almasına, o cümlədən müxtəlif beynəlxalq qurumlarda təcrübə keçmələrinə, gənclər təşkilatları və fərdi gənclərə qrantların verilməsinə qədər çox böyük bir missiyanı öz üzərinə götürmüşdür. Ona güclü şəkildə maliyyə dəstəyinin göstərilməsi olduqca vacibdir. Çünki sağlam gənclik sağlam gələcəkdir və gənclərimizin bu sahədə inkişafına dəstək göstərmək yaxşı olardı.

Söyləmək istədiyim digər məsələ, bayaq hörmətli Şahin müəllimin çıxışında təkrar istehsalla bağlı dediyi fikirlərlə əlaqədardır. Sevindirici haldır ki, təkrar istehsal sahəsində bizim məhsullarımız xaricə ixrac olunmağa başlayıb. Bu geniş tendensiya dünyada yayılmışdır və müasir çağırışlardan biridir. Bizdə də təkrar istehsalla bağlı çox böyük potensial vardır. Xüsusilə son zamanlar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin gördüyü işlər, həqiqətən də, təqdirəlayiqdir. Dünyada bir sıra ölkələr artıq polietilen torbalardan imtina edib, ekoloji təmiz torbalara keçirlər. Bu, əslində böyük ekoloji məsələdir. Tədricən Azərbaycanda da bu keçidi təmin eləmək, polietilen torbalardan imtina etmək yaxşı olardı. Digər məsələ, işlənmiş avtomobil şinlərinin təkrar istehsala cəlb olunması da iqtisadi baxımdan böyük mənfəət gətirən bir sahədir. Hələ ki, bizdə bu sahə boşdur, mən ümid edirəm ki, növbəti illərdə təkrar istehsalla bağlı bu sahədə də biz yeniliklər görmüş olacağıq.

Bundan başqa, hörmətli Azay müəllim bayaq QHT şurası ilə bağlı olduqca vacib fikirlər söylədi. Həqiqətən də, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası milli donor olaraq QHT-lərin inkişafına olduqca böyük

dəstək, töhfə verir və milli donor olaraq QHT şurasının büdcəsinə də əlavələrin olunması çox yaxşı olardı. Çünki bu, həqiqətən, də strateji məsələdir.

Qida Təhlükəsizliyi Agentliyi çox böyük işlər görür və sevindirici haldır ki, ərzaq təhlükəsizliyi baxımından olduqca strateji bir missiyanı yerinə yetirir. Həvəskar idmanla məşğul olan insanlar, gənclər zallarda kütləvi şəkildə, qeyri-peşəkarcasına idman əlavələri və proteinlərdən istifadə edirlər. Mənşəyi məlum olmayan bu protein və qida əlavələri gənclərin sağlamlığına əksər hallarda, müəyyən mənada ciddi təhlükə yaradır. Yaxşı olardı ki, Qida Təhlükəsizliyi Agentliyi bu sahədə müəyyən irəliləyişlər əldə edərdi. O cümlədən energetik içkilərlə bağlı vəziyyət ürəkaçan deyil.

Sonda, seçildiyim Beyləqan rayonunun bir sıra məsələlərini diqqətinizə çatdırmaq istərdim. Beyləqan kənd təsərrüfatı rayonudur və meliorasiya ilə bağlı bir sıra məsələlər, xüsusilə Allahyarlı, Milabad, Tatalılar və Birinci Şahsevəndə torpaqların meliorasiya olunmasına ciddi ehtiyac var. O cümlədən təmirlə bağlı bir sıra məktəblərdə, xüsusilə Eyvazlılar, Kəbirli, şəhər 4 saylı və Yuxarı Aran məktəblərində yenidənqurma və yaxud əsaslı təmirə ciddi şəkildə ehtiyac duyulur. Mən də büdcəyə səs verəcəm və həmkarlarımı da səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Hörmətli Sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar! Mən, təbii ki, geniş çıxış eləyə bilməyəcəyəm, vaxt azdır, amma tezislər halında düşüncələrimi çatdırmaq istəyirəm. Əvvəla, onu deyirəm ki, cənab Prezidentin son təyinatından sonra bir çox nazirliklərdə olan irəliləyişlər ürəkaçandır, xüsusən Vergilər Nazirliyində

aparılan islahatlarla bağlı dedilər, vergi yükünün azaldılması, inzibatçılığın yüngülləşdirilməsi, vergi potensialının doğru qiymətləndirilməsi kimi müsbət hallar qeyd olunmalıdır. Yaxud Gömrük Komitəsinə yeni təyinatdan sonra qısa zaman ərzində 800 milyona qədər nəzərdə tutulmayan vəsaitin büdcəyə daxil olması. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində, Kənd Təsərrüfatı Nazirliyində və sair nazirliklərdə, Dəmir Yolu İdarəsində baş verən irəliləyişləri də bura aid eləmək olar. Bu, təbii ki, hökumətin uğurudur.

Büdcə ilə bağlı olaraq onu bildirim ki, ilk baxışda adambaşına düşən büdcə gəlirləri 1370 dollar civarındadır. Nəzərə alsaq ki, büdcə gəlirlərində 13 milyard 700 milyon manat neft strukturlarından və 5,4 milyard manat qeyri-neft strukturundan daxil olur, belə çıxır ki, qeyri-neft büdcəsindən adambaşına düşən gəlir 551 dollar civarındadır. Bu kiçik rəqəmdir, müqayisə üçün deyim ki, Gürcüstanda bu rəqəm 1000 dollardır, Baltikyanı ölkələrdə bundan 4 dəfə çoxdur. Ona görə biz qeyri-neft sektorunda nə qədər irəliləyiş olsa da, bunu qənaətbəxş saya bilmərik və qeyri-neft sektoru sahəsində ciddi addımların atılması aktuallığını yenə də saxlayır. Göründüyü kimi, büdcəmiz neftdən asılılığını yenə də saxlayıb. Rəqəmlər də onu göstərir ki, Neft Fondunun transfertlərinin həcmi əvvəlki ilin büdcə göstəricisi ilə müqayisədə 3,6 faiz artımla proqnozlaşdırılıbdır. Yenə də biz gözümüzü neftə dikmişik, yenə də büdcənin əsas yükünün neftdən formalaşması üzərində dayanılır. Bu, məncə, çox riskli məsələdir. Müsbət saldonun neftlə bağlı olduğu aydın olur və bunun qeyri-neft sektoru hesabına dəyişilməsi üçün də çalışmağımız vacibdir.

Mən yenə deyirəm, tezislər halında danışacağam, çünki

zamanımız çox qısadır. İdxalın strukturundakı məsələyə baxanda, ərzaq məhsullarının payının çox olması yenə də bizi narahat edir. Ən pisi də budur ki, bu məhsulların bir çoxunun, demək olar ki, hamısının Azərbaycanda istehsal olunması imkanları var. Xarici ticarətdə, keçən il ixrac əməliyyatlarında özəl sektorun payı aşağı, 10 faiz civarında olub. Xarici ticarətdə idxal əməliyyatlarında özəl sektorun payı 78 faizdən çox olubdur. Halbuki, bunların yeri dəyişik olmalıdır. Bu göstərici onu göstərir ki, Azərbaycanda qeyri-neft strukturunda xarici bazar mövqeləri yetərli sayıla bilməz və ciddi iqtisadi resurs axtarışlarımız davam etdirməlidir. Bu olmasa, ciddi irəliləyişlərə nail olmaq çətin olacaqdır. Kiçik və orta sahibkarlıqla bağlı. Baxmayaraq ki, nazirliklər səviyyəsində, Baş nazir səviyyəsində məsələlərə çox normal baxılır, amma aşağılarda bürokratik əngəllərin olması da nəzərə alınmalıdır.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu, problemli kreditlərlə bağlıdır. Mən bunu dəfələrlə parlamentdə təklif eləmişəm. Bir daha hökumətin nəzərinə çatdırmaq istəyirəm ki, bu problem bizim problemimizdir. Əhaliyə kömək məqsədilə hökumət bir çox məsələlərlə yanaşı, kreditlərin qaytarılması qaydasını da nəzərdə tutan bir sənəd hazırlamalıdır. Burada qaytarılma qaydası aşağıdakı kimi olmalıdır. Əvvəl əsas borcun qaytarılması nəzərdə tutulmalıdır, sonra kredit faizi, ondan sonra cərimə və peniyalar və dördüncü borcun qaytarılma şərtlərinin ödənməsi. İndiki halda isə, gecikmə yarananda ilk növbədə peniya ödənilir və sonra da bu siyahı tərsinə getdiyinə görə həmişə kredit götürən adam banklardan asılı vəziyyətdə qalır. Bu məsələ ciddi məsələdir və məncə, nəzərə alınmalıdır.

Kommunal sektorla bağlı mən verdiyim təklifi bir daha

nəzərə çatdırıram ki, bu sahəyə 500 milyondan çox vəsait ayrılıb, amma kommunal sektorun tamamilə mülkiyyət hüququ dövlətdə qalmaq şərti ilə özəlləşdirməyə, işlətməyə verilməsi vacib şərtdir. Həm buraya vəsait ayrılmasın, həm də buradan dövlətə əlavə vəsaitlər gəlsin. Bələdiyyə müəssisələrinin hazırlanması ilə bağlı olaraq, bu da, iqtisadiyyatın inkişafına çox ciddi xeyir verə bilər. Bu istiqamətdə olan tikililəri nəzərə alanda, demək olar ki, cəmi 0,1 faiz bələdiyyə mülkiyyətinə, qalanı başqa sektorlara aid olan tikililərdir. Tikilən müəssisələrin də 63,5 faizi Bakıdadır. Amma bunların əyalətdə olması vacib məsələlərdən biridir.

Neftin xammal şəkildə satılması məni yenə narahat edir. Hesab edirəm ki, Türkiyədə tikdiyimiz o böyük kompleks kimi Azərbaycanda da kompleks tikilə bilər və Azərbaycanda neft məhsulları yarımfabrikat və son məhsullar şəklində dünyaya çıxarıla bilər ki, biz xam neft satmaqdan qurtula bilək.

Mən büdcə yükü haqqında da danışmaq istəyirdim. Büdcə, əsasən, demək olar ki, 60–70 min adamın neft sektorunda çalışması ilə əhalini saxlayır və 800 minə qədər adam da demək olar ki, yararsız şəkildə fəaliyyət göstərir. Zaman həddindən artıq azdır, mən bir neçə məsələyə toxunmaq istəyirdim. Ehtiyac meyarının, minimum əmək haqqının artırılması, pensiyanın artırılması, bu tipli məsələlərə də baxılması vacibdir. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Musa Quliyev.

**M.Quliyev**. Çox sağ olun, hörmətli cənab Sədr! Növbəti ilin büdcəsi bizə təqdim olunan hesabatlardan, nazirlərimizin və komitə sədrinin məlumatından göründüyü kimi, çox uğurlu, balanslaşdırılmış bir büdcədir. Dünyada gedən proseslər, Azərbaycan reallığı nəzərə alınmaqla hazırlanan bir büdcədir və bu büdcənin həyata keçirilməsi

xalqımızın sosial rifah halının daha da yaxşılaşdırılmasına, Azərbaycanın qüdrətinin daha da güclənməsinə gətirib çıxaracaqdır. Büdcənin sosialyönümlü olması bir daha onu göstərir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev öz daxili siyasətində xalqın sosial rifah halının gücləndirilməsini həmişə prioritet istiqamət kimi götürübdür və gələn il də belə olacaq. İnflyasiyanın aşağı həddə olması və büdcədə əmək haqlarının, pensiyaların, müavinətlərin qaldırılmasının nəzərdə tutulması bir daha göstərir ki, Azərbaycan vətəndaşları gələn il builkindən daha yaxşı yaşayacaqlar.

Mən səhiyyənin büdcəsinin artırılması ilə bağlı məsələnin üzərində xüsusilə dayanmaq istəyirəm. Səhiyyə işçisi kimi cənab Prezident başda olmaqla bütün hökumət üzvlərinə təşəkkürümü bildirirəm. Səhiyyə büdcəsi müstəqilliyimiz dövründə ən yüksək bir həddə, 1 milyard 48 milyon manat məbləğində müəyyənləşdirilib ki, bu da ötən ildəkindən 53,9 faiz çoxdur və bu, əhalinin sağlamlığının daha da yüksək keyfiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir. Şəkərli diabet və böyrək çatışmazlığı xəstəliklərinin profilaktikası və müalicəsi məqsədilə ötən ildəkindən daha çox, 15 milyon manat əlavə vəsait ayrılmasını da təqdirəlayiq hesab edirəm. Eyni zamanda, hökumət üzvlərinin burada olmasından istifadə edərək insulin vahidləri məsələsinə yenidən baxılmasını da təklif edirəm. Məsələ burasındadır ki, bizdə 90-cı illərdən bu yana qəbul olunmuş normativə görə bir xəstənin birdəfəlik müalicəsi üçün 40 faiz insulin nəzərdə tutulur. Amma son illərdə bu, səmərə vermədiyinə görə Ümumdünya Səhiyyə Təşkilatı bu vahidi 60 vahiddən 80 vahidə qaldırıbdır. Yəni biz də təxminən, indiki normadan iki dəfə artıq insulin işlətməliyik. Buna görə də hesab edirəm ki, gələn ildən bu

proqram üzrə də büdcənin artırılmasına ehtiyac olacaq. Başqa bir məsələ, analoq insulinlərin istifadə olunmasıdır. Bizdə uzun müddətdir insan insulinindən istifadə edilir ki, bu o qədər də effektli insulin sayılmır. Artıq dünyanın qabaqcıl ölkələrinin çoxu analoq insulinlərə keçiblər. Mən hesab edirəm ki, gələcəkdə bunu da nəzərə almalıyıq.

Bir təklifim seçildiyim Gəncə şəhəri ilə bağlıdır. Son illərdə Gəncədə səhiyyənin inkişafı göz qabağındadır. Cənab Prezidentin, hörmətli Mehriban xanımın səhiyyə sisteminə xüsusi diqqəti var, o cümədən Gəncə səhiyyə sisteminə. Orada 3 nömrəli böyük bir xəstəxana var. Bu xəstəxana 60 il bundan öncə tikilib. Onun təmir olunmasına, müasir avadanlıqla təchiz edilməsinə ciddi ehtiyac var. Gələn ilin büdcəsində, ola bilsin, bu imkanlar yoxdur, amma hökumətdən xahiş edirəm ki, növbəti ildə büdcə tərtib olunarkən bu məsələ də nəzərdə tutulsun.

Dünən biz Konstitusiya günü münasibəti ilə Penitensiar xidmətdə olduq. Bir sıra deputatları dəvət etmişdilər. Orada məhbusların əmək şəraiti ilə, onların istehsal etdiyi məhsullarla tanış olduq. Çox ciddi, vacib bir məsələdir ki, Penitensiar xidmətə dövlət sifarişi verilsin. Orada olan insanlar hamısı sağlam, fiziki cəhətdən enerjili insanlardır və onların dövlət büdcə hesabına saxlanılması da hesab edirəm, o qədər də doğru deyil. Onlara lazımi əmək şəraiti yaradılarsa, lazımi sifarişlər verilərsə, istehsal etdikləri məhsulla həm öz xərclərini çıxara, həm də ailələrinə köməklik göstərə bilərlər. Bunun da nəzərə alınmasını xahiş edirəm. Eyni zamanda, mən özəl səhiyyə və təhsil müəssisələrində dövlətin müəyyən qədər güzəştli vergi siyasəti aparmasını da məqsədəuyğun sayıram. Çünki səhiyyə və təhsil sosial bir layihədir. Özəl sektor da, əslində dövlətin görəcəyi işi görür, burada vətəndaşlara bu xidməti...

**Sədrlik edən**. Azər Badamov.

**A.Badamov**. Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri və hörmətli həmkarlar! Müzakirəyə təqdim olunmuş 2019-cu ilin dövlət büdcəsi mükəmməl və gələn ilin çağırışlarına uyğun hazırlanmışdır. Dövlət büdcəsi layihəsinin demək olar ki, bütün maddələri üzrə 2019-cu ildə artımlar nəzərdə tutulmuşdur. Bu da, ölkədə makroiqtisadi sabitliyi qoruyub saxlamaqla iqtisadiyyatımızın inkişaf dinamikasının təmin olunmasına şərait yaradacaqdır. Ölkə başçısının rəhbərliyi altında ölkəmizdə həyata keçirilməsinə başlanmış iqtisadi islahatların uğurlu icrasının göstəricisidir ki, büdcəmiz artır, ölkədə sosial və investisiya mühiti yaxşılaşır, göstəricilərimizin müsbət dinamikası davam edir. Onu da qeyd etmək istəyirəm ki, 2019-cu ildə nəzərdə tutulan büdcə, vergi islahatları ölkədə kiçik və orta sahibkarlığın inkişafına, kölgə iqtisadiyyatının azalmasına, şəffaflığın artmasına və ümumilikdə, iqtisadiyyatın, qeyri-neft sektorunun inkişafına yeni imkanlar yaradacaq. Bu da, sonrakı illərdə dövlət büdcəsinin neftdən asılılığının azalmasında özünü göstərəcəkdir. Ümumilikdə götürüləndə, dövlət büdcəsi layihəsini müsbət dəyərləndirirəm və bununla yanaşı, bir neçə təklifimi səsləndirmək istəyirəm.

Birinci onu qeyd etmək istəyirəm ki, tələbələr və pensiyaçılar cəmiyyətin sosial müdafiəsinə daha çox ehtiyacı olan təbəqəsidir. Bir çox ölkələrdə tələbələrə ictimai nəqliyyatdan istifadə etmələri üçün güzəştlər tətbiq olunur. Bu məqsədlə tələbələrə tələbə kartı verilir və onlar həmin kart vasitəsi ilə ictimai nəqliyyatda ödəmələr həyata keçirirlər. Onu da qeyd etmək istəyirəm ki, Bakıda ictimai nəqliyyatın əksəriyyəti kartla ödənişə keçmişdir və güzəştin şəffaf tətbiqi imkanları mövcuddur. Ölkəmizin inkişaf

səviyyəsi, dövlət büdcəsinin maliyyə proqnozları tələbələrə güzəştlər tətbiq etməyimizə imkan verir. Düşünürəm ki, güzəştli tələbə kartlarının verilməsi böyük vəsait tələb etmir və tələbələrə belə güzəştin tətbiq olunması üçün dövlət büdcəsində vəsait nəzərdə tutulsaydı, yaxşı olardı. Əgər bu məsələni reallaşdıra bilsək, on minlərlə tələbənin sosial durumunun yaxşılaşdırılmasına töhfə verməklə tələbələrimizi sevindirmiş olarıq.

İkinci təklifim seçildiyim rayonla bağlıdır. Qusar idmançılar rayonudur və dövlət başçısının idmançılara olan xüsusi diqqətindən Qusarın gəncləri də yararlanırlar. Fiziki sağlam gənclər ölkəmizin müdafiəsi üçün əsgərdir. Qusar gəncləri də hər zaman ölkəmizin ərazi bütövlüyünün qorunmasında hazırdırlar və həmişə ön cərgədə dayanıblar. Qusar rayonunun "Şahdağ" adında bir futbol komandası var. "Şahdağ" futbol komandası və Qusarın futbolsevərləri şəhərin mərkəzi futbol meydançasında məşqlər edir, yarışlara hazırlaşırdılar. Bu meydança həm də yeni futbolçuların və fiziki sağlam gənclərin yetişməsi üçün bir baza idi. Son illər həmin futbol meydançası tam sökülərək, yenidən qurulması üçün işlərə başlanmışdır. Amma maliyyə və digər problemlərlə əlaqədar futbol meydançasının tikintisi tamamilə dayanmışdır. Bu məsələ ilə bağlı Qusarın futbol komandası ilə yanaşı, gəncləri də çox narahatdırlar və məsələnin həllinə kömək istəyirlər. Mən iqtisadiyyat, maliyyə, idman və gənclər nazirlərimizdən xahiş edirəm ki, həmin futbol meydançasının tikilib başa çatdırılması üçün maliyyə ayrılsın, tədbirlər görülsün. Çünki bu çox vacib məsələdir.

Ölkəmizdə kənd yollarının tikintisi sürətlə aparılır. Son vaxtlar cənab Prezidentin imzaladığı sərəncamların əksəriyyəti də kənd yollarının tikintisi ilə bağlıdır. Məhz bu-

nun bariz nümunəsidir ki, ölkəmizin kənd yolları sürətli inkişaf mərhələsini yaşayır. Müasir yol tikintisi Qusar rayonunda da yüksək səviyyədə icra olunur. Bununla yanaşı, Qusarın 11 kəndinin sakinlərini narahat edən və çoxsaylı müraciətlər daxil olan bir məsələ, Qusarın Həzrə–Sudur yolunun tikintisi ilə bağlıdır. Qeyd etdiyim yol strateji əhəmiyyətə malik olmaqla yanaşı, çoxlu kəndlərin olduğu, əhalinin sıx məskunlaşdığı bir ərazidə yerləşir. Qeyd etdiyim yol çox köhnəlib və payız-qış aylarında keçilməz olur. İqtisadiyyat və maliyyə nazirlərimizdən xahişim həmin yolun 2019-cu ilin investisiya proqramına salınaraq, yenidən qurulmasına kömək göstərilməsidir. Büdcə layihəsinə səs verəcəyəm, diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar! Mən də ilk növbədə büdcəni hazırlayan, başda hörmətli maliyyə naziri Samir müəllim olmaqla bütün kollektivə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm ki, çox təkmil şəkildə bir büdcə hazırlanıbdır. Əslində bu büdcə 2018-ci ilin aprelində keçirilən prezident seçkilərindən sonra yeni baxışlar, yeni inkişaf xətti, yeni yanaşma tərzini özündə əks elətdirir, o cümlədən yeni strukturların yaranması, yeni təyinatlar da bu büdcənin həm yerinə yetirilməsi, həm də orada olan məsrəflərin düzgün istifadəsinə böyük xidmət göstərəcək.

Burada həmkarlarım dedi, mən də onlara qoşulur, bir neçə fikirlərimi söyləmək istəyirəm. İlk növbədə qeyd etmək istədiyimi burada  xüsusi ilə  ürəkaçan hallardan biri odur ki, bir sıra rayonlar artıq özləri öz büdcəsini təmin edirlər. Mən hesab edirəm ki, o rayonları həvəsləndirmək lazımdır. Biz məsələn, bəzi strukturlar haqqında qərar qəbul etmişik ki, əgər cərimələr toplayırsa,  o cərimələrin

50 faizi həmin təşkilatın xeyrinə keçirilir. Mən hesab edirəm, əgər rayon öz büdcəsini yerinə yetirir, bir az da artıq toplayırsa, onda müəyyən faiz rayonun büdcəsində qalsın ki, rayonlar arasında bir yarış yaransın və o qalan büdcədən də sosial xərclərə sərf edə bilsin. Bu çox vacib elementlərdən biridir. Götürək ki, bizim iri şəhərlərimizin əksəriyyəti özü-özünü təmin edə bilsə, dövlət büdcəsinə kifayət qədər yüngüllük gətirər.

İkinci məsələ. Cənab Prezidentin apardığı iqtisadi siyasət nəticəsində çoxlu sayda tikilən binalar, xəstəxanalar, idman kompleksləri var. Bunları hansısa formada istifadəsiz saxlamaqdansa, istifadə edilməsi üçün ya sahibkarlara icarəyə verilməlidir, ya da hansı şəkildəsə işə salınmalıdır ki, büdcə üzərindən onların saxlanılmasına yönəldilən xərclər azalsın, əksinə həmin rayonun özünə müəyyən dərəcədə sərmayələr gətirsin.

Üçüncü məsələ. Burada ayrı-ayrı strukturların rəhbərləri və hörmətli maliyyə naziri də qeyd etdi ki, gələn il bələdiyyə seçkilərinin keçirilməsi üçün Mərkəzi Seçki Komissiyasına 54 milyon pul ayrılıbdır. Seçki ili olduğuna görə hesab edirəm, siyasi partiyalara da seçkinin əsas aparıcıları olmaları baxımdan, dövlət büdcəsindən vəsaitin artırılması məqsədəuyğun olardı. Çünki birbaşa hesabatlılıqdır və o siyasi partiyalar başqalarının əlinə baxmazdı, ancaq dövlət büdcəsindən aldığı vəsait hesabına öz seçki proqramını qurub, həyata keçirərdi.

Başqa bir məsələ, burada xam neftlə bağlı söhbət getdi. Artıq Azərbaycanda kifayət qədər neft müəssisələri var. Bu yaxınlarda mən şahidi oldum, Heydər Əliyev adına Bakı Neft Emalı zavodu tamamilə yenidən qurulubdur. Yeni məhsulların istehsalına başlayıbdır, o cümlədən yanında çox böyük bir mazut zavodu tikilibdir. Sumqayıtda

böyük bir kimya zavodu tikilibdir. Artıq biz nefti xammal şəkilində deyil, yəqin ki, eyni zamanda, istehsal olunmuş, ayrı-ayrı hazır məhsullar şəklində satacağıq.

Digər bir məsələ. Cənab Prezident, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi tərəfindən çoxlu sayda məktəblər tikilib. Keçən il də modul tipli məktəblər tikilib istifadəyə verilibdir. Builki büdcədə də nəzərə almaq lazımdır ki, harada həmin məktəblərin tikilməsinə ehtiyac varsa, orada tikilsin. Çünki  mətbuatda da qeyd olunur ki, hələ bəzi rayonlarda Azərbaycanın inkişaf tərzinə uyğun olmayan məktəblər var. Lazımdırsa, onları özəl şəkildə tikmək olar. Elə şərait yaratmaq lazımdır ki, özəl strukturlar tiksin, istifadəyə versin, o cümlədən də uşaq bağçalarını.

Bütövlükdə, büdcəyə səs verəcəyəm və deputat həmkarlarımı da səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hüseynbala Mirələmov.

**H.Mirələmov.** Hörmətli Sədr, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri və media nümayəndələri! Diqqətinizə çatdırmaq istədiyim məsələ tarixi abidələrimizin qorunması və saxlanması ilə bağlıdır. Azərbaycanın indiki durumunda bu məsələ xüsusi əhəmiyyət kəsb edir. Hamımıza məlumdur ki, ölkəmizə son vaxtlar turist axını çox güclənib. Azərbaycana gələn turistlərin sayı ildən-ilə çoxalmaqdadır. Onlar həm də Azərbaycanı öyrənmək, Azərbaycanın tarixi keçmişi ilə bağlı məlumatları əldə etmək istəyirlər. Bu baxımdan, tarixi abidələrin turist marşrutlarına daxil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bəs, abidələrin vəziyyəti necədir? Təəssüf ki, bu vəziyyət heç də ürəkaçan deyildir. Belə ki, xalqımızın tarixində xüsusi rolu olan abidələrin bərpası prosesi çox ləng gedir. Məşhur Çıraqqala abidəsi bərpa olunmayıb. Arxeoloqlar Şabran şəhərinin tarixi yerlərini və mənzərələri açsalar da,

orada bərpa işləri hələ də başlanmayıb. Qədim insan məskənləri kimi Qazaxda Damcılı, Lerikdə Büzeyir mağaralarının elmi bərpa muzeyləri kimi fəaliyyəti təşkil olunmayıb. Qeyd edim ki, qədim insan məskənləri sırasında Füzuli yaxınlığındakı Azıx mağarası, Cəbrayıldakı Divlər sarayı adlanan mağaralar var. Təəssüf ki, bu ərazilər hələlik işğal altındadır. Heç şübhəsiz, biz torpaqlarımızı gələcəkdə işğaldan azad edəcəyik və bu barədə daha geniş danışacağıq.

Gədəbəydə, Şəmkirdə, Şəkidə, Qəbələdə, Oğuzda, Balakəndə, Zaqatalada, Lənkəranda, Lerikdə, Astarada, Yardımlıda və Azərbaycanın digər yerlərində çox möhtəşəm abidələr var. Düşünürəm ki, bu abidələrin bərpası üçün kifayət qədər vəsait ayrılmalıdır. Abidələrin bərpası üçün ayrılan vəsaitlər heç də digər sosial xərclərdən az əhəmiyyətli deyil. 20 faiz torpaqları işğal altında olan ölkəmizdə düşmənə qarşı mənəvi mübarizə inadla və fasiləsiz aparılmalıdır.

Tarixi abidələr Azərbaycanın mənəvi pasportudur. Xalqımızın kimliyinin təsdiqidir, vətənin tarixi bizim keçmişimizdir. Diplomatlarımız beynəlxalq konqreslərdə Azərbaycan həqiqətlərinin təsdiqi kimi çox vaxt tarixi abidələrə əsaslanır, ayrı-ayrı abidələri sübut və dəlil kimi misal gətirirlər. Belə olduğu halda abidələrin bərpasının nə qədər vacib olduğunu başa düşmək çətin deyil.

Hörmətli deputat həmkarlarım, abidələr həm də tarix dərsliyidir. Yeni nəslin öz keçmişinə sadiq qalması üçün bu dərsliyi biz özümüzə də, qonaqlarımıza da olduğu kimi təqdim etməyi bacarmalıyıq. Mən Nazirlər Kabinetinin rəhbərliyindən və hörmətli maliyyə naziri Samir Şərifovdan xahiş edirəm ki, tarixi abidələrimizin qorunması və bərpası üçün direktiv sənədlər qəbul etsinlər və lazım olan

vəsaitin Mədəniyyət Nazirliyinə ayrılmasına kömək etsinlər.

Hörmətli deputat həmkarlarım, 2019-cu ilin büdcə zərfi mükəmməl bir maliyyə sənədidir. Bu sənəd möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ildən-ilə zənginləşən müasir, dünyəvi obrazını özündə ehtiva edir. Sonda bu sənədi hazırlayan insanlara, başda möhtərəm, hörmətli maliyyə naziri Samir Şərifov olmaqla minnətdarlığımı bildirirəm və bu sənədə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamilə Əliyeva.

**K.Əliyeva.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli hökumət üzvləri, dəyərli həmkarlar! Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də dövlət büdcəsinin sosial yönümlüyünün təmin edilməsi, əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi bir çox mühüm sosial proqramların reallaşdırılması istiqamətində dövlət büdcəsində müvafiq məbləğlərdə vəsait nəzərdə tutulmuşdur. 2019-cu il dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclər üçün 7 milyard 919,9 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2018-ci illə müqayisədə 797,5 milyon manat və ya 11,2 faiz çoxdur. Təqdirəlayiq haldır ki, 2019-cu ilin dövlət büdcəsində ali, orta ixtisas və ilk peşə təhsilli müəssisələrin tələbələri və şagirdlərinin, AMEA-nın magistrantlarının və doktorantlarının təqaüdlərinin məbləği, Azərbaycan Respublikası ali məktəbləri üçün prezident təqaüdlərinin məbləği, Prezidentin fərdi təqaüdünün və fəxri adlara görə təqaüdünün məbləğləri artırılmışdır. Sosial məsələlərlə yanaşı, hərbi, təhsil, səhiyyə məsələlərinə də çox həssaslıqla yanaşılmışdır.

Möhtərəm Prezident cənab İlham Əliyevin müəllifi olduğu iqtisadi islahatlar nəticəsində bu gün Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmışdır ki, artıq Azər-

baycan dünyada iqtisadi gücə çevrilmişdir. 2018-ci ilin ortalarında həm region, həm də bir sıra ölkələrin iqtisadiyyatında geriləmələr olmuş, milli valyutalar xeyli dəyərdən düşmüşdür. Lakin Azərbaycanda qurulmuş iqtisadi model nəticəsində nəinki azalma olmamış, hətta iqtisadi artım mövcud olmuşdur. 2017-ci ildə inflyasiya səviyyəsi 12,9 faizdən 2018-ci ildə 2,7 faizə düşmüş, Azərbaycan əhalisinin nominal gəlirləri təxminən 35 milyard manat olmuşdur. Azərbaycanın valyuta ehtiyatları artaraq 5,5 milyard manatdan çox olmuşdur. 2019-cu ildə ölkədə ümumdaxili məhsulun real iqtisadi artımı 3,6 faiz olmaqla, 81,9 milyard manat, o cümlədən qeyri-neft ümumdaxili məhsulun artımının 3,9 faiz olmaqla, 50,5 milyard manat təşkil edəcəyi gözlənilir. Bu isə böyük irəliləyiş deməkdir. Artıq Azərbaycanın iqtisadi artımı neft-qaz amilindən deyil, iqtisadiyyatın digər sahələrinin hesabına artmaqdadır.

Aqrar sahədə də böyük uğurlar qazanılmaqdadır. Artıq Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulları dünyanın 50-dən çox ölkəsinə ixrac olunur. Fəxrlə deyə bilərəm ki, təmsil olunduğum Zaqatala və Balakən rayonlarında emal olunan kənd təsərrüfatı məhsulları bir çox dünya ölkələrinə ixrac olunur və ölkə büdcəsinə valyuta gətirir. Ölkənin ixrac potensialının yüksəldilməsi, kənd təsərrüfat məhsulların istehsalı və emalı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların innovativ qabiliyyətinin artırılması, yüksək məhsuldarlığın əldə olunması, aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Bütün bu işlər möhtərəm Prezident cənab İlham Əliyevin 2017–2022 və 2018–2025-ci illər üçün dövlət proqramları ilə bağlı imzaladığı sərəncamların yerinə yetirilməsi istiqamətində görülən işlərin bir hissəsidir.

Son illərdə ölkəmizdə həyata keçirilən uğurlu siyasət

nəticəsində turizmin inkişafı istiqamətində mühüm layihələr icra olunmuş, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizm ölkə iqtisadiyyatının prioritet sahəsinə çevrilmişdir. Bu məqsədlə cənab Prezident tərəfindən imzalanmış sərəncam ölkə paytaxtından əlavə, regionların inkişafına və həmin bölgələrə də turistlərin cəlb olunmasına böyük şərait yaratmışdır. Bunu nəzərə alaraq, xahiş edərdim ki, Zaqatala və Balakən rayonlarına yerli və xarici turistlərin cəlb edilməsi üçün Zaqatala rayonundakı aeroportun fəaliyyəti bərpa olunsun.

Ölkəmizin ildən-ilə artan iqtisadi uğurlarının səbəblərindən biri də hər ilin sonunda müzakirə etdiyimiz dövlət büdcəsinin mükəmməl hazırlanmasıdır. Bu da cənab Prezidentin nazirlik və komitələrin qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsindən irəli gəlir. Mən də sonda bu büdcənin hazırlanmasında əməyi keçən hər bir kəsə öz minnətdarlığımı bildirir və deputat həmkarlarımı bu büdcəyə səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, hörmətli qonaqlar! Bu gün biz büdcəni müzakirə edirik. Təəssüf ki, vaxt azdır. 5 dəqiqə ərzində, əlbəttə, bu qədər geniş bir maliyyə sənədi haqqında əhatəli danışmaq mümkün deyil. Amma hər halda çalışacağam hökumət üzvlərinin diqqətini bəzi məsələlərə cəlb edim.

Hörmətli həmkarlar, hörmətli hökumət üzvləri, müəyyən sosial təbəqə və qruplar var ki, bir dövlət və cəmiyyət olaraq onların problemlərinə xüsusi diqqətlə yanaşmalıyıq. Onlara olan münasibət cəmiyyətimizin nə dərəcədə sağlam və mədəni olmasını şərtləndirir. Ona görə də ilk növbədə şəhid ailələrinə Prezidentin fərmanına uyğun olaraq

verilməli olan 11000 manatlıq birdəfəlik yardım, əvvəllər sığorta pulu almalarından asılı olmayaraq, hər bir şəhid ailəsinə verilməlidir. Bu gün 96 şəhid ailəsi səhər-səhər mənə məktubla müraciət ediblər və xahiş ediblər ki, onların müraciətlərini hökumət üzvlərinin diqqətinə çatdıraq. Hesab edirəm ki, hökumət, Allaha şükür imkanımız var, hər il şəhid ailələrinə ən azı 1000, 2000 manat bu tipli yardımlar edə bilər.

Digər bir məsələ, şəhid ailələri və Qarabağ əlilləri üçün mənzil tikintisidir. Bu məqsədlə 45,5 milyon manat vəsait ayrılıb. Eyni zamanda, qaçqınlar üçün mənzil tikintisinə 200 milyon manat vəsait ayrılıb. Bunların ikisi qədər, təqribən 244,4 milyon manat təkcə idman obyektlərinin tikintisinə ayrılıb. Mən hər dəfə bu məsələni qaldırıram ki, hökumət üçün prioritet nədir? Uzun illərdir mənzil növbəsində dayanan insanlar, onların çoxu yaşa dolub, hələ də mənzillə təmin oluna bilməyiblər, yoxsa yeni idman obyektlərinin tikintisidir? İnvestisiya proqramı çərçivəsində gələn il 114 obyektin təhvil verilməsi nəzərdə tutulur ki, bunların 60-ı da yeni obyektdir. Mən hesab edirəm ki, orada müəyyən ixtisarlar aparılmalıdır və bu vəsaitlər ən azı 2, yaxud 3 dəfə artırılmalıdır ki, biz qısa bir müddətdə nəhayət ki, bu insanları mənzillə təmin edə bilək.

Digər bir məsələ pensiyalarla bağlıdır. Gələn il nəzərdə tutulur ki, ölkədə orta aylıq pensiya 241 manat olacaq, orta aylıq əmək haqqı isə 641 manat. Keçən dəfə mən məsələ qaldırdım ki, pensiyanın həddi ən azı orta aylıq əmək haqqının 80 faizinə qədər qaldırılsın. Hörmətli Samir müəllim söylədi ki, dünyada bu 60 faizdir. Yaxşı, heç olmasa, 60 faiz həddinə çatdıraq. Ona görə ki, 241 manat pensiya həddindən artıq azdır.

Digər bir məsələ orta məktəb müəllimlərinin əmək

haqqı ilə bağlıdır. Ona görə ki, repetitorluq Azərbaycanda sosial gərginlik yaradan bir məsələdir. Ona görə ki, aztəminatlı ailələr uşaqlarını oxutmaq üçün repetitorlara xeyli pul xərcləyirlər. Əlbəttə hörmətli Ceyhun Bayramovun təhsil sistemində gördüyü işləri mən yüksək qiymətləndirirəm. Amma hesab edirəm ki, ali məktəblərə qəbul orta məktəbin buraxılış imtahanlarının nəticələrinə uyğun olaraq həyata keçirilməlidir. Bu halda biz repetitorluğun qarşısını ala bilər və xeyli dərəcədə insanların mənzil şəraitini yaxşılaşdıra bilərik.

Digər bir mühüm məsələ. Hesab edirəm ki, ümumiyyətlə, bu büdcə vəsaitləri çox azdır və bu az vəsaiti bölüşdürmək də, doğrudan da, xeyli dərəcədə çətindir. Bunun üçün biz iqtisadiyyatın inkişaf tempinin artmasına nail olmalıyıq. Əlbəttə vergi siyasətində son vaxtlar islahatlar aparılır, doğrudan da, çox təqdirəlayiqdir. Amma iqtisadiyyatı inkişaf elətdirmək üçün ilk növbədə iqtisadiyyata investisiya qoyulmalıdır. Dövlət investisiyaları hesabına biz iqtisadiyyatın artım tempini yüksək səviyyəyə qaldıra bilməyəcəyik. Bunun üçün hesab edirəm ki, Azərbaycanda Neft Fondundan böyük məbləğdə vəsait götürülməlidir, yerli banklarda saxlanılmalıdır. O vəsaitlər yerli banklarda saxlansa, həm bankların fəaliyyətinə bu öz töhfəsini vermiş olar, həm də düşünürəm ki, biz sahibkarların ucuz kreditlərə çıxışına nail ola bilərik.

Əlbəttə bu gün ölkədə manatın kursu sabitləşib, bu çox müsbət haldır. “Doing Business” üzrə Dünya Bankının hesabatına görə biz artıq 57-ci yerdən 25-ci yerə gəlmişik. Amma ölkəyə ciddi surətdə kapital qoyulmayacaqsa, düşünürəm ki, bunlar yetərli deyil.

Başqa, çox mühüm bir məsələ, mən hesab edirəm ki, bu həm də Naxçıvanla bağlı olan məsələdir. Oqtay müəllim,

vaxtım azalır. Bu barədə yəqin ki, mən gələn dəfə danışacağam. Naxçıvan özünün gəlirləri hesabına büdcənin cəmi çox az bir hissəsini, 21 faizini ödəyir. Biz bilirik ki, Azərbaycan Respublikasının Prezidenti demişdir ki, biz yerli icra başçılarının fəaliyyətinə, həmin rayonlara qoyulan investisiyalara görə, orada iqtisadiyyatın inkişaf səviyyəsinə görə qiymət verəcəyik. Amma hər il Naxçıvana biz dotasiyanı artırırıq və o dotasiya hesabına orda olan vəsaitlər xərclənir, amma iqtisadiyyatın durumu heç də ürəkaçan deyil. Ona görə də yəqin ki, mən ikinci oxunuşda bu məsələyə diqqət yetirəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Gövhər Baxşəliyeva.

**G.Baxşəliyeva.** Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Müzakirəyə təqdim olunmuş büdcə layihəsi düşünürəm ki, kifayət qədər yüksək səviyyədə hazırlanıbdır və mən onun lehinə səs verəcəyəm. 2019-cu ilin büdcə zərfi sosialyonümlü, investisiyayönümlü olaraq, düşünürük ki, ölkəmizin və xalqımızın yeni mərhələdə hərtərəfli inkişafını təmin edəcək. Ölkənin 2019-cu il və gələn 3 il üzrə iqtisadi və sosial inkişafının konsepsiyası və proqnoz göstəriciləri layihədə ətraflı verilmişdir və kifayət qədər reallığa əsaslanır. Bütün makroiqtisadi göstəricilər artmışdır. Mən sosial sahəni xüsusi qeyd etmək istərdim. İnsan kapitalının inkişaf etdirilməsi, əhalinin həssas qruplarının sosial təminatının gücləndirilməsi, sosialyönümlü siyasətin davamlılığının təmin edilməsi, sosial müdafiə və sosial təminat, məşğulluq, təhsil, səhiyyə, əhali sakinliyi və demoqrafiya, əmək miqrasiyası, gənclər siyasəti, idman, mədəniyyət, ailə, qadın, uşaq, qaçqınlar və məcburi köçkünlər üzrə dövlət siyasətini xüsusi qeyd etmək istərdim.

Konkret elm haqqında. Növbəti ildə elm xərcləri

bütövlükdə respublika üzrə 133,5 milyon manatdan bir qədər artıqdır. Bu da əvvəlki ilə nisbətən bir qədər çoxdur. Elmlər Akademiyasına isə konkret olaraq 89 milyon manata yaxın məbləğ nəzərdə tutulubdur. Bütün bunlarla bahəm mən aşağıdakı fikirlərimi də bölüşməyi, elmdəki bugünkü əsas problem haqqında burada danışmağı özümə borc bilirəm. Beynəlxalq təcrübəyə əsasən elm və texnologiyanın inkişaf vəziyyəti ölkənin inkişaf səviyyəsindən birbaşa asılıdır. Dünya təcrübəsində, əsasən, hər bir ölkədə elmi-tədqiqatlara ayrılan xərclər burada bu haqda artıq danışıldı, ümumi daxili məhsulun ən azı 2 faizini təşkil edir. Mənim önümdə bir sıra ölkələrdə elmi tədqiqat və araşdırmalara çəkilən xərclərin ümumi daxili məhsulda nisbəti və 239 ölkə sırasında elmin reytinqlərini əks etdirən cədvəl var. Mən, əlbəttə ki, Azərbaycanı ABŞ-la müqayisə edə bilmərəm. O, 1-ci yerdədir, yaxud 2-ci yerdə Çindir, üçüncü yerdə İngiltərədir və sair inkişaf etmiş ölkələrdir. Amma mən düşünürəm ki, biz Azərbaycan elmini bu gün Ukrayna ilə, yaxud Gürcüstanla müqayisə edə bilərik. Belə ki, bu reytinqdə Ukrayna 47-ci, Gürcüstan 82-ci yerdədir. O Gürcüstan ki, bir çox problemlər yaşayır. Azərbaycan isə çox təəssüf ki, 94-cü yerdədir. Bugünkü inkişafımızı, ölkəyə gələn neft gəlirlərini və aparılan islahatları nəzərə alaraq, düşünürəm ki, Azərbaycan mütləq bu məsələyə diqqət yetirməlidir. Elmi tədqiqatlara ayrılan maliyyə vəsaitinin ümumi daxili məhsulda xüsusi çəkisinin az olması elmi heyətin, elmi kadr potensialının azalmasına səbəb olur ki, bu da yüksək elmi nəticələrin alınmasına bu gün mənfi təsir edir.

Bu gün Azərbaycan elminin əsas problemi alimlərin məvaciblərinin aşağı olmasıdır. Doğrudur, möhtərəm Prezidentimizin fərmanları ilə son illər ərzində Elmlər

Akademiyası əməkdaşlarının maaşları bir neçə dəfə artmışdır. Son vaxtlar müxbir və həqiqi üzvlərin rütbə maaşları əhəmiyyətli dərəcədə artmışdır. Lakin açığını demək lazımdır ki, Akademiyada məhz elmi yaradan əməkdaşların bu gün məvacibləri aşağıdır. Kiçik elmi işçidən başlayaraq professora qədər onların məvacibləri bu gün günün tələblərinə cavab vermir. Mövcud məvaciblər hələ də elmin...

**Sədrlik edən.** Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Hörmətli hökumət nümayəndələri, hörmətli millət vəkilləri! Təxminən 7 ay əvvəl Prezident seçkilərindən sonra Nazirlər Kabinetinin yeni tərkibi formalaşıb. Möhtərəm Prezident İlham Əliyevin komandası yeni tərkibdə fəaliyyətə başlayıb və indi də bu fəaliyyət haqqında öz fikirlərimizi söyləyə bilərik. Fəaliyyət də fikrimcə, təqdirəlayiqdir. Elə sonuncu ayın statistikasını götürək. Neçə-neçə zavod və fabrik, texnopark, yeni su və elektrik stansiyaları, kurort kompleksləri cənab Prezident tərəfindən açılıb və açılmaqdadır. Mən, xüsusilə çoxmilli seçicilərimin adından cənab Prezidentə və hökumətimizə Bakı–Ələt–Astara magistral yolunun tam istifadəyə verilməsi münasibəti ilə dərin təşəkkürümü bildirmək istəyirəm. Bizim cənub regionumuzun böyük potensialı bu yolun reallaşması nəticəsində daha da sürətlə üzə çıxacaq və bu səfalı yerlərə turist axını birə on artacaqdır. Düzdür, bütün bu böyük quruculuq, infrastruktur işləri Prezidentin siyasi iradəsi və təşəbbüsü ilə həyata keçirilir. Lakin icraedici qüvvə məhz siz, hökumətin nümayəndələrisiz və buna görə mən sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz vergi sahəsindəki islahatları, saflaşdırma siyasətini xoş qarşılayırıq. İnanıram ki, bu siyasət iqtisadiyyatımızın ümumən sağ-

lamlaşdırılmasına gətirib çıxaracaq.

Mən təhsil sistemi barədə danışmaya bilmərəm. Orada başlanan və indi də davam edən islahatları dəstəkləyirəm. Orta məktəblərə müəllimlərin, direktorların təyinatında yaranan pozitiv dəyişiklikləri biz alqışlayırıq. Demək olar ki, neqativ hallar bu prosesdə inkar olunur. Bu da artıq öz nəticələrini verməkdədir. Bu gün müəllimlər öz üzərində işləyir, yeniliyə, müasirliyə can atırlar. Mən məktəb mühiti ilə yaxından tanış bir insan kimi tam məsuliyyətlə deyə bilərəm ki, ümumtəhsil məktəb mühiti tam dəyişib. Nəticədə bir çox dövlət ümumtəhsil məktəblərində təhsil prosesin daha düzgün və kreativ qurulur, nəinki bəzi özəl məktəblərdə. Hazırda Bakıda maraqlı proses baş verir. 5–10 il qabaq imkanlı valideynlərimiz özəl məktəblərə üstünlük verirdilərsə, hazırda dövlət məktəblərinə inam artır və oraya axın güclənir. Biz Səhiyyə Nazirliyində gedən zəruri islahatları, xüsusilə tibbi sığorta sahəsindəki addımları yüksək dəyərləndiririk və bu prosesin sürətləndirilməsini, nəticədə isə həkim ordusunun maaşlarının əhəmiyyətli dərəcədə yüksəldilməsini arzulayırıq.

Ümumiyyətlə, hansı sahəyə nəzər salsaq, hər yerdə inkişaf, yeni nəfəs, yeni islahatçı ruh hiss edirik və nəhayət bütün bu müsbət tendensiyalar bu günlərdə bizə təqdim edilən dövlət büdcəsi paketində öz əksini tapmışdır. Bu, böyük peşəkarlıqla hazırlanan, mümkün olan riskləri nəzərə alan bir sənəddir. Mən bununla əlaqədar Hesablama Palatasının rəyini də diqqətlə oxumuşam. Çox xahiş edərdim ki, bu çox dəyərli, peşəkar rəydə səslənən tövsiyələrə də bizim nazirliklərimiz daha diqqətlə əməl etsinlər və onları nəzərə alsınlar.

İcazənizlə, mənim 5–6 təklifim var, cəmi 1–2-sini səsləndirmək istərdim. Ölkəmizdə xeyriyyəçilik məqsədi ilə

idmançılara, mədəniyyətin inkişafı ilə bağlı hansısa layihələrə, xəstə insanların əməliyyatına və sair məsələlərə maliyyə vəsaiti ayıraraq sponsorluq edən insanların və özəl müəssisələrin vergi yüklərinin azaldılmasını, yəni onlara bu və ya digər formada müəyyən vergi güzəştləri nəzərdə tutulmasını istərdim. Bilirsiniz ki, belə güzəştlər bir sıra ölkələrdə mövcuddur. Bizdə isə fiziki və hüquqi şəxslər əksər hallarda xeyriyyəçilik etməkdən çəkinirlər, ya nədənsə ehtiyat edirlər. Ona görə də xeyriyyəçiliyi, sponsorluğu stimullaşdırmaq, məncə, lazımdır.

Digər bir məsələ. Orta məktəb müəllimlərinin yaş həddi məsələsinə yenə də qayıdılmasıdır. Hər il həm Təhsil Nazirliyinə, həm də biz deputatlara onlarla çox bilikli, təcrübəli, ən əsası isə enerjili müəllimlər müraciət edərək işlərini davam etdirmək istəklərini bildirirlər. Özü də bu insanların çoxu işlədikləri məktəblərdə hələ də cavanlara nisbətən əvəzedilməzdir. Xüsusilə də rusdilli məktəblərdə yuxarı siniflərdə dəqiq elmlər üzrə müəllim çatışmazlığı nəzərə çarpır. Sağ olsun Təhsil Nazirliyi, bu müraciətlərə, əsasən, ədalətlə yanaşır və onların yaş həddini artırır. Ona görə də bu yaş həddini heç olmasa, rəsmi qaydada 3 il artırsaq, məncə, düzgün olardı. Qalan təklifləri Allah qoysa...

**Sədrlik edən.** Sağ olun. Nizami Cəfərov.

**N.Cəfərov.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Bu büdcə əvvəlki büdcələr kimi, ənənəvi olaraq o qədər mükəmməl hazırlanıb ki, onun lehinə səs verməkdə tərəddüd etmək üçün, təbii ki, heç bir əsas yoxdur. Amma biz müəyyən arzularımızı, istəklərimizi deyirik. Bu günlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev Ağdamda görüşlərdə yenə də dil məsələsinə, dilin saflığı ilə bağlı məsələlərə xüsusi diqqət

yetirdi. Xeyli müddət bundan əvvəl eyni söhbətlər Ağstafadakı görüşlərdə də olmuşdu. Bu müddət ərzində xeyli sənədlər qəbul olunub, dövlət dil proqramı bu gün işləyir. Bu yaxınlarda cənab Prezidentin dövlət dilinin saflığının qorunması və inkişaf etdirilməsi haqqında yeni fərmanı oldu. Orada ən mühüm cəhətlərdən biri budur ki, Dövlət Dil Komissiyasının nəzdində ayrıca monitorinq mərkəzi yaradıldı. Bu, dövlət büdcəsindən maliyyələşəcək bir mərkəzdir. İlk dəfə olaraq belə bir addım atıldı. Ona görə də mən, əlbəttə, dilçilərimizin adından cənab Prezidentə təşəkkür edirəm. Bunun da, təbii ki, maliyyə təminatı var. Elə bilirəm ki, bu qurum daha çox, böyük işlər görəcək.

Dil hər bir xalqın, hər bir dövlətin xüsusi bir atributudur və biz dilimizi qorumaq üçün, əlbəttə, bu işləri görməliyik. Çox yaxşı haldır ki, ümummilli liderimizin vaxtından başlayan dövlət dil siyasəti bu şəkildə davam edir. Onun ən mühüm təzahürlərindən biri bu gün bizim Azərbaycan parlamentində çox aydın bir dillə qanunlarımızı qəbul etmək, müzakirə etmək, müəyyən nəticələrə gəlmək imkanlarımızın mövcudluğudur. Bununla yanaşı, mən çox istərdim ki, bizim Maliyyə Nazirliyimiz lüğətlərin, qrammatika dərsliklərinin hazırlanması üçün müəyyən maliyyə vəsaiti ayırsın. Bu sahədə bizim problemlərimiz var. Bu sahə çox ciddi şəkildə nəzarətdə olmalıdır. Monitorinq keçirmək, əlbəttə, çox vacibdir, çox əsasdır, ancaq o işlər də görülməlidir. Özü də monitorinq konkret olaraq elə sahələri əhatə edir ki, məsələn, kütləvi informasiya vasitələrinin, internet resurslarının, reklam daşıyıcılarının dilini ki, orada bizim böyük, ciddi problemlərimiz var. Yəni bu sahələr artıq dövlət səviyyəsində monitorinqlə əhatə olunur. Bununla yanaşı, inkişaf üçün elə bilirəm ki, maliyyə ayrılmalıdır və dediyim kimi, bizim

dilimizin əsasında duran lüğətlər, qrammatika vəsaitləri, sıravi şəkildə yox, ən yüksək səviyyədə hazırlanmalıdır.

Bu işlərlə daha çox Milli Elmlər Akademiyası məşğul olur. Bizim bugünkü Milli Elmlər Akademiyamız öz inkişafına görə nəinki 20, heç 10 il bundan qabaqkı Akademiya deyil. Əgər beynəlxalq qiymətləndirmə sənədlərinə baxsaq, görərik ki, Akademiyada ən müxtəlif sahələrdə çox böyük inkişaf özünü göstərir. Ona görə mən istərdim ki, həm kadr hazırlığı, həm də deyilən işlərin görülməsi ilə bağlı Milli Elmlər Akademiyasının büdcəsi nə qədər mümkündürsə, o qədər artırılsın. Buna bizim ehtiyacımız var. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa Qasımlı.

**M.Qasımlı.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Təqdim edilən büdcə layihəsi cənab Prezidentimizin müəyyənləşdirdiyi, ölkəmizin ümumi inkişaf strategiyasının tərkib hissəsi olduğundan ona səs verəcəyəm. Hesab edirəm ki, ölkəmizin inkişafının ən başlıca göstəricilərindən biri özünü maliyyələşdirən, dövlət büdcəsindən asılı olmayan rayonlarımızın sayının artmasıdır.

Hörmətli Oqtay müəllim, bəzi konkret təkliflərimi tezis olaraq söyləmək istəyirəm. Hesab edirəm ki, büdcəni tərtib edənlər, ümumiyyətlə, sanki ölkəmizdə neft və qaz yoxmuş kimi, tərtib etməlidirlər. Hər bir ölkənin inkişafı elm və təhsillə bağlıdır. Son illərdə dövlət başçısının qayğısı nəticəsində bu sahədə böyük inkişaf var. Amma büdcəni tərtib edənlərdən xahiş edirəm ki, Azərbaycan elminə nə qədər mümkündürsə, o qədər vəsait ayırsınlar. Bu çox vacibdir. Xüsusilə Akademiya elminə. Təfsilatı ilə söyləmək istəmirəm. Biz universitetlərimizi gücləndirməliyik. Universitetlərimizə xaricdən tələbələr gəlməlidir, bu, həm vəsait gətirəcək, həm də onlar Azərbaycanın təbliğatçıları olacaqlar.

Bu gün Azərbaycanda mövcud olan banklar Azərbaycan dövlətinin qanunları ilə yaranıb və fəaliyyət göstərir. Amma burada oturan hər bir şəxs açıq-aydın bilir ki, bu gün banklar Azərbaycanda vətəndaşla dövlət arasında uçurum, sosial gərginlik yaradan və siyasi hakimiyyəti təhdid edən ünsür halına gəlib. Mən hesab edirəm ki, hökumət bu sahədə qəti tədbirlər görməlidir. Bir çox özəl banklara belə özbaşınalığı vermək olmaz. Bunun çox ağır nəticələri ola bilər.

Üçüncü, şəhid ailələrinə cənab Prezidentimizin, Birinci vitse-prezidentin qayğısı məlumdur. Şəhid ailələri ilə bağlı məsələni həll etmək lazımdır. Bu, sadəcə, maliyyə məsələsi deyil, dövlətçilik, mənəviyyat, vətənçilik, Azərbaycan məsələsidir. Bu məsələdə gərginlik yaratmağa ehtiyac yoxdur.

Növbəti söyləyəcəyim məsələ vətəndaşlarımızın ələbaxımlıqdan qurtarmasıdır. Biz vətəndaşlarımız arasında özünüməşğulluq proqramının təşviq edilməsinə geniş yer verməliyik. Onlar həm özlərini təmin edəcək, həm də bazara məhsul çıxaracaqlar və heç bir sosial gərginlik də olmayacaq. Bu, çox vacib məsələdir.

Başqa bir söyləyəcəyim məsələ nədir? Hər hansı bir qurumun əmək haqqının artırılmasını cərimələrlə əlaqələndirməyin nə dərəcədə faydalı və ziyanlı olmasını biz oturub düşünməliyik. Bütün əmək haqları dövlət büdcəsindən getməlidir. Mən dövlət orqanlarını deyirəm. Əgər bir qurumun əmək haqqı, maaşı bir məmurun yazdığı cərimə ilə artırsa, bu, böyük sosial gərginlik yaradır və vətəndaşı dövlətdən, hakimiyyətdən narazı salır. Biz bu barədə düşünməliyik. Mən hesab edirəm ki, bu barədə bizdə çox ciddi islahatlar getməlidir.

Seçildiyim Yardımlı, Masallı rayonları ilə bağlı olan

bir neçə məsələni də söyləmək istəyirəm. Son illərdə cənab Prezidentimizin diqqəti nəticəsində Yardımlı və Masallıda görülməyən işlər görülüb. Heç xəyala gəlməyən layihələr həyata keçirilib. Amma hökumətdən xahiş edirəm, Yardımlı şəhərinə bitişik kəndlərin, Odurakəran, Anzov, Hamarkənd, – konkret söyləyirəm, – Abbasabad, Solqard, Zenqaran kəndlərinin qazlaşdırılmasını həyata keçirsinlər. Həm meşələrin qırılmasının qarşısı alınacaq, həm də bulaqlarda su olacaq və bu, bir çox başqa məsələləri həll edəcək. Özü də həmin kəndlər ən ucqar kəndlərdir, asfalt yol çəkilib, nə üçün qaz çəkilməsin?

Masallının məktəblərinin təmiri və inşası üçün nə qədər imkan varsa, əlavə vəsait ayırmaq lazımdır. Hesab edirəm ki, büdcə layihəsi ölkəmizin gələcək inkişafını təmin edəcək. Səs verəcəyəm və hörmətli həmkarları da ona səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Rafiq Məmədhəsənov.

**R.Məmmədhəsənov.** Hörmətli cənab Sədr, hörmətli deputatlar, hökumət üzvləri və media nümayəndələri! Mən çalışacağam bir az lakonik danışım. 2019-cu ilin dövlət büdcəsi hazırlanarkən sosial yönümlülük prioritet olaraq götürülmüşdür. Yəni 2019-cu ilin dövlət büdcəsi sosialyönümlüdür və dünyada gedən iqtisadi böhran nəzərə alınmaqla hazırlanmışdır. Gələn ilin dövlət büdcəsi xərclərində sosialyönümlü xərclər üçün 2018-ci illə müqayisədə 11,2 faiz artıq vəsait nəzərdə tutulmuşdur. Ümumiyyətlə, 2019-cu ilin dövlət büdcəsi xərclərinin tərkibində sosialyönümlü xərclər 32 faiz təşkil edir ki, bu da ümumi büdcənin təxminən üçdə biridir. Bu büdcədə elm, təhsil, səhiyyə, sosial müdafiə, sosial təminat, mədəniyyət, incəsənət və sair bu kimi sahələrə ayrılan vəsaitlərin həcmi bütövlükdə dövlət büdcəsi xərclərinin 25,7 faizini təşkil

edir. Bu da, ölkə Prezidenti cənab İlham Əliyevin bu sahələrə olan diqqətinin bariz nümunəsidir. Təhsil xərcləri 2018-ci illə müqayisədə 11,8 faiz çoxdur. Büdcədə səhiyyə xərclərinin payı dövlət büdcəsi xərclərinin tərkibində 4,2 faiz təşkil edir. Səhiyyə xərcləri üçün ayrılan vəsaitin 231,9 milyon manatı məqsədli proqramların yerinə yetirilməsinə sərf olunacaqdır. Mən MDB-də ikinci belə dövlət tanımıram ki, bu qədər dövlət proqramı olsun, buraya şəkərli diabet, xroniki böyrək çatışmazlığı olan xəstələr, hemofiliya, onkoloji xəstələr və sair, hamısı aiddir. Şəkərli diabet xəstələrinin müalicəsi üçün 44,3 milyon manat, xroniki böyrək çatışmazlığı xəstələrinin müalicəsi üçün 30 milyon manat ayrılmışdır. Burada bir məqama diqqət yetirmək lazımdır ki, xroniki böyrək çatışmazlığı olan xəstələrin, yəni hemodializə gedən xəstələrin çoxu şəkərli diabetin ağırlaşması kimi qeydiyyata düşmüşlər. Ona görə də, mümkünat daxilində, xahiş edirəm, şəkərli diabetin müalicəsinə daha çox vəsait ayrılsın ki, belə fəsadlar ortaya çıxmasın. Burada digər bir maraqlı məqamı qeyd etmək yerinə düşər ki, dünyada, eləcə də ölkəmizdə şəkərli diabet və xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların sayının artdığını və istifadə olunan dərman vasitələrinin xaricdən alınmasını nəzərə alaraq, növbəti ilin dövlət büdcəsində şəkərli diabet və xroniki böyrək çatışmazlığı xəstələrinin müalicəsi üçün əlavə 15 milyon manat nəzərdə tutulmuşdur. Bu, çox yaxşı haldır.

Deputat seçildiyim Gədəbəy, Tovuz rayonları ilə bağlı mən hökumətdən xahiş edirəm ki, Tovuz rayonunun dağ kəndlərinin qazlaşdırılması məsələsinə baxılsın. Bu problem bu gün də qalır. Halbuki, cənab Prezident göstəriş vermişdi ki, 2013-cü ilə qədər bu problem həll olunmalıdır.

Rica edirəm nəzərə alasınız ki, Tovuz rayonu da Gədəbəy rayonu kimi sərhəd rayonudur. Ona görə də xahiş edirəm bu məsələyə diqqət yetirəsiniz.

Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, 2019-cu ilin dövlət büdcəsi sənədi sanballı hazırlanmışdır. Bu sənədi hazırlayanlara dərin təşəkkürümü bildirirəm və büdcə layihəsinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Naqif Həmzəyev.

**N.Həmzəyev**. Hörmətli cənab Sədr, dəyərli hökumət nümayəndələri, hörmətli millət vəkilləri, KİV nümayəndələri, xanımlar və cənablar! Bildiyimiz kimi, ulu öndərimizin bizlərə əmanət etdiyi müstəqil Azərbaycanımız möhtərəm cənab Prezidentimizin rəhbərliyi altında uğurla inkişaf etdirilir və bütün sahələrdə Azərbaycan hər il irəliyə doğru addım atır. Xüsusilə son dövrlərdə, son illərdə həyata keçirilən islahatlar artıq özünün müsbət nəticəsini verməkdədir. Təhsil sahəsində, biz sevinirik ki, gənclər arasında müəllim peşəsinə maraq günü-gündən artır, müəllimlərin maaşlarında qismən də olsa artım müşahidə olunur. Vergi sahəsində də şəffaflığa nail olunub. Nağdsız ödənişlər kütləvi hal alır. Bu da sahibkarlarımızı sevindirir və inanıram ki, vergi sahəsində bu islahatlar davam etdiriləcək və növbəti ildə də biz bu sahədə digər uğurların şahidi olacağıq. ASAN xidmət mərkəzlərinin sayının artması da, elektron dövlət layihəsinin uğurla həyata keçirilməsi də hər birimiz tərəfindən sevinclə qarşılanır. Ərzaq təhlükəsizliyi sahəsində, həqiqətən də, uğurlu addımlar atılıbdır və inanırıq ki, hər kəs üçün vacib olan bu sahədə növbəti ildə də çox qəti addımlar atılacaq və insanların gələcəyi üçün nə lazımdırsa həyata keçiriləcəkdir. Tibbi sığorta sahəsində, inanıram ki, növbəti illərdə bütün Azərbaycan əhalisinə tibbi

sığorta tətbiq eləmək mümkün olacaq. Həqiqətən də, bu çox vacib sahələrdən biridir.

Mən ümumilikdə, məndən öncəki natiqlərin Azərbaycanın uğurları barədə kifayət qədər danışdıqlarını nəzərə alaraq, təkrarçılığa yol vermək istəmirəm. Qısaca olaraq, bəzi məsələləri siz, dəyərli hökumət nümayəndələrinin və millət vəkillərinin nəzərinə çatdırmaq istəyirəm. Son dövrlərdə dövlət proqramları çərçivəsində bir sıra yeni uşaq bağçaları tikilib və köhnələri əsaslı təmir olunub. Amma hələ ki, bu tərbiyə ocaqları tələbatı tam qarşılaya bilmir. Belə ki, mövcud bağçaların sayı uşaqların sayından təəssüflər olsun ki, azdır və nəzərə alaq ki, şəhərlərdə yaşayan valideynlər, gənc ailələr öz uşaqlarını bağçalara qoymalı, işləməlidirlər. Ancaq təəssüf ki, bağçalarda kifayət qədər yerlər olmadığı üçün onlar bu arzularını reallaşdıra bilmirlər. Ümumilikdə isə, bu problemin həlli mümkündür. Əgər biz mövcud bağçaların potensialına baxsaq, görərik ki, orada 12–15 qrup fəaliyyət göstərə biləcəyi halda, yalnız 6–7 qrup fəaliyyət göstərir. Mən hökumət nümayəndələrindən xahiş edirəm ki, mümkündürsə, heç olmasa, Gəncə şəhərindəki uşaq bağçalarının hər birində bir-iki əlavə qrupların açılması üçün vəsait ayrılsın. İnanıram ki, bununla seçicilərin xahişlərini müəyyən dərəcədə yerinə yetirə bilərik.

İkinci məsələ, bildiyiniz kimi, Gəncə şəhəri Gəncə çayı vasitəsilə iki hissəyə ayrılır. Gəncə çayı üzərində dörd körpü salınıb ki, bunlar da sahillər arasında nəqliyyatın və piyadaların keçidini təmin edir. Ancaq Gülüstan yaşayış massivi ərazisində yaşayan əhali Gəncə şəhərindən çayın digər sahilinə getmək üçün ən azı 8–10 km məsafə qət etməlidirlər. Bu, həm əlavə məsafədir, həm də şəhərin mərkəzində böyük sıxlığa səbəb olur. Düşünürəm ki, əgər

biz Gülüstan yaşayış massivində yeni körpünün salınmasına nail olarıqsa, bu problemi də aradan qaldıra bilərik. Onu da qeyd edim ki, bu, mənim seçicilərimi narahat edən ən böyük problemlərdən biridir. Bir də müstəqilliyin bərpası dövründən bəri Gəncə şəhərində bütün növ obyektlər tikilsə də, ancaq körpü inşaatı həyata keçirilməyib. İnanıram ki, bunu da hökumət nümayəndələri nəzərdə saxlasalar çox yaxşı olar.

Digər bir məsələ bizim əhaliyə sağlam həyat tərzinin təbliği ilə bağlıdır. Bilirsiniz ki, Azərbaycan müstəqillik qazandıqdan sonra dövlətimiz tərəfindən demək olar ki, əksər şəhər və rayonlarda olimpiya kompleksləri, idman sarayları tikilib və bu iş sistemli olaraq davam etdirilir. Heydər Əliyev Fondu tərəfindən mütəmadi olaraq Bakı və Gəncə şəhərində marafonlar keçirilir. Gənclər və İdman Nazirliyi tərəfindən də kütləvi aksiyalar, idman yarışları, sağlamlıq festivalları təşkil edilir. Ancaq bütün bunlara baxmayaraq, etiraf etmək lazımdır ki, əhalini kütləvi olaraq sağlam həyat tərzinə yönləndirmək hələ də tam həyata keçirilməyib. Bunun üçün biz bütün məhəllələrdə idman qurğularının inşa olunmasına nail olmalıyıq. Təklif edirəm ki, əgər mümkündürsə, bununla bağlı Gənclər Fonduna və yaxud şəhər icra hakimiyyətinə əlavə vəsaitlər ayıraq ki, onlar birlikdə hər məhəllədə idman qurğularının tikilməsini həyata keçirə bilsinlər. Yaxud da əgər mümkündürsə, sahibkarlara biz müəyyən vergi güzəştləri həyata keçirsək, inanıram...

**Sədrlik edən**. Sağ olun. İlham Məmmədov.

**İ.Məmmədov**. Təşəkkür edirəm, cənab Sədr. Hörmətli sədarət, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! 2019-cu ilin dövlət büdcəsi zərfinə aid olan sənədlərlə tanışlıq onu göstərir ki, növbəti il üçün uğurlu və

optimist bir büdcə layihəsi hazırlanmışdır. Təbii ki, burada Hesablama Palatasının 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsinə verdiyi rəyi də xüsusi qeyd etmək istəyirəm. Bu rəydə büdcə layihəsinin ən kiçik parametrləri üzrə aydın, müqayisəli təhlillərin verilməsi büdcəyə daha dəqiq qiymət verməyimizə şərait yaratmışdır. Büdcənin gəlirlərinin formalaşması üçün Vergilər Nazirliyinin builki proqnozları əsasında yeni, innovativ formada yanaşma da, büdcənin tam dolğunluğunu şərtləndirmiş və eyni zamanda, Dövlət Statistika Komitəsinin artıq yeni dövrün çağırışlarına uyğun hazırladığı mükəmməl hesabatlar da büdcənin gəlir və xərclərinin professionallığını şərtləndirən əsas amillərdən biri olmuşdur. Amma təbii ki, bütün bunlarla yanaşı, ölkəmizin 2019-cu il üçün uğurlu büdcəsinin formalaşmasına təsir edən ən əsas amil ölkəmizin Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü, cəsarətli, ağıllı daxili və xarici siyasətin nəticəsidir.

2015-ci ilin sonlarından başlayaraq neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, heç bir, istər sosial, istərsə də infrastruktur layihələr təxirə salınmamışdır. İqtisadi, sosial islahatlar daha da dərinləşib, mahiyyətcə yeni bir xarakter almışdır və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasətinin əsas istiqaməti sosial siyasət, insanların sosial rifah halının yaxşılaşmasıdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın sosial, mənəvi, mədəni layihələri sosial siyasətə yeni bir çalar vermişdir və bu layihələr artıq dünyada yeni bir örnəyə çevrilmişdir. Cənab Prezidentin güclü siyasi iradəsi və davamlı dəstəyi ilə aparılan kompleks iqtisadi islahatlar dövlət-biznes tərəfdaşlığına qarşılıqlı inamı ilbəil artırır və nəticə olaraq son vaxtlarda qeyd olunduğu kimi, “Doing

Business" hesabatının bütün indikatorlarına görə Azərbaycan dünyanın ən çox islahatlar aparan ölkəsi elan olunmuşdur. Aydındır ki, bildiyimiz kimi, bu "Doing Business" hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən ən əsas reytinq göstəricisidir. Bu, imkan verir ki, qətiyyətlə deyək ki, Azərbaycanın uğurlu gələcəyi cənab Prezidentin müəyyən etdiyi yoldur. Mən hesab edirəm ki, bu islahatların dərinləşməsi nəticəsində gələcəkdə elə bu kimi beynəlxalq reytinq hesabatlarına Azərbaycanda aparılan, məsələn, "ASAN xidmət" kimi, Vergilər Nazirliyinin gələn il biznes mühitinin şəffaflaşması üçün atacağı addımları bir indikator kimi daxil edəcəklər. Təbii ki, bu bizim arzumuzdur.

Büdcənin sosial yönümlülüyü barədə millət vəkillərimiz bir çox sahələrə toxundular və mən də sosial layihələrdən, xüsusən səhiyyə sahəsindəki layihələrdən bəhs etmək istəyirəm. Builki büdcəmizin əsas prioritetləri və diqqətçəkən məqamı məhz səhiyyə sahəsinə 1 milyard 48 milyon vəsaitin ayrılmasıdır. Bu, həm tibbi sığortanın fəaliyyətə başlaması üçün düşməsi görüləcək tədbirlərə yeni bir stimul olacaq, həm də dövlət proqramlarının uğurla həyata keçirilməsinin daha davamlı olacağının bir şərtidir. Heç də təsadüfi deyil ki, şəkərli diabet və böyrək çatışmazlığından əziyyət çəkən insanların müalicəsi üçün 15 milyon vəsait ayrılmışdır və bu, alqışa layiq bir haldır. Məndən əvvəl çıxış edən həmkarlarım da bunu xüsusi qeyd etdilər.

Hörmətli millət vəkilləri, dərman vasitələri ilə yanaşı, layihədə bir maddə də var, dərman xərclərinin qeyri-proqramları, burada 64,1 milyon manat vəsait nəzərdə tutulub. Bu keçən ildəkindən 10 milyon artıqdır. Amma nəzərə alaq ki, bu gün Azərbaycanda həyata keçirilən ən mürəkkəb

əməliyyatlardan, orqan köçürmələrindən sonra lazım olan dərman vasitələri, psixotrop dərmanlar imtiyazlı xəstələrə məhz elə bu fonddan, bu vəsaitdən ayrılır. Mən Samir müəllimdən xahiş edərdim ki, bu vəsait haradasa, 70, 80 milyona çatdırılsa, hesab edirəm bütünlüklə əhatə edə bilər.

Öz təmsil olunduğum bölgə ilə bağlı. Xahiş edərdim ki, növbəti ilin büdcəsində, təbii ki, imkan verə biləcək bir həddə 14 çoxmənzilli binanın qəzalı vəziyyətdə olanlarının təmir olunması, 180 ailənin üzləşdiyi problemin aradan qaldırılması üçün vəsait ayrılardı. Büdcəmizə uğurlar arzu edirəm, hesab edirəm ki, cənab Prezidentin siyasəti uğurla həyata keçiriləcəkdir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən**. Çox sağ ol. Zahid müəllim birinci yazılmışdı, alınmadı. Ürəyində qalmasın, bugünkü çıxışları sənin çıxışınla bitirək. Mən hesab edirəm ki, sabah günün birinci yarısı da büdcəyə baxarıq, sonra o biri məsələlərə keçərik. İndi buyursun Zahid Oruc.

**Z.Oruc**. Çox təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar, hörmətli qonaqlar! Ədalət hissi olan hər kəs qəbul edir ki, Azərbaycan Prezidenti strateji qərarlarla ölkəsinə milyardlar qazandırmağı bacarır. Nəzərdə tutulan transmilli layihələrin reallığa çevrilməsi, məhz onun iradəsinin məhsuludur. Lakin onu da açıq demək lazımdır ki, İlham Əliyev son 15 ildə ən çox hökumətdə təmsil olunan müəyyən adamlardan zərbə alıb. Millətin övladlarını səngərdə düşmənə qarşı təşkil eləyən, sərt geosiyasi döyüşlərdən öz ölkəsini qoruyan bir lider onun siyasətini qeyd-şərtsiz yerinə yetirməyə borclu olan adamların bəzən aşkar xəyanətinin, acgözlüyünün və dövlətçilik məsuliyyətlərini başa düşməmələrinin zərbələrinə məruz qalıb. Son 3 ildə vəzifədən kənarlaşdırılan bir neçə şəxsə məhz bu kontekstdən yanaşmağın tərəfindəyəm.

İndiki hökumət sadə və əlçatan insanlardan təşkil olunub. Sıralarında bir neçə parlament üzvünün də yer aldığı Nazirlər Kabineti aparıcı ölkələrin iş prinsipi ilə işləməyi bacaran insanlardan ibarətdir. Yetər ki onlar etimadı doğrultsunlar, sələflərinin səhvlərini təkrarlamasınlar. Deməli bizə yaxşı tərtib olunan və şəffaf icra olunan büdcə ilə yanaşı, mədəni məmur korpusu, peşəkarlığı ilə, hesabatlılığı ilə seçilən hökumət lazımdır.

İkincisi, məmurların iqtisadiyyatda aktiv iştirakının aradan qaldırılması Prezidentin xalq iqtisadiyyatı qurmaq məramından xəbər verir. Artıq "məmur biznesi" termininin çəkisi azalır. Nə qədər qəribə də olsa, son üç ildə devalvasiyanın ziyanları ilə yanaşı, müsbət bir tərəfi də müşahidə olunub. Asan pullarla, büdcə vəsaitləri ilə işləyən dövlət strukturları və onların yaxın çevrəsində yaradılmış biznes qurumlarının meydanı daralır. Ona görə də formal tender prosedurları, şişirdilmiş rəqəmlərlə işləyən podratçı qurumlar və nazirliklərin ətrafındakı iş adamları təcrübəsindən imtina eləmək lazımdır.

Üçüncüsü, son 3 ildə demək olar ki, hökumətə o, təkrarçı və bürokratik komitə və qurumlardan xilas olmağa kömək edir. Artıq Azərbaycanda da əhalinin 100 min nəfərinə düşən məmur sayı, büdcə təşkilatarından maliyyələşənlərin faizi normallaşmağa doğru gedirdi. Amma bu il yenidən şişən aparatların şahidi oluruq. Hökumətin borcu odur ki, məşğulluğu kənd təsərrüfatında, sənayedə, sürətlə inkişaf edən informasiya texnologiyaları sahəsində yaratsın, nəinki büdcə ştatlarını artırsın.

Dördüncü, regionların 33-ü gələn il büdcədən asılılığını aradan qaldıracaq. Bu, yaxşı hadisədir. Deməli, regionlara qoyulan vəsaitlər özünü doğruldur. Yerdə qalan rayonlara 840 milyon manat vəsait ayrılacaq. Bununla belə, indiyə

qədər regionlarda açılan zavod və fabriklərin heç də hamısı bazar iqtisadiyyatının sərt rəqabət tələblərinə tab gətirməyiblər, bəziləri yarım gücü ilə işləyirlər, bəziləri tamamilə sıradan çıxıbdır. Bir neçə gün əvvəl Quba rayonunda olanda insanların tonlarla almalarının çürüdüyünü ürək ağrısı ilə gördüm. Bu avtomatik o deməkdir ki, bir rayon üzrə bu min tonlarladır, deməli insanlar bu gəlirdən də məhrum olurlar. Əvəzində Bakının bütün yerlərində, o cümlədən respublikamızın digər ərazilərində İrandan, bəzən Afrikadan gələn qurudulmuş alma, armud, digər meyvələrin şirəsi, sirkəsi və sair bazarı tutur. Ekoloji məhsullar süfrəmizdən qırağa çıxdıqca xəstəxanaların pasiyentləri artır. Ona görə, əlbəttə, təklif edirəm, hökumət indiyədək regionlarda açılan müəssisələrin yararlılıq dərəcəsi və istehsal imkanları haqqında müfəssəl bir hesabat hazırlasın, onu dövlət başçısına təqdim etsin və Milli Məclisdə geniş müzakirələri aparılsın.

Şəhid ailələri ilə bağlı burada hər kəs məsələlərə toxunub. Xatırlatmaq istəyirəm ki, ölkə rəhbəri prezident seçkilərindən sonra ilk qərarını məhz bu məsələ ilə bağlı verib və sübut edib ki, şəhidlər bu dövlətin məhək daşıdır və bu, ilahi qərardır, müqəddəs mənaya malikdir. Onu müvafiq qurumlar da elə yerinə yetirməlidir.

Səlim Müslümov, artıq sabiq nazirdir, amma onun əməlləri qanundankənar elan olunmayıb, gətirəcəyim sitatı kimsə şübhə altına ala bilməyəcək. Səlim müəllim fərmanın dərcindən bir gün sonra deyir: “fərman 8800 ailəyə tətbiq olunacaq”. Deməli, buna qədər belə bir hesablama aparılıb. Əvəzində sığorta qurumunun yaşlı bir işçisi, mən onun yaşına işarə etmirəm, minlərlə şəhid ailəsinin qabağına iki dənə nimdaş dəftərlə çıxıbdır. O boyda qurum bu on illər ərzində informasiya texnologiyalarına

şəhidlərin tarixçəsini köçürə bilmir və əvəzində deyirlər ki, guya arxiv yanıb. Millətin tarixinin ayrılmaz hissəsi olan şəhidlərin tərcümeyi-halı necə yana bilər? Başqa bir sitat gətirmək istəyirəm həmin o nimdaş dəftərdən. Deyirlər ki, ana yeddisi çıxmamış oğulunun varisi olaraq gəlib vəsait alıb. Yaxud iki, yaşlı nənə və baba nəvələri üçün hələ qırx mərasimi çıxmamış, dərdi soyumamış gəlib o vəsaiti alıb. Adicə çəkilən imza bunun saxta olduğunu sübut edir. 90 yaşlı baba sanki Donald Trampın məlum kəhkəşan imzasını çəkibdir.

İndi də hüquqi varis məsələsini ortaya atıblar. Halbuki sadə vətəndaş belə düşünür ki, Londonda saray həbsxanasında olan Zamirə Hacıyevanın dəbdəbəyə xərclədiyi 130 milyon manatla 1988–1997-ci illərin bütün şəhidlərinin haqqını vermək olardı.

Büdcə müzakirələrində başqa bir məsələyə toxunmaq istəyirəm. Badamdar ərazisindəki sürüşmə ilə bağlı. Bu, tikinti normaları, vergi orqanlarının məsuliyyəti məsələsini gündəmə gətirir. Ölkə başçısı bu məsələ ilə bağlı müzakirədə çox ciddi iradlarını söyləmişdi. İndi tələb olundu ki, Tikinti Arxitektura Komitəsi qoy həmin o keçmiş səhvləri və cinayətləri aradan qaldırmaq üçün iradə göstərsin, birinci növbədə Bakının Baş planını ortaya qoysun. Sürüşmənin yaratdığı gərginlik təkcə bir rayona deyil, bütövlükdə paytaxtın ab-havasına təsir eləyir. İnsanlar ekrandan müşahidə edirlər ki, yaşlı bir yapon gəlib bizə tövsiyələr verir. Halbuki ulu öndərin, Heydər Əliyevin rəhbərliyi altında yetişmiş yer quruluşu və geodeziya sahəsi üzrə onlarla alim, təhqiqatçı hələ də onlardan kiminsə faydalanacağı günü gözləyirlər və deyirlər ki, nəhayət kresloları sürüşən məmurlardan sonra o alimlərin ağlından, biliyindən kimsə gəlib istifadə

edəcək. Məgər Şıxzamanovlar kimi tanınmış yer quruluşçuları bizə Bakını min bir zəhmətlə quran dövlət başçısı üçün ən yaxşı silahdaşlar olmazdılarmı? Yüz yapon da gəlsə, bu məmləkəti quran və qoruyan öz mütəxəssislərimiz olacaq. Mən təklif edirəm ki, Badamdarın həmin ərazisində sabitləşmə yaradıldıqdan sonra dənizkənarı bulvarın davamı olaraq gözəl ponaramlı bir dağüstü park yaradılsın ki, ondan hamı istifadə edə bilsin.

Digər təklifim ondan ibarətdir ki, 2019-cu ildə Tikinti və Arxitektura Komitəsi birinci növbədə ölkədə inşa edilən minlərlə binanın nəhayət qeydə alınmasını təmin eləsin. Belədə büdcəyə on milyon manatlarla rüsum və vergilər daxil olacaq, digər tərəfdən yeni sərəncam və tikintilərə razılıqları da ASAN xidmət qaydasında açsın, hamı onu görsün. Yoxsa elə görünməsin ki, vahid bir pəncərə yaradıb, qapını da bağlayıblar.

Cənab Sədr, mən Sizə çox təşəkkür edirəm, 7 dəqiqə artıq tamam olub. Çox minnətdaram, hesab edirəm ki, bu məsələlər ümumən hökumətin burada olan nümayəndələri tərəfindən eşidiləcəkdir. Mən vergi sistemi ilə bağlı irəli sürülən dəyişiklikləri təqdir edirəm, bank sektoru ilə bağlı...

**Sədrlik edən**. Oldu. Sağ olun, sabaha qədər. Sabah günün birinci yarısında müzakirələri qurtarıb, gündəliyin ikinci məsələsinə keçərik. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***13 noyabr 2018-ci il***

---

**Novruz Aslanov.** Ölkə iqtisadiyyatının sürətli inkişaf dinamikasını ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi islahatların ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davamının məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Belə ki, son zamanlar Azərbaycan iqtisadiyyatının inkişafı yüksək dinamizm və artım sürəti ilə müşayiət olunur. Əhalinin rifah halının, onun maddi təminatının yaxşılaşdırılması məhz, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi xəttin prioritet istiqamətini təşkil edir. Artıq bu sahədə hamı tərəfindən etiraf edilən irəliləyişlərə nail olunmuşdur. Güclü dövlətin güclü büdcəsi və maliyyə potensialı olmalıdır. Azərbaycanda bu potensial mövcuddur və günü-gündən artmaqdadır. Bu gün bizə təqdim olunan büdcə paketində bunu görmək mümkündür.

2019-cu il üçün dövlət büdcəsi artıq komitələrdə geniş müzakirə olunmuş, hökumət qurumlarının nümayəndələri və deputat həmkarlarım da öz təklif və tövsiyələrini vermişlər. Mən bir vacib məsələyə diqqətinizi yönəltmək istəyirəm. Büdcədə nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondu bölümünə xüsusi diqqət yetirilməli və fondun imkanları daha da artırılmalıdır. Çünki Prezidentin Ehtiyat Fondu özünün operativliyi, çevikliyi ilə seçilən maliyyə bazasıdır. O, zəruri hallarda bu və ya digər sahələrə operativ olaraq maliyyə vəsaitinin ayrılmasını təmin edir. Bununla da hər hansı bir layihənin icrasında maliyyə çatış-

mazlığı və ya hər hansı bir problem olmur. Belə ki, respublikanın şəhər və rayonlarında sosial-iqtisadi və digər layihələrin həyata keçirilməsində məhz Prezidentin Ehtiyat Fondunun müstəsna rolu vardır. Son zamanlar cənab Prezidentin bölgələrə səfərində müxtəlif obyektlərin açılışı zamanı məhz özünün iştirakı, yerli sakinlərin fikirlərini şəxsən dinləməsi, onların arzu və istəklərinin nəzərə alınaraq, gələcəkdə yeni layihələrin həyata keçirilməsi üçün Ehtiyat Fondundan maliyyə vəsaitinin ayrılması bunun bariz nümunələrindəndir. İsmayıllı rayonundan seçilmiş bir deputat kimi onu deyə bilərəm ki, son iki ildə İsmayıllı rayonunda kifayət qədər uğurlu layihələr həyata keçirilmişdir. Buna misal olaraq dövlət başçısı tərəfindən imzalanmış sərəncamlara əsasən Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun qorunması və bərpasını, İvanovka kəndində mədəniyyət sarayının əsaslı təmirini, Şamaxı rayonunun Dəmirçi kəndindən Lahıc qəsəbəsinə yeni çəkilmiş avtomobil yolunu, Lahıc qəsəbəsinin qazla təmin olunmasını, yeni ümumtəhsil məktəbinin istifadəyə verilməsini, həmçinin müasir heyvandarlıq kompleksinin, "Azərxalça" İsmayıllı filialının, elektrik yarımstansiyasının, aqroparkın və kəndlərarası avtomobil yollarının təmirini göstərə bilərəm. Bu kimi layihələr bütün bölgələrdə həyata keçirilir.

Hamıya məlumdur ki, cənab Prezident bölgələrə səfərindən sonra yeni layihələrin həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan maliyyə vəsaiti ayırır. Bu da bölgələrdə zəruri layihələrin icrasının operativliyini tam təmin edir, əhalinin rifahının yüksəlməsinə xidmət edir. Zənnimcə, Prezidentin Ehtiyat Fondunun maliyyə imkanlarını daha da artırmaq lazımdır.

Nəzər yetirmək istədiyim digər bir məsələ isə mə-

dəniyyət sahəsinə aiddir. Komitələrdə müzakirələr zamanı respublikanın mədəni həyatı da diqqət mərkəzində olmuşdur. Azərbaycanın zəngin tarixinin əsas atributlarından olan mədəni-tarixi abidələrimizin qorunması və bərpası milli-mənəvi dəyərlərimizin və mədəni irsimizin gələcək nəsillərə çatdırılmasında xüsusi önəm daşıyır. Tariximizi əks etsirən kifayət qədər mədəni abidələrimiz mövcuddur. Onların hamısı qorunur və böyük əksəriyyəti bərpa olunaraq ictimaiyyətə təqdim olunur. Bunun davamlı olması üçün maliyyə dəstəyinə ehtiyac vardır. Hesab edirəm ki, bu sahənin inkişafı üçün büdcədə Mədəniyyət Nazirliyinə maliyyə vəsaitinin artırılması daha məqsədəuyğun olar.

Qeyri-hökumət strukturlarına, ictimai və yaradıcı birliklərə büdcədən verilən maliyyə dəstəyi vətəndaş cəmiyyətinin inkişafına böyük təsir göstərir. Bu da respublika rəhbərliyinin bu sahəyə ayırdığı xüsusi diqqət və qayğısının təzahürü kimi dəyəndirilir.

Bunu 100 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Qızıl Aypara Cəmiyyəti daim öz üzərində hiss etmişdir. Belə ki, müvafiq beynəlxalq təşkilatlara üzvlük haqlarının keçirilməsi və digər məsələlərlə bağlı Maliyyə Nazirliyinə müraciətlərimiz daim nazirliyin rəhbərliyi tərəfindən dəstəklənmişdir. Ümid edirik ki, bu dəstək bundan sonra da davam edəcəkdir. Bir daha belə mükəmməl, həyatımızın bütün sahələrini tam əhatə edən büdcənin hazırlanmasında əməyi olan hər bir şəxsə öz təşəkkürümü bildirirəm. İnanıram ki, bu büdcə tövsiyə və təkliflər nəzərə alınmaqla Parlament tərəfindən qəbul olunacaqdır.

Bu çıxışımla hörmətli həmkarlarımı təkliflərə dəstək verməyə dəvət edirəm. Diqqətinizə görə minnətdaram.